Xalqın qəzeti!

# Xalq qəzeti

№ 247 (30363) 14 noyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham ƏLİYEV:**

**Biz sentyabrda separatizmlə bağlı çoxillik məsələyə son qoyduq. Bu gün Azərbaycanın ərazisində Azərbaycan Bayrağının dalğalanmadığı heç bir guşə yoxdur.**

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

### Daşkənddə Pakistanın Keçid Hökumətinin Baş naziri ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 9-da Daşkənddə Pakistan İslam Respublikasının Keçid Hökumətinin Baş naziri Ənvər-ul-Xak Kakar ilə görüşü olub.**

Görüşdə Azərbaycan ilə Pakistan arasında əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olundu.

Pakistanın Baş naziri Azərbaycanı antiterror tədbirlərinin uğurla başa çatması və Azərbaycanın suverenliyinin tam şəkildə təmin olunması münasibətilə təbriklərini çatdırdı. Pakistanın həmişə Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiyini vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən işğalı dövründə, həmçinin 44 günlük Vətən müharibəsində Pakistanın ölkəmizə göstərdiyi siyasi-diplomatik dəstəyini və Ermənistanın işğalçı dövlət kimi tanımasını yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev Azərbaycanın Cəmmu və Kəşmir məsələsində BMT Təhlükəsizlik Şurasının müvafiq qərarlarını rəhbər tutaraq haqq-ədalətin tərəfdarı olduğunu diqqətə çatdırdı.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin, biznes dairələri arasında əlaqələrin genişləndirilməsi məsələlərinə toxunuldu. Hökumətlərarası Komissiyanın fəaliyyətinin vacibliyi qeyd edildi. Həmçinin enerji və nəqliyyat bağlantıları sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

İmtiyazlı ticarət münasibətlərinin ölkələrimiz arasındakı ticarət dövriyyəsinin həcminin artırılmasına müsbət təsir göstərəcəyi qeyd edildi. İnformasiya-kommunikasiya texnologiyaları, turizm sahələrində əməkdaşlığın, iki ölkənin şəhərləri arasında bu yaxınlarda birbaşa hava əlaqəsinin yaradılmasının müsbət addım olduğu bildirildi, bunun turizm sahəsində əməkdaşlığa və insanlar arasındakı təmaslara müsbət təsir göstərəcəyi vurğulandı. İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın davam etdirilməsinin vacibliyi qeyd olundu.

Söhbət zamanı dünyada islamofobiya meyillərinin artmasından narahatlıq ifadə edildi.

## Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələri dərinləşir



**Azərbaycanın uğurla sədrlik etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) elan edilən "Yaşıl keçid və qarşılıqlı əlaqələr" ilində quruma üzv ölkələr arasında gerçəkləşdirilən layihələrin icrası ilə tərəfdaşlığın genişlənməsi sürətlənib. Bu çərçivədə düşməndən təmizlənən ərazilərimizdə "yaşıl enerji" zonasının yaradılması istiqamətində əhəmiyyətli təşəbbüslərin reallaşdırılması davam etdirilib. Bakıda Təmiz Enerji Mərkəzinin və Regional Elektrik Bazarının təşkili sahəsində mühüm layihələr həyata keçirilib, həmçinin ekologiya sahəsində yüksək səviyyəli dialoq platforması yaradılıb. Təşkilata üzv ölkələr arasında turizm sektorunda əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə ilk dəfə olaraq tur-operatorlar şəbəkəsi formalaşdırılıb və Təhlükəsiz Turizmin İnkişafı Proqramı təsdiq edilib.**

(ardı 9-cu səhifədə)

## ATƏT PA-nın İrəvanda payız sessiyası, yoxsa erməni avantürizminə növbəti dəstək



**Dünya ermənipərəstlərinin növbəti qrupu İrəvanda toplaşacaq. 57 ölkədən 300-ə yaxın nümayəndə noyabrın 18-20-də Ermənistanın paytaxtında olacaq. Onlar Cənubi Qafqaz regionu ilə bağlı məsələləri müzakirə edəcəklər. Söhbət ATƏT-in Parlament Assambleyasının payız sessiyasının İrəvanda keçirilməsindən gedir.**

Qeyd edək ki, bu il iyunun 13-də Ermənistan parlamentinin spikeri Alen Simonyan ATƏT PA-nın sədrinə və baş katibinə müraciət ünvanlayaraq ölkəsinin qurumun payız sessiyasını keçirməyə hazır olduğunu bildirmişdi. Həmin vaxt Azərbaycan–Ermənistan münasibətlərində indiki gərginlik müşahidə olunmasa da, məlum idi ki, baş nazir Nikol Paşinyanın komandası ATƏT tribunasını da özünün anti-Azərbaycan platformasına çevirməyi hədəfləyir. Hazırda isə məsələ, belə demək mümkünsə, tam bişib.

(ardı 6-cı səhifədə)

## Fransa Hərbi Qənimətlər Parkında öz texnikasını görmək istəyirsə...

Səhifə ⇨ 6

## Son sözü onu haqq edən deyəcək

**Ermənistan baş naziri Nikol Paşinyan Parisdə keçirilən 6-cı Sülh Konfransının panel müzakirələrində Azərbaycanla sülh müqaviləsini Brüssel danışıqlarında səslənmiş üç prinsip əsasında imzalamağa hazır olduğunu bəyan edib. Son vaxtlar Hayastan liderinin tutuquşu kimi təkrarladığı həmin 3 prinsip hansılardır? Onun qənaətinə görə, 1-ci prinsip Ermənistan və Azərbaycanın qarşılıqlı olaraq 86,6 min kv.km və 29,8 min kv.km hüdudlarda bir-birinin ərazi bütövlüyünü tanımasıdır. 2-ci prinsip sərhədlərin delimitasiyası və demarkasiyasının 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun şəkildə aparılmasıdır. 3-cü prinsip isə regional kommunikasiyaların keçdiyi ölkələrin suverenliyi, yurisdiksiyası və qanunvericiliyi çərçivəsində açılmasıdır.**

2018-ci ildə Fransa liderinin "böyük diskussiya meydançası" kimi düşündüyü və az sonra "Makronun sülh forumu" kimi tanınan Paris Sülh Konfransı aktuallığını çoxdan itirib. Nikol Paşinyan gürcüstanlı həmkarı İrakli Qaribaşvili ilə birlikdə qatıldığı panel müzakirədə Qranadada beştərəfli görüşün baş tutmamasına görə Bakını günahlandırıb və Azərbaycanın razılaşdırılmış görüşdən imtina etdiyini bildirib.

(ardı 11-ci səhifədə)

## Mirzoyanın yalanları UNESCO-ya da "ayaq açır"




**Ermənistan Azərbaycanın regionda yaratdığı yeni reallıqları qəbul etmək əvəzinə, ölkəmizə qarşı əsassız ittihamlar irəli sürməyə, hədyanlar yağdırmağa davam edir. Rəsmi İrəvan bu məqsədinə nail olmaq üçün müxtəlif beynəlxalq platformalardan yararlanmağa çalışır. Belə platformalardan biri də BMT-nin elm, təhsil və mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO-dur.**

(ardı 11-ci səhifədə)

## Böyük Qayıdışın Laçın qaranquşu

*Müxbirlərimiz Laçından xəbər verirlər*

**Laçına ezam edilmiş qrupumuz yeni salınmış rahat magistraldan və bundan xeyli artıq çəkilməkdə olan yollardan keçib Böyük Qayıdışın daha bir qaranquşu Laçına yetişdi. Ərazidəki ən uca zirvə olan Hoçazdağın qarşı tərəfindən şəhərin üstünə işıq salan payız günəşi yamaclara sığınmış şəhəri sanki, daha gur və xüsusi bir nəvazişlə işıqlandırırdı. Önümüzdə açılmış mənzərənin əsrarəngizliyinə heyran qalmamaq mümkün deyildi. Bir anlıq gördüklərimizi möcüzəli bir yuxu sansaq da, dərhal hər şeyin gerçək olduğunu yada saldıq.**



Bu şəhər artıq 6 aydır ki, öz tarixinin yeni xoşbəxt bir mərhələsini məmnunluqla yaşayır. Onun köhnə və həm də yeni sakinlərinin çöhrələrindəki hədsiz rahatlıq məhz belə bir ovqat yaradır. Dolanbac yolların arasındakı yamaclara sığınmış Laçını ölkəmizdəki və bizə bəlli xarici dağ şəhərlərinin heç birinə bənzəməyən amfiteatrlar silsiləsi təşkil edir.

Yolboyu və şəhərin daxilində diqqətimizi cəlb edən başqa bir görüntü isə tikinti maşın-mexanizmlərinin və minik avtomobillərinin hər addımda qarşımızdan ötüb keçməsi oldu. Elə bil, ölkənin bütün ağır və müasir yük maşınları, paytaxtın tinlərində müştəri gözləyən avtomobillərin bir hissəsi buraya gətirilmişdi.

Ağ boyalı, kirəmit damlı və bir-birinə bənzəməyən fərdi evlərin qarşısında dayandıqca eyvana çıxan sakinlərin şən çöhrəsini görməkdən, onlarla salamlaşıb hal-əhval tutmaqdan duyduğumuz sevincin ardını, Laçına köçürülmüş 315 ailənin hədsiz məmnunluğunu, şükranlığını, bu xoşbəxtliyi onlara bəxş etmiş Prezident İlham Əliyevə minnətdarlıqlarını, şəhidlərimizin ruhuna elədikləri duaları, qazilərimizə xoş arzularını qəzetimizin növbəti sayında təfsilatı ilə oxucularımıza çatdıracağıq.

**Tahir AYDINOĞLU,**
**Əli NƏCƏFXANLI,**
**Səbuhi MƏMMƏDOV**
**XQ**

# Daşkənddə İlham Əliyevin Şavkat Mirziyoyev ilə görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 9-da Daşkənddə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.**



**Dövlətimizin başçısını salamlayan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dedi:**

– Özbəkistana bir daha xoş gəlmisiniz. Sizi salamlamağıma çox şadam. Mehriban xanıma mənim həyat yoldaşım və ailəmdən böyük salamlar var. Fikrimcə, biz hələ növbəti səfərlər zamanı birlikdə görüşəcəyik.

Dünən Azərbaycanda böyük bayram idi, düşünürəm ki, Özbəkistanda da böyük bayram oldu. Mən bütün Azərbaycan xalqını bu Qələbə münasibətilə təbrik edirəm. Biz həmişə buna inanmışıq. Siz Xankəndidə Bayraq qaldırdınız və biz bunun bütün məsələlərə nöqtə qoyduğunu gördük. Güclü Azərbaycan artıq irəliyə doğru addımlayacaq və Azərbaycan xalqının, Azərbaycanın dostlarının, o cümlədən özbək xalqının, Özbəkistanın və Özbəkistan rəhbərliyinin də uzun illər gözlədiyi uğurlara nail olacaq. Ümidvarıq ki, Qarabağ gələcəkdə Azərbaycanda çiçəklənən torpaq olacaq, çünki Siz çox işlər görürsünüz. Mən Şuşada və Füzulidə həyata keçirilən bütün işləri öz gözləri ilə görmüş insanam. Çox şadam ki, orada olmuşam. Mən də onların nələr etdiklərini, özlərindən sonra nələr qoyub getdiklərini və Sizin səyləriniz sayəsində görülən işləri danışacağam. Yaxın ölkə olaraq, münasibətə görə Sizə minnətdardırlar. Bu, qardaş dövlətin ərazilərimizin bərpası prosesində aldığımız birinci hədiyyəsidir.

Azərbaycanın suverenliyinin bərpası ilə əlaqədar təbrikə görə minnətdaram. Bu, tarixi hadisədir. Biz sentyabrda separatizmlə bağlı çoxillik məsələyə son qoyduq. Bu gün Azərbaycanın ərazisində Azərbaycan Bayrağının dalğalanmadığı heç bir guşə yoxdur. Sizin bu məsələyə şəxsi münasibətinizi və bütün qardaş özbək xalqının münasibətini, dəstəyini, həmrəyliyini çox yüksək qiymətləndiririk.

Sizi böyük uğurlar münasibətilə təbrik etmək istərdim. Dünəndən Daşkənddə olarkən, düşünürəm ki, bu, zənnimcə, mənim hələ olmadığım şəhərdir. Çünki aeroportdan gələrkən və mehmanxananın pəncərəsindən gördüklərim həqiqətən də xoş təsir bağışlayır və sevindirir. Qısa vaxt ərzində Siz bu günün Özbəkistanını təcəssüm etdirən ən müasir infrastruktur yaradırsınız. Sizin rəhbərliyinizlə, Sizin islahatlarınız və yorulmaz əməyiniz sayəsində Siz islahatlarınızı və quruculuq gündəliyinizi irəli aparırsınız. Biz, dostlarınız və qardaşlarınız kimi, buna səmimi-qəlbdən sevinirik. Sevinirik ki, Özbəkistan inkişaf edir, iqtisadi potensial, sənaye potensialı güclənir və əlbəttə, beynəlxalq arenada nüfuzunuz artır.



daha böyük uğurlar diləyirəm. Azərbaycan xalqı kimi, biz də ədalətin onsuz da zəfər çalacağını, Azərbaycan xalqının öz Qələbəsini qazanacağını gözləyirdik.

Ən xoş arzularımı çatdırıram. Əminəm ki, tezliklə Qarabağ çox inkişaf edən diyara çevriləcək. Çünki Siz Şuşada, Füzulidə nələr olacağını mənə danışdınız, biz yeni aeroportu gördük, mən də orada oldum, əgər bunun Füzulidə olmasına inanmayan varsa, özü baxa bilər. Əslində, bu, Füzulidir və bütün infrastruktur öz həllini tapır. Həm də demək istəyirəm ki, bizim bütün razılaşmalarımız həyata keçirilir.

Özbəkistan Prezidenti əməkdaşlığın möhkəmləndirilməsində qarşılıqlı səfərlərin rolunu vurğuladı. Şavkat Mirziyoyev qeyd etdi ki, Azərbaycanın bütün sahələrdə, o cümlədən, iqtisadi sahədə uğurları Özbəkistanda böyük sevinc hissi doğurur.

Özbəkistan Prezidenti əmin olduğunu bildirdi ki, ikitərəfli əlaqələr qarşıdakı illərdə də inkişaf edəcək.

*

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Şavkat Miromonoviç, sağ olun. Əziz qardaş, xoş sözlərə, təbriklərə görə sağ olun.

Biz bütün işlərimizdə şəxsən Sizin və qardaş özbək xalqının dəstəyini hiss etmişik və edirik. Dünən bizim qeyd etdiyimiz Zəfər Günü ilə bağlı təbriklərinizə görə sağ olun.

Sizin də qeyd etdiyiniz kimi, Siz Şuşa və Füzulidə olmusunuz. Mən də dünən bu yerlərdə oldum və Füzuli şəhərinin yaxınlığından keçəndə Sizin bizə təqdim etdiyiniz qardaş hədiyyəsinə – Mirzə Uluqbəy adına məktəbə bir daha böyük məmnunluq və minnətdarlıqla baxdım. Zənnimcə, Füzuliyə gələn hər kəs, orada yaşayanların hamısı belə

Bütün bunlar Sizin sayənizdədir, çünki son illər qazanılan bütün nailiyyətlər məhz Sizin adınızla bağlıdır. Əminəm və bilirəm ki, Özbəkistan vətəndaşları bunu yüksək qiymətləndirirlər. Təsadüfi deyil ki, prezident seçkilərində Sizə yenidən böyük etimad göstərilib. Sizin seçkilərdən sonra ilk dövlət səferinizi Azərbaycana etməyinizi biz hamımız çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, düşünülmüş addımdır, bizim qardaşlıq münasibətlərimizin nümayişidir.

Mütəmadi qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin möhkəmləndirilməsində əhəmiyyətini qeyd edən dövlət başçısı vurğuladı ki, keçirilən görüşlərdə sənaye kooperasiyası, kənd təsərrüfatı, investisiya və digər sahələrdə qarşılıqlı fəaliyyət məsələləri müzakirə olunur. Prezident İlham Əliyev bildirdi ki, həyata keçirilən əməkdaşlıq gələcəkdə iki ölkənin iqtisadi potensialının gücləndirilməsinə xidmət edir. Azərbaycan Prezidenti Özbəkistan Prezidentinin əlaqələrin genişləndirilməsinə töhfəsini yüksək qiymətləndirdi.

*

Görüşdə beynəlxalq təşkilatlar, o cümlədən, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu, energetika, sənaye sahələrində birgə layihələrin həyata keçirilməsinin, investisiya, nəqliyyat, humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsinin yaxşı potensialı olduğu qeyd edildi, münasibətlərin dərinləşdirilməsi istiqamətində konkret sahələrdə fəal iş aparıldığı məmnunluqla vurğulandı.

Söhbət zamanı gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısı

## Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib



**Noyabrın 9-da Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısı keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Tədbirdə ECO-nun əvvəlki Zirvə toplantıları və üzv dövlətlərin başçılarının təşkilat çərçivəsində keçirdikləri görüşlər ilə bağlı videoçarx nümayiş olundu.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev iclası açaraq iştirakçıları salamladı və ötən Zirvə toplantısından keçən dövrdə görülən işlər barədə məlumat verdi.

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına uğurlu sədrliyi münasibətilə Prezident İlham Əliyevi təbrik edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev "Yaşıl keçid və qarşılıqlı əlaqələr" ilində ölkəmizin sədrliyi çərçivəsində həyata keçirilən tədbirlərin və təşəbbüslərin tərəfdaşlığımızın genişlənməsinə böyük töhfə verdiyini vurğulayaraq dedi: "Bakıda Təmiz Enerji Mərkəzinin və Regional Elektrik Bazarının təşkili istiqamətində əməli tədbirlər həyata keçirilir, həmçinin ekologiya sahəsində də yüksək səviyyəli dialoq platforması yaradılıb. Turizm sektorunda əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə ilk dəfə olaraq tur-operatorlar şəbəkəsi formalaşdırılıb və Təhlükəsiz Turizmin İnkişafı Proqramı təsdiq edilib".

Prezident Şavkat Mirziyoyev qeyd etdi ki, Özbəkistan Azərbaycan və Türkiyə ilə yükdaşımalarla bağlı məlumatları rəqəmsallaşdırıb və digər ölkələrlə də analoji layihələr həyata keçirilir.

ECO-nun Baş katibi Xusrav Noziri Türkmənistan, Tacikistan və Türkiyə, eləcə də Azərbaycan və İran arasında razılaşdırılmış multimodal dəhlizlərin xalqlarımız arasında əlaqələrin inkişafına xidmət edəcəyini bildirdi. Energetikanın ECO üçün çox vacib sahə olduğunu qeyd edən Baş katib bu istiqamətdə Xartiyanın imzalanmasının əhəmiyyətini vurğuladı.

Turizm sahəsində əməkdaşlığa da diqqət çəkən Xusrav Noziri dedi: "Biz, həmçinin turizm potensialının inkişafına diqqət yetiririk. "Turizm paytaxtları" konsepsiyası çox mühüm təşəbbüsdür. İndiyədək 6 şəhər, o cümlədən, Tacikistanın Düşənbə, İranın Sari və Ərdəbil, Özbəkistanın Şəhrisəbz, Türkiyənin Ərzurum və Azərbaycanın Şuşa şəhərləri "Turizm paytaxtları" seçilib. Çox zəngin mədəni irs və təbiətimizin gözəllikləri ideyalarının təbliği məqsədilə turizm sahəsinin seçilməsi müntəzəm yanaşma olacaq.

Dövlətimizin başçısı Zirvə toplantısında çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Şavkat Miromonoviç!

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli Zirvə toplantısının iştirakçıları!

Yüksək qonaqpərvərliyə görə qardaş Özbəkistanın Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə minnətdarlığımı bildirirəm.

Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq uğurla inkişaf edir. Ötən il mən Özbəkistana bir dövlət səfəri və iki işgüzar səfər etmişəm. Hər səfərimdə Özbəkistanda hərtərəfli islahatların nəticələrinin, sosial və iqtisadi inkişafın şahidi oluram. Əldə olunmuş uğurlar münasibətilə Özbəkistan rəhbərliyini təbrik edirəm.

Şavkat Miromonoviç Mirziyoyev yenidən Özbəkistan Prezidenti seçildikdən sonra ilk dövlət səfərini Azərbaycana edib. Bu, iki ölkə arasında qardaşlıq münasibətlərinin nə dərəcədə dərin olmasını bir daha nümayiş etdirir.

İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü kimi Azərbaycan təşkilatın işində fəal iştirak edir.

Ötən ay ECO Nazirlər Şurasının iclası Şuşada keçirilib. Dünən Azərbaycan xalqı Şuşanın Ermənistanın təxminən 30 illik işğalından azad olunmasının üçüncü ildönümünü qeyd etdi.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub və Avrasiyanın Şərq–Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Hər iki dəhlizin Azərbaycandan keçən hissələri tam hazırdır. Biz hazırda bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükaşırma qabiliyyətinin genişləndirilməsi üzərində işləyirik.

Son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dolları həcmində sərmayə qoyulub və bunun 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bu, ölkəmizdə olan münbit sərmayə iqliminin nəticəsidir.

Məmnuniyyətlə qeyd etmək istərdik ki, Azərbaycan ECO-nun Təmiz Enerji Mərkəzinin ev sahibi kimi rəsmi olaraq təsdiqlənib.

Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, biz bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetiririk. Azərbaycanın bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir.

Azərbaycan yaxın gələcəkdə yaşıl və hidrogen enerjisinin ixracatçısına çevriləcək. Dünyanın aparıcı yaşıl enerji şirkətləri olan xarici investorlarla imzaladığımız sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatacaq. Bu ilin oktyabr ayında Azərbaycanda "Masdar" şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyasının açılışı olub. Bu, Xəzər dənizi və Qafqaz regionunda ən böyük günəş elektrik stansiyasıdır.

Azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda 2021–2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəm 270 meqavata çatacaq. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcək.

Ermənistan Azərbaycanın 20 faizə yaxın ərazisini təqribən 30 il ərzində işğal altında saxlamışdır. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuş, qaçqın və məcburi köçkünə çevrilmişdir.

2020-ci ildə Azərbaycan BMT Nizamnaməsindən irəli gələn legitim özünümüdafiə hüququndan istifadə edərək Vətən müharibəsində Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində kağız üzərində qalmış dörd qətnamənin icrasını özü təmin etdi.




İşğal dövründə Ermənistan Azərbaycanın doqquz şəhərini və yüzlərlə kəndini yer üzündən silmiş, İslam dininə məxsus mədəni və tarixi irsimizi dağıtmış və təhqir etmişdir. 67 məsciddən 65-i dağıdılmış, qalanları isə inək və donuz saxlanılması üçün tövlə kimi istifadə olunmuşdur.

Bu il sentyabrın 19-20-də keçirilmiş birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimin mövcudluğuna son qoydu və özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Biz ərazi bütövlüyümüzü və suverenliyimizi güc yolu ilə, beynəlxalq hüquqa və BMT Nizamnaməsinə uyğun olaraq bərpa etmişik və bununla qürur duyuruq.

Mən bu tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən ECO-nun üzv dövlətlərinə təşəkkürümü bildirirəm.

Çıxışımın sonunda vurğulamaq istərdim ki, Azərbaycan ECO-nun üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı daha da genişləndirməkdə qərarlıdır və təşkilatın növbəti Zirvə görüşünə evsahibliyi etməyə hazırdır.

Sağ olun.

*

Zirvə görüşünün işinə uğurlar arzulayan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın Azərbaycan qarşısındakı öhdəliklərini yerinə yetirməsinin bölgədə davamlı sülhün təmin olunmasında xüsusi rol oynayacağını vurğulayaraq dedi: "Qarabağda 30 ildən artıq davam edən işğalın tamamilə aradan qaldırılması ilə bölgəmizdə davamlı sülhə bir addım daha yaxınlaşdığımızı görürük. Ermənistanın Azərbaycan qarşısındakı öhdəliklərini yerinə yetirməsi bunu asanlaşdıracaq. Azərbaycanın qərb bölgələri ilə Naxçıvanı birləşdirəcək nəqliyyat xətlərinin ən yaxın dövrdə yaradılması da xüsusi strateji əhəmiyyət kəsb edir".

ECO-nun 16-cı Zirvə toplantısında, həmçinin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Pakistan İslam Respublikasının Keçid Hökumətinin Baş naziri Ənvər-ul-Xak Kakar, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon və Qazaxıstan Respublikasının Baş naziri Alixan Smailov çıxış etdilər.

# Azərbaycan Prezidentinin İran Prezidenti ilə görüşü

**Noyabrın 9-da Daşkənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olub.**



**İran Prezidenti Seyid İbrahim Rəisi dövlətimizin başçısını salamlayaraq dedi:**

– Mərhəmətli və rəhimli Allahın adı ilə.

Mən çox şadam ki, İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində biz Sizinlə görüşə, ikitərəfli və bizi maraqlandıran məsələləri müzakirə edə bildik. Xoşbəxtlikdən, əlaqələrimiz qənaətbəxş səviyyədədir və müxtəlif sahələrdə işlərimiz, layihələrimiz uğurla davam edir.

Biz, həmçinin çox sevinirik ki, Qarabağ uzun illərdən sonra öz əzəli ərazisinə qovuşdu. Bu, Azərbaycandır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edə bildi. Ümid edirik ki, Qarabağ yenidən qurulacaq və bərpa olunacaq. Biz bu planda əvvəlki kimi, Qarabağın bərpasında Sizə dəstək verməyə, öz xidmətlərimizi, o cümlədən, mühəndis-texniki sahədə təklif etməyə hazırıq. İran şirkətləri Qarabağın bərpasında və ümumiyyətlə, Azərbaycanın inkişafında Azərbaycandan olan əziz dostlarımıza kömək etməyə hazırdır.

Biz nəqliyyat və tranzit sahələrində vəziyyətin gündən-günə yaxşılaşdığını müşahidə edirik. Ölkələrimiz arasında nəqliyyat işi getdikcə artır. Bu, həm sizin, həm də bizim hədəflədiyimiz məsələdir. Araz çayı üzərindən keçən Ağbənd marşrutu və bizim orada bir-birimizlə razılaşdıraraq həyata keçirdiyimiz layihələr hər iki ölkənin maraqlarına cavab verir. Bu, Azərbaycan, İran və Naxçıvan arasında nəqliyyat əlaqələrinə zəmanət verir və bu sahədəki qayğıları aradan qaldırır.

Əminik ki, rəqiblərimizin istəklərinin əksinə olaraq, münasibətlərimiz gündən-günə yaxşılaşır və əlaqələrimizə mane olmaq istəyən ölkələr öz planlarını həyata keçirə bilmir və məyus olur.

Biz əminik ki, Azərbaycan ilə İran arasındakı münasibətlər təkcə diplomatik qonşuluq əlaqələri deyil, bu, iki xalq arasında çox dərin münasibətlərdir.

Xalqlarımız qəlbən bir-birinə yaxındır və münasibətlərimiz sarsılmazdır. Ona görə liderlərimiz də bu əlaqələrin inkişafına çox ciddi yanaşırlar. Sizinlə görüşdən dərin sevinc duyduğumu bir daha təkrar edirəm.

*

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Hörmətli cənab Prezident, mən də Sizi görməyimə çox şadam. Bu, ikitərəfli gündəliyin və regional əməkdaşlığın mühüm məsələlərinin müzakirəsi üçün yaxşı fürsətdir. Əvvəlki görüşlərimizi, həmçinin hər görüşdən sonra münasibətlərimizin inamlı inkişafına çox ciddi təkan verdiyimizi xatırlayıram. Azərbaycanın ərazi bütövlüyünün və bütün ərazisində suverenliyinin bərpası münasibətilə təbriklərinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Sentyabrda biz antiterror əməliyyatı keçirdik, nəticədə Azərbaycanda separatizmə son qoyuldu. Bu, Azərbaycanın daha fəal inkişafına şərait yaratmaqla yanaşı, həm də bütün regionda əlverişli mühit yaradır. Siz ikitərəfli münasibətlərimizin tarixində mühüm mərhələni, yəni, Ağbənd yaxınlığında Araz çayı üzərindən körpülərin tikintisinə başlanılmasını qeyd etdiniz. Bu, böyük perspektivi olan layihədir.

İkinci Qarabağ müharibəsindən sonrakı üç il ərzində Ermənistan öz öhdəliklərini yerinə yetirməkdən, məhz Azərbaycanın əsas hissəsindən Naxçıvana gediş-gəlişi təmin etməkdən imtina edirdi və imtina etməkdə davam edir. Bu, onların seçimidir, düşünürəm ki, onlar böyük səhvə yol veriblər.

Çox şadam ki, İran və Azərbaycan nümayəndələrinin birgə işi nəticəsində biz Araz çayının cənub sahili boyunca dəmir yolu və avtomobil xətti marşrutunun keçməsini razılaşdırdıq. Əminəm ki, bu layihə qısa müddətdə həyata keçiriləcək və Şimal–Cənub Nəqliyyat Dəhlizinin daha bir istiqamətinə çevriləcəkdir. Yəni, nəticədə bizim iki marşrutumuz olacaq: biri Astara çayı üzərindən, digəri Ağbənd ərazisindən. Hər iki marşrut İranla Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi işinə xidmət edəcək, həmçinin qonşularımız və digər tərəfdaş ölkələr üçün əlçatan olacaq.

İki ölkənin yüksək səviyyəli nümayəndələri arasında çox tez-tez və müntəzəm təmasların olmasını da məmnunluqla qeyd edərdim. İranın xarici işlər nazirinin səfəri, Azərbaycan Baş nazirinin müavininin səfəri, mənim nümayəndəmin səfəri və Sizin vaxt taparaq onları qəbul etməyiniz əlaqələrimizin davamlı inkişafından xəbər verir.

Əvvəlki illərdə də biz regiondankənar qüvvələrin İranla Azərbaycan arasında dostluq münasibətlərinə müdaxilə etmək cəhdlərinin də şahidi olmuşuq. Bu cəhdlər nəticəsiz qaldı. Əminəm ki, indi də düşmənlərimiz öz məqsədlərinə çatmayacaqlar. İran və Azərbaycan bundan sonra da uğurla əməkdaşlıq edəcək və münasibətləri gücləndirəcəklər.

*

Görüşdə Araz çayı üzərində Ağbənd istiqamətində dəmir yolu və avtomobil yolu körpülərinin tikilməsi və İran ərazisindən dəhlizin çəkilməsi ilə əlaqədar məsələlər müzakirə olundu. Eyni zamanda, Şimal–Cənub Nəqliyyat Dəhlizi üzrə Azərbaycan ərazisində dəmir yolu infrastrukturunun ötürmə qabiliyyətinin artırılması və bunun tikintisinin Rəşt-Astara dəmir yolu ilə sinxron qaydada həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı energetika sahəsində əməkdaşlıq məsələləri müzakirə olundu, 3+3 formatının əhəmiyyəti qeyd edildi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

# Zirvə toplantısının iştirakçılarının şərəfinə rəsmi qəbul

**Noyabrın 9-da Daşkənddə İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısı iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Azərbaycan Prezidentinin Özbəkistana səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana səfəri noyabrın 9-da başa çatıb.**

Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul edib.**

Görüşdə Cənubi Qafqaz regionunda vəziyyətlə və ATƏT Parlament Assambleyasının rolu ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı qeyd etdi ki, Cənubi Qafqaz regionunda artıq yeni reallıqlar yaranıb. Prezident İlham Əliyev vurğuladı ki, regionda baş vermiş son hadisələr Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş işğalı və hərbi təcavüzü kontekstində nəzərdən keçirilməlidir. Bu işğal və təcavüzün nəticələrinə baxılmadan regionun gələcəyi ilə bağlı baxışların irəli sürülməsi düzgün yanaşma olmaz.

Prezident İlham Əliyev bildirdi ki, Ermənistan Azərbaycan torpaqlarının işğalını əbədiləşdirməyə çalışırdı. İşğal dövründə həyata keçirilmiş vasitəçilik missiyaları tamamilə uğursuz olmuş, işğal və təcavüzün nəticələrini aradan qaldırmamışdır.

Dövlətimizin başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsindən sonra imzalanmış 2020-ci il 10 noyabr Bəyanatından irəli gələn öhdəlikləri Ermənistan yerinə yetirmədi. Belə ki, Ermənistan nəinki Qarabağdakı silahlı qüvvələrini ərazidən çıxarmamışdır, hətta həmin ərazini hərbi texnikanın, silahlı qüvvələrinin şəxsi heyətinin və minaların daşınması üçün məqsədyönlü şəkildə istifadə edirdi. Həmçinin Ermənistan Şərqi Zəngəzurla Naxçıvan arasında əlaqənin yaradılması ilə bağlı öz öhdəliklərini yerinə yetirmədi.

Prezident İlham Əliyev qeyd etdi ki, artıq bu məsələlər keçmişdə qaldı. Hazırda regionun sülh gündəliyi üçün çox yaxşı imkanlar var. Dövlətimizin başçısı vurğuladı ki, 44 günlük Vətən müharibəsindən sonra sülh müqaviləsi və onun əsasını təşkil edən prinsiplər təşəbbüsü ilə də məhz Azərbaycan çıxış edib. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Cənubi Qafqazda davamlı sülhün tərəfdarıdır və regional sülh gündəliyini, Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülh müqaviləsinin imzalanmasını dəstəkləyir.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan hazırda birgəyaşayış və geriqayıtma hüququ ilə əlaqədar aydın və şəffaf proqramı təqdim etsə də, azərbaycanlıların Ermənistana geri qayıdışı ilə bağlı geriqayıtma hüququnu Ermənistan inkar edir və bununla əlaqədar olaraq hər hansı bir baxış ortaya qoymayıb.

Görüşdə qeyd olundu ki, ATƏT Parlament Assambleyası Ermənistan və Azərbaycan nümayəndə heyətləri arasında etimadın qurulması baxımından səmərəli platforma ola bilər.

# M.M.Ağayevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mir Şahin Mirdilavər oğlu Ağayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 noyabr 2023-cü il**

# "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanununun tətbiqi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Bakı və Sumqayıt şəhərlərinin, Bakı şəhəri Binəqədi, Abşeron və Xızı rayonlarının icra hakimiyyətləri ilə birlikdə "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanunu ilə yeni müəyyən edilmiş sərhədlərdə üç ay müddətində mərzçəkmə işlərinin yerinə yetirilməsini təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 17 oktyabr tarixli 1005-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 noyabr 2023-cü il**

# "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1012-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767; 2006, № 12, maddə 1057; 2008, № 9, maddə 798; 2012, № 6, maddə 547, № 12, maddə 1271; 2013, № 11, maddə 1327, № 12, maddə 1510; 2014, № 4, maddə 360; 2016, № 1, maddə 43, № 5, maddə 883, № 9, maddə 1463, № 11, maddə 1807; 2017, № 3, maddə 370, № 5, maddə 757, № 7, maddə 1377, № 10, maddə 1804, № 12 (I kitab), maddə 2293; 2018, № 6, maddələr 1231, 1239, № 7 (I kitab), maddə 1489, № 12 (I kitab), maddə 2552; 2019, № 1, maddə 95, № 6, maddə 1044, № 7, maddə 1248, № 11, maddə 1699; 2020, № 5, maddə 561; 2021, № 7, maddə 735, № 12, maddə 1401; 2022, № 5, maddə 441, № 12, maddə 1404; 2023, № 8 (I kitab), maddə 1169) 2.10-cu bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 noyabr 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 31 avqust tarixli 115 nömrəli və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2007-ci il 22 may tarixli 583 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1015-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Poçt haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli 115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 623; 2007, № 6, maddə 601; 2010, № 3, maddə 180; 2014, № 9, maddə 1027; 2016, № 6, maddə 1056; 2017, № 3, maddə 353, № 8, maddə 1521, № 11, maddə 1999; 2022, № 12, maddə 1440; 2023, № 8 (I kitab), maddə 1140) 3.6-cı bəndində "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası" sözləri ", Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 583 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 465; 2023, № 9, maddə 1285) 2-ci hissəsindən "Poçt rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsində," sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 noyabr 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 665-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 685; 2022, № 5, maddə 444; 2023, № 2, maddə 241) ilə təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 11.2.21-1-ci yarımbənd əlavə edilsin:

"11.2.21-1. icra sənədinin tərtib edilməsi üçün tələbkar və borclu şəxslər barədə "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 7.1.4-cü maddəsində nəzərdə tutulmuş məlumatlar;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 noyabr 2023-cü il**

## Prezident İlham Əliyev Dövlət Bayrağı Günü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev 9 Noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb. AZƏRTAC fotonu təqdim edir.**




## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un adından və şəxsən öz adımdan Zati-alinizə və Azərbaycan xalqına 8 Noyabr – Zəfər Günü münasibətilə səmimi təbriklərimi və dərin ehtiramımı çatdırıram. Azərbaycanın işğal altındakı torpaqlarının 44 günlük Vətən müharibəsi nəticəsində azad edilməsi bütün Türk dünyası üçün qürur və sevinc mənbəyi olmuşdur. Azərbaycan Bayrağı 30 illik işğala son qoyulduqdan sonra Qarabağda dalğalanır. Türk dünyasının nümayəndələrinin Şuşada bir araya gəlmələri Türk xalqlarının birliyinin və bu böyük Zəfərə verilən önəmin göstəricisidir.

Əsrlər boyu bütün çətinliklərlə birlikdə mübarizə aparan Azərbaycan xalqının Sizin rəhbərliyinizlə daha parlaq gələcəyə qovuşacağına, həmrəyliyinin daha da möhkəmlənəcəyinə inanırıq.

Zəfər Günü münasibətilə Zati-alinizi bir daha təbrik edir, Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini ehtiramla yad edir, qazilərə cansağlığı arzulayıram.

Ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

*

**Zati-aliləri!**

Zəfər Günü münasibətilə Sizi və Sizin simanızda Azərbaycan xalqını Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Onilliklər ərzində işğal altında qalmış Azərbaycan torpaqları Sizin rəhbərliyinizlə şanlı silahlı qüvvələrin 2020-ci ildə 44 günlük müharibədə qazandığı tarixi Qələbə nəticəsində azad olundu. Bu qələbə həm də

2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş qısamüddətli antiterror tədbirlərindən sonra ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunmasına möhkəm zəmin yaratmışdır.

Beləliklə, Azərbaycan xalqının uzun müddətdən bəri arzuladığı Böyük Qayıdış nəhayət ki, reallığa çevrildi, ölkənin və xalqın tarixində yeni mərhələyə qədəm qoyuldu. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, eləcə də keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları istiqamətində göstərdiyiniz davamlı və yorulmaz səylərdə Sizə uğurlar arzulayırıq. Biz Azərbaycanın qazandığı nailiyyətləri təkcə ədalətin bərpası və beynəlxalq hüququn təsdiqi kimi deyil, həmçinin böyük milli ideyaya əsaslanan möhkəm birliyin və güclü liderliyin zəfəri kimi dəyərləndiririk. Biz, həmçinin inanırıq ki, bu böyük Zəfər və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün tam bərpası regional sülh, sabitlik və əməkdaşlığın inkişafı prosesində dönüş nöqtəsi ola bilər. Regional təşkilat olaraq biz bu məqsədlərə dəstək və töhfə verməyə hazırıq.

Zati-aliləri, Azərbaycanın daha da güclənməsi və inkişaf etməsi, xalqın rifahının daha da yaxşılaşması prosesində Sizə böyük nailiyyətlər və yeni zəfərlər, Azərbaycan xalqına isə sülh, inkişaf və firavanlıq diləyirik.

**Hörmətlə,**

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

*

**Hörmətli cənab Prezident!**

Sizi və Sizin simanızda azərbaycanlı qardaş və bacılarımızı Zəfər Günü münasibətilə Mərmərə Qrupu Vəqfi adından ürəkdən təbrik edirəm.

Fərəh və sevinc mənbəyi olan böyük Zəfər Bayramınız mübarək!

Sizə hər zaman zəfər dolu günlər arzulayıram.

**Ən dərin hörmətlə,**

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

*

**Möhtərəm cənab Prezident!**

Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını böyük dövlət bayramı – Azərbaycanın İkinci Qarabağ müharibəsində Zəfər Günü, həmçinin Dövlət Bayrağı Günü münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Zati-aliləri, hər zaman bəxtiyar olun! Qoy Sizin müdrik rəhbərliyiniz altında ərazi bütövlüyü uğrunda mübarizə aparmış Azərbaycan xalqı daim xoşbəxt olsun!

Ölkənizə sülh, tərəqqi arzulayırıq. Sizə və doğmalarınıza möhkəm cansağlığı diləyirik. Şəxsən öz adımdan, liseyimizin bütün pedaqoji, valideyn kollektivi və 2300 şagirdi adından Sizə minnətdarlığımızı bildiririk.

**Dərin hörmətlə,**

***Valentina ANTONENKO,***
***Ukraynanın İrpen şəhərindəki Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinin direktoru, Ukraynanın Əməkdar müəllimi, Azərbaycanın "Dostluq" ordeni Laureatı***

*

**Möhtərəm cənab Prezident!**

Sizi və bütün Azərbaycan xalqını böyük Zəfər bayramı münasibətilə təbrik edirəm. Bu Qələbə bütün Azərbaycan xalqını - yaşından, təhsilindən, karyera mövqeyindən, yaşayış yerindən, dini etiqadından asılı olmayaraq, hər bir azərbaycanlını sevindirir və qəlbini fərəhlə doldurur.

Qələbə asan qazanılmayıb. Biz Birinci və İkinci Qarabağ müharibələrində şəhidlər vermişik, qəhrəmanlarımızın xatirəsi unudulmayacaq, rəşadətləri isə tərənnüm ediləcək. Mən onların məzarları, onların anaları, ataları, həyat yoldaşları, övladları qarşısında baş əyirəm!

Rəşadətli Ordumuz cəsarət möcüzəsi, hərbi ustalıq və şücaət nümayiş etdirib. Eşq olsun Azərbaycan Ordusuna!

Cənab Prezident, böyük Qələbəmizin qazanılmasında Sizin çox mühüm rolunuzu xüsusi qeyd etməliyik. Çoxəsrlik bəşər tarixi boyu dövlət rəhbəri üçün formalaşmış qiymətləndirmə meyarları vardır. Bu, dövlətin suverenliyini və sərhədlərinin təhlükəsizliyini mühafizə etmək, millətin sağlamlığı, demoqrafik və ekoloji sabitlik, siyasi və iqtisadi müstəqillik, mənəvi dəyərlərin və xalqın kimliyinin qorunub saxlanılmasıdır. Siz bunların hamısına tam şəkildə nail olmusunuz.

İrəlidə böyük işlər var. Yeni tarixi reallıqlar fonunda Sizə və bütün Azərbaycan xalqına qarşıda duran məqsəd və vəzifələrin həyata keçirilməsini və yeni-yeni qələbələr arzulayıram.

Sizi bir daha Zəfər bayramı münasibətilə təbrik edirəm.

Eşq olsun Azərbaycana!

**Dərin hörmətlə Sizin,**

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi***

*

**Hörmətli cənab Prezident!**

Uzaq Şərqin Azərbaycan diasporu Sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edir. Bizim qüdrətli ordumuz işğal altındakı torpaqları cəmi 44 gün ərzində azad edib. Qarabağ Azərbaycandır!

Sizin iştirakınızla Xankəndidə hərbi paradın keçirilməsindən böyük qürur duyduq. Vladivostok ilə Bakı arasında on min kilometrdən çox məsafə var, amma biz Uzaq Şərqdə ürəyimizdə alovla uzun müddət davam etmiş münaqişəyə necə son qoyulduğunu izləyirdik. Bu, bütün xalq üçün tarixi hadisədir. Ölkəmizin ərazi bütövlüyünün bərpası ilə bağlı missiya artıq başa çatıb. Bu, bütün xalqın, ümummilli lider Heydər Əliyevin arzusu, bizim arzumuz idi.

Üç il əvvəl Qarabağın tacı və mədəniyyətimizin möcüzəvi qədim abidəsi Şuşa şəhərinin düşməndən azad edilməsi Vətən müharibəsinin kulminasiyası oldu. Sizin rəhbərliyinizlə Azərbaycan xalqı hər gün Qələbəni yaxınlaşdırırdı, ordumuz isə rəşadət, güc və yüksək peşəkarlıq nümayiş etdirirdi. Nəticədə, biz tarixi ədaləti bərpa etdik. Artıq bir neçə ildir ki, biz böyük sevinc və iftixarla şanlı Qələbəni qeyd edirik, bu ənənəni qoruyuruq və gələcək nəsillərə ötürəcəyik.

İnanırıq ki, Azərbaycan əmin-amanlıq şəraitində gələcəkdə də inkişaf edəcəkdir. Bunun zəmanətçisi Sizsiniz – Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevdir.

Biz, dünyanın müxtəlif guşələrində olan azərbaycanlılar Sizin dəstəyinizi hiss edirik. Biz öz liderimizlə fəxr edirik. Uzaq Şərqin diasporunun hər zaman Sizinlə birlikdə olmasından əmin ola bilərsiniz. Sizi Qələbə münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirik!

**Hörmətlə,**

***Mərdan NOVRUZOV,***
***Rusiya Federasiyası Primorsk diyarı qubernatorunun müşaviri, Primorsk diyarındakı "Azərbaycan Konqresi" Milli-Mədəni İctimai Təşkilatının sədri***

## Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Bayrağı Günü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" hesabında 9 Noyabr – Dövlət Bayrağı Günü ilə bağlı paylaşım edib.**

Paylaşımda qeyd olunub: "Qoy qəlbimiz hər zaman Vətənimizə, bayrağımıza və xalqımıza görə qürur hissi ilə dolsun!".




## Birinci vitse-prezident Mehriban Əliyeva Konstitusiya Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 12 Noyabr – Konstitusiya Günü ilə bağlı rəsmi "Instagram" hesabında foto paylaşıb. AZƏRTAC fotonu təqdim edir.**

2023 – Heydər Əliyev İli

# Heydər Əliyevin Qafqaz siyasəti Azərbaycanı Şimalın təhlükələrindən qorudu

**Görkəmli şair, dramaturq, nasir və publisist, ictimai və dövlət xadimi, Azərbaycan Respublikasının birinci dərəcəli dövlət müşaviri, fövqəladə və səlahiyyətli səfir, Əməkdar incəsənət xadimi Hidayət Orucovla müsahibə.**



III SÖHBƏT

**– Hidayət müəllim, ötən söhbətimizdə Ulu öndərin tapşırığı ilə Lənkərana – qondarma "Talış-Muğan Respublikası"nın "prezidenti" elan etmiş Əliəkrəm Hümbətovla tutduğu separatizm yolundan geri çəkilməklə bağlı danışmağa getdiyinizi söylədiniz. Bu danışıqlardan hansı nəticəyə gəldiniz, Azərbaycanın o gərgin günlərində bu kimi separatçılıq meyillərini qızışdırmaqda məqsəd nə idi? Heydər Əliyev bu kimi halların haradan körükləndiyini bilməmiş deyildi yəqin ki...**

– Şeyxülislamla Lənkərana getdik və orada icra hakimiyyətinin binasında deyil, qonaq evində Əliəkrəm Hümbətovla görüşdük. Çünki Əliəkrəm Lənkəran Şəhər İcra Hakimiyyətinin binasını zəbt edib orada oturmuşdu.

Yeri gəlmişkən, onu da deyim ki, o zaman AXC hakimiyyətinin Lənkəran kimi bir regiona təyin etdiyi icra hakimiyyətinin başçısı da təsadüfi, sıradan bir adam idi. Heç bir idarəçilik təcrübəsi, bölgədə nüfuzu belə yox idi. Mən əvvəl də Lənkəranda olmuşdum və ona sərt tənqidi münasibətimi bildirmişdim. Hətta qayıdandan sonra Prezident Administrasiyasının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri Əli Kərimova dedim ki, o icra başçısı Lənkəranı idarə edə bilmir, vətəndaşlar ondan narazıdırlar...

Lənkəranda keçirdiyimiz görüşdə Əliəkrəmə izah etməyə çalışdım ki, onun tutduğu bu separatçılıq yolunun heç bir perspektivi yoxdur. Əvvəla, bu regionun əhalisi səni və sənin tutduğun yolu nə qəbul edir, nə tanıyır, nə də müdafiə edir. Ətrafında olan beş-on nəfərin fikri qətiyyən bu yüz minlərlə insan yaşayan bölgə əhalisinin fikri deyil.

Əliəkrəm dedi: "İcra hakimiyyəti Lənkəranı idarə edə bilmirdi, ona görə mən buranı götürdüm". Dedim: "Axı bura dövlət qurumudur, sənin belə bir hərəkət etməyə səlahiyyətin yoxdur". Mənim arqumentlərimin qarşısında söz tapa bilmirdi ki, cavab versin. Amma onu da dedi: "Kimi istəyirlər, gətirib qoysunlar, mən geri çəkilməyə hazıram". Belə deməsinə baxmayaraq, ona qətiyyən inanmadım.

Əlbəttə, Cənubla bağlı Heydər Əliyevin tapşırığı əsasında hərtərəfli işlər gedirdi, bölgənin ağsaqqalları, ziyalıları ilə görüşlər keçirilirdi. Təbii ki, onlar Azərbaycan dövlətçiliyinin, Heydər Əliyevin yanında idilər. Amma ölkədə bir qrup adam var idi ki, onlar Əliəkrəmi öz maraqları üçün idarə edirdilər. Məsələn, Rəhim Qazıyev onunla dost idi. O, artıq vəzifələrini itirmiş bir adam idi, amma bununla barışmaq istəmirdi, əsassız iddiaları böyük idi. Rəhim Qazıyevə zəng etdim. Onunla bir saata qədər telefonda danışdım. Dedim: "Rəhim, sən Əliəkrəmlə dostsan?". Dedi: "Bəli, mən onunla dostam". Dedim: "Sənin dostun Azərbaycanı dağıtmaq, parçalamaq istəyir. Sən onunla necə dostsan? Buna necə dözürsən? Onunla danış, başa sal ki, bu tutduğu yolun heç bir perspektivi yoxdur. Regionun insanlarını, ictimaiyyəti gərginlikdə saxlamasın. Ölkədə erməni təcavüzünün davam etdiyi belə bir vaxtda bu separatizmin Azərbaycana böyük ziyanı dəyə bilər. Gözlənilməz hadisələr olar". Dedi: "Hidayət bəy, onun tələbləri var, onlar yerinə yetirilməlidir". Dedim: "Axı o, kimdir ki, dövlətə qarşı tələblər irəli sürür? Onun səviyyəsi, nüfuzu nədir ki, o, hələ bir tələb də irəli sürsün? Əliəkrəm qiyamçıdır, ətrafında olan kiçik bir dəstə ilə Azərbaycan dövlətinə qarşı qiyam qaldırıb. Əgər siz belə bir adamı dost hesab edirsinizsə..." Əsəbi şəkildə bunu deyib, telefonun dəstəyini qoydum.

O zaman Heydər Əliyev Ali Sovetin sədri idi və Prezident səlahiyyətlərini icra edirdi. Çünki Elçibəy Bakını tərk edib, gedib oturmuşdu Kələkidə. Mən bir əməkdaşımı göndərmişdim Lənkərana, uzun müddət orada qaldı və vəziyyət barədə, orada baş verən proseslər haqqında hər saatdan bir mənə məlumat verirdi və mən də bir neçə rəsmi mənbədən aldığım məlumatlardan, özümün həll edə bilmədiklərimi Heydər Əliyevə məruzə edirdim. Yəni hər şey nəzarətdə idi.

Nəhayət, regionda vəziyyəti, insanların əhval-ruhiyyəsini tam dəqiqliklə öyrənəndən sonra Heydər Əliyev bölgənin ictimaiyyətinə müraciət ünvanladı. Ulu öndərin həmin müraciət zamanı söylədiyi bir fikiri indi də yada salanda içimdə kövrək duyğular baş qaldırır. Heydər Əliyev xalqa üz tutub dedi: "Mən həyatım boyu çox imtahanlardan çıxmış adamam. Bu gün tam qətiyyətlə deyirəm ki, xalqın gücü qarşısında heç bir silah üstün gələ bilməz. Xalqın iradəsini heç vaxt, heç bir silahla qırmaq olmaz. Ona görə mən də xalqa müraciət edirəm, həmin rayonların əhalisinə, onların ağsaqqallarına, ziyalılarına müraciət edirəm. Demək istəyirəm ki, ayağa qalxın, belə cinayətkarlara, belə xainlərə, xalqı, dövləti parçalamaq istəyən adamlara qarşı öz qüdrətinizi göstərin, cəsarətinizi göstərin və bölgədə əmin-amanlıq yaradın".

Bunları dinlədikcə, öz-özümə dedim: "İlahi, kaş elə Qarbağda separatizm baş qaldıranda da Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olaydı və onun xalqa belə açıq müraciət etmək şansı olaydı. İnanmıram ki, o zaman erməni separatçıları Azərbaycana qarşı belə geniş meydan sulaya biləydilər. Mən əminəm ki, Xankəndidə də o, belə bir çıxış etsəydi, o meydan da dağılacaq və Azərbaycanın başına bu qədər bəlalar gəlməzdi".

Ulu öndərin o tarixi müraciəti Əliəkrəm Hümbətovun regionda heç bir nüfuzunun olmadığı və onun elan etdiyi qondarma "Talış-Muğan Respublikası"nı bu bölgələrdə heç kimin dəstəkləmədiyi aydın oldu və o separatçılar öz rəhbərləri ilə birgə bir saatın içində iflasa uğradılar. Bunun özü həm də onu göstərdi ki, Heydər Əliyevin Azərbaycanın bütün regionlarında, o cümlədən, Cənub bölgəsinin insanları, sadə zəhmətkeşləri və ziyalıları arasında nüfuzu çox böyükdür.

Cənub regionunda xalqın ayağa qalxıb Əliəkrəm Hümbətovu və "Talış Muğan Respublikası" kimi qondarma, oyuncaq bir qurumu səhnədən silməsi əslində, Heydər Əliyevin milli siyasət sahəsində ilk qələbəsi idi və bu qələbə ölkəni separatizmlə hədələyənlərə sərt, qəti və birmənalı mesaj oldu ki, Azərbaycan dövləti, hakimiyyəti separatizmin əl-qol açmasına imkan verməyəcək.

**– Bildiyim qədər, həmin dövrdə ölkədə separatçılıq hərəkatları cənubla, qondarma "Talış Muğan Respublikası" və onun ideoloqu Əliəkrəmlə bitmədi. Ölkənin şimalında da, qərbində də separatçı qüvvələr peyda olmuşdular və onların da iddiaları böyük idi. Bu separatçı qüvvələrə qarşı mübarizədə Heydər Əliyevin əsas silahı nə idi və Ulu öndər az bir vaxtda Azərbaycanda həmrəyliyə, milli birliyə necə nail ola bildi?**

– Əlbəttə, həmin dövrdə gənc müstəqil Azərbaycanın düşdüyü vəziyyətdən istifadə edib onu parçalamaq istəyən qüvvələr, ölkələr var idi. Onlar Azərbaycanı altı yerə parçalamaq istəyirdilər. Bu separatçı planlar xarici ölkələrdə hazırlanmış ssenarilər əsasında həyata keçirilməli idi. Heydər Əliyev bütün bu məkrli planlardan xəbərdar idi və çox səbrlə, böyük qətiyyətlə, eyni zamanda, müdrikliklə onların reallaşmasına imkan yeri belə qoymadı.

Məsələn, 1990-cı ildə Dağıstanda "Sadval" adlı separatçı anti-Azərbaycan təşkilatı yaratmışdılar. Təşkilatın ilkin məqsədi Rusiyanın bir neçə ərazi vahidini və Azərbaycanın Şimal bölgəsinin 9 rayonunu ayırıb "Ləzgistan" adlı "dövlət" yaratmaq idi. "Sadval"ın başında Rusiya Müdafiə Nazirliyinin Şimali Qafqaz hərbi dairəsinin keçmiş komandan müavini Qəhrəmanov familyalı bir general dururdu.

Əslində, bu təşkilat Heydər Əliyevin hakimiyyətə qayıdışından əvvəl meydana gəlmişdi və 1992-1993-cü illərdə çox fəallaşmışdı. Məsələn, onlar o zaman Dağıstanın Məhərrəm kəndində mitinqlər keçirib, orada Azərbaycana qarşı açıq-aşkar ərazi iddiaları səsləndirirdilər. Hətta Azərbaycan ərazisində milli münaqişəyə səbəb ola biləcək şüarlar söyləməkdən belə çəkinmirdilər. "Sadval"çılar xüsusilə Xaçmaz, Qusar və ətraf rayonlarda çox fəallaşmışdılar. Təşkilatın ideoloqları Xudatın, Xaçmazın tabeliyindən çıxarılıb ayrıca rayon olması, Xudatın Qusar rayonu ilə birgə milli mahal olması və "Ləzgistan dövlətinin" yaradılması kimi iddialar irəli sürürdülər. Hələ Əbülfəz Elçibəyin dövründə mənim bu təşkilatın fəaliyyətindən yetərincə məlumatım var idi və o rayonların rəhbərləri, bölgənin ziyalıları ilə sıx işləyirdim.

Biz "Sadval"ın nə məqsədlə fəaliyyət göstərdiyini, baş verən bütün prosesləri diqqətlə izləyir, hər bir addımlarını ciddi nəzarətdə saxlayırdıq. Hətta "Sadval"ın üzvləri bir dəfə Xaçmaz rayonunun Yalama kəndinə silah keçirərkən yaxalanmışdılar. Bizim hüquq-mühafizə orqanları bir maşın silah ələ keçirmişdilər.

1993-cü ildə respublika rəhbərliyinə, o cümlədən, mənə dəqiq məlumat daxil olmuşdu ki, Novruz bayramı ərəfəsində "Sadval" Azərbaycana qarşı ikinci cəbhə açmağı planlaşdırır. Plan Moskvadakı xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən hazırlanmışdı. Əlimizdə kifayət qədər faktlar da var idi. Aldığımız məlumatda bildirilirdi ki, general Qəhrəmanovun rəhbərliyi ilə böyük bir qrup Azərbaycan–Rusiya sərhədini keçib Qusarın 25-ci ərazisində mitinq təşkil edəcək və burada süni şəkildə silahlı çaxnaşma yaradılacaq, hər iki tərəfdən ölən və yaralananlar olacaq, bununla da münaqişəyə start veriləcək.

Hüquq-mühafizə orqanlarımız bu haqda xəbər alandan dərhal sonra həmin qrupun sərhədi keçməsinə mane olmadılar. Amma ölkəmizə daxil olan bütün adamlar, onların olduğu maşınlar, təşkilatçılar, xüsusi xidmət orqanlarının çox peşkarlıqla hazırlanmış əməliyyatı nəticəsində nəzarətə alındılar və təbii ki, separatçıların planları baş tutmadı. Amma görünür məsələdən xəbərsiz olan Rusiya tərəfi, həmin axşam "Vesti" televiziya proqramında belə bir məlumat yaydı ki, guya, Qusarın 25-ci ərazisində keçirilən mitinq zamanı ölənlər və yaralananlar olub. Təxribat xarakterli bu xəbərin isə heç bir əsası yox idi. Buradan aydın görünürdü ki, Rusiyanın o zamankı hakimiyyətində bir çox qüvvələr və Ermənistan bu separatçı qüvvələri açıq və ya gizli formada dəstəkləyirlər.

Bir faktı deyim. 1993-cü ilin iyun hadisələri və xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra da bu proseslər dayanmadı. Həmin ilin payızında Bakıda Filarmoniyada Süleyman Stalskinin yubileyini keçirirdik. Axşam Qusarda iğtişaşlar törətməyə başladılar. Qusarın Piral kəndində bir insident olmuşdu. Polis orqanları çox vacib olan bir əməliyyat həyata keçirirmiş. Bu zaman ehtiyatsızlıqdanmı, bəlkə də cinayətkarların tabesizlik göstərməmələri üzündənmi, iki nəfər odlu silahdan açılan atəş nəticəsində həlak olmuşdu. Bu hadisədə maraqlı olan qüvvələr o iki cənazəni gətirib Qusar Rayon İcra Hakimiyyətinin qarşısındakı meydanda qoyub mitinq keçirirdilər. Elə çox adam olmasa da, orada Azərbaycan dövlətinə qarşı çıxışlar etməyə başlamışdılar.

Bu azmış kimi o zaman hələ fəaliyyət göstərən rayon sovetinin deputatları Qusar rayonunun keçmiş XDS İcraiyyə Komitəsinin binasına toplaşmışdılar. Cəfəng ideyalar müzakirə edir, əvvəldə qeyd etdiyim 9 rayonu Azərbaycandan ayırıb Ləzgistan yaratmaq iddiasında idilər. Bu açıq-aşkar ermənilərin Dağlıq Qarabağ ssenarisi idi və görünür elə bu plan da İrəvanda hazırlanmışdı və Moskvada müəyyən dairələr bunu dəstəkləyirdilər. Amma biz aydın bilirdik ki, Şimal bölgəsinin vətəndaşları, ziyalı, zəhmətkeş ləzgilər bunu dəstəkləmirlər.

Heydər Əliyev bölgəyə dövlət və hökumət adamlarından ibarət böyük nümayəndə heyəti göndərdi. Baş nazirin birinci müavini, mən, hüquq-mühafizə orqanlarının rəhbərləri və sair adamlar heyətdə təmsil olunurduq.

Vəziyyət elə gərgin idi ki, biz Qusar Rayon İcra Hakimiyyətinin binasına gedə bilmədik. Çünki binanın qarşısına mitinqçilər toplaşmışdılar, orada təxribat etmək istəyən qüvvələr var idi. Biz getdik rayon polis idarəsinə və iki gün burada işləməli olduq. Elə gecələr də burada qalırdıq. Gördüyümüz izahat işləri, rayon ziyalılarını, ağsaqqalları və dövlətə sədaqətli adamları bura cəlb etməyimiz, onların apardıqları təbliğat işləri öz nəticəsini verdi və gərginlik aradan qaldırıldı. Bütün bunların sayəsində "Sadval" Azərbaycanın şimalında yaşayan ləzgilərin dəstəyini ala bilmədi. Müəyyən müddətdən sonra general Qəhrəmanov oradan qaçmağa məcbur oldu.

Əlbəttə, bu, ilk növbədə, Heydər Əliyevin zəkasının, bölgədəki nüfuzunun qələbəsi idi. Yəni Cənub bölgəsində olduğu kimi, Şimalda da Heydər Əliyev amili həlledici rol oynadı. Çünki ləzgi xalqı da Ulu öndərə böyük sevgi və ehtiram bəsləyir, onun sözünə inanırdı. Elə bu səbəbdən də Şimal qonşularımızın o zamankı hakimiyyətinin məkrli planlarını gerçəkləşdirmək üçün orada yaradılmış "Sadval" təşkilatına ən güclü müqaviməti məhz bölgədə yaşayan ləzgi xalqının özü göstərdi. Bununla da Heydər Əliyev Şimal regionunda vəziyyətin sabitləşməsinin əsasını qoya bildi.

Açığını deyim ki, Bakıda da, hətta hakimiyyət orqanlarında, Qusarın özündə, Dağıstanda bu hadisələri dəstəkləyən, onlara haqq qazandıran qüvvələr var idi. Onlar, hətta sərt şəkildə məsələ qaldırırdılar ki, icra hakimiyyətinin başçısı vəzifədən getsin. Qusarda mitinqlər, təxribatlar başlayanda Qusar Rayon İcra Hakimiyyətinin başçısı orada olmamışdı, Bakıda Süleyman Stalskinin yubiley tədbirində iştirak edirdi.

Vəziyyət sakitləşəndən və normal axara düşəndən sonra Bakıda Heydər Əliyev müşavirə çağırdı. Burada bəzi yoldaşlar təklif etdilər ki, Qusar Rayon Icra Hakimiyyətinin başçısı vəzifədən azad edilsin. Təbii ki, Heydər Əliyev çox qətiyyətli, düşünülmüş qərar verən bir insan idi və bütün çıxışları diqqətlə dinləyirdi. Növbə mənə çatanda çıxış edib dedim: "Cənab Prezident, bu dəqiqə o rayonda icra başçısı olmaq istəyən 16-17 adam var. Bunların da əksəriyyəti təmiz yolla deyil, çirkin yollarla başçı olmaq istəyirlər. Əgər bu gün bu tələblərlə icra başçısı dəyişsə, bir vaxtdan sonra yenidən bu məsələyə qayıdarıq. Əvvəla, son illərdə orada bir neçə icra hakimiyyəti başçısı dəyişiblər. Bu icra hakimiyyətinin başçısı onlardan yaxşı işləyib. Piral kəndində hadisələr törədiləndə və icra hakimiyyətinin binası qarşısında mitinq başlayanda isə icra başçısı Bakıda, Stalskinin yubileyində iştirak edirdi. Mənə elə gəlir ki, bu icra başçısını müəyyən müddət vəzifəsində saxlamaq lazımdır ki, orada çaxnaşma yaratmaq istəyən qüvvələrdə icra başçısı dəyişmək ehtirası sönsün".

Ulu öndər hər hansı müşavirədə, iclasda bir fikri iki dəfə deməyi sevməzdi. Amma o müşavirəni yekunlaşdıranda iki dəfə dedi: "Hidayət Orucov düz deyir, indi o icra başçısını dəyişməyimiz doğru olmazdı". Həmin icra başçısı İkram Əmirov vəzifədə qaldı və 2004-cü ilə qədər orada işlədi.

Bu hadisələr yekunlaşandan sonra görülən tədbirlər və dövlətin bununla bağlı mövqeyini Qusar rayonunun, ümumiyyətlə, bölgənin ictimaiyyətinə çatdırmaq lazım idi. Ulu öndər bu məsələni mənə həvalə etdi və tapşırıq verdi: "Gedirsən Qusara, rayon fəallarının, ziyalıların, ağsaqqalların iştirakı ilə toplantı keçirirsən və orada bizim bugünki toplantının qərarını, dövlətimizin hadisələrə münasibətini bəyan edirsən". Qusara gedib prezident səlahiyyətlərini icra edən Ali Sovetin sədri Heydər Əliyevin tapşırdığı kimi toplantı keçirdim, deyilənləri rayon aktivinə, ağsaqqallara, ziyalılara çatdırdım və sonda Bakıdakı iclasın qərarını oxudum. Zal bütün çıxışımı alqışlarla qarşıladı.

Zərərli təşkilatlardan biri də "İmam Şamil adına Xalq Cəbhəsi" təşkilatı idi. Bu təşkilatın üzvləri də guya "Avarstan" yaratmaq iddiasında idilər. Maraqlıdır ki, Azərbaycanın eyni bölgələrini "Sadval" "Ləzgistana" daxil etmişdi, "İmam Şamil adına Xalq Cəbhəsi" "Avarıstana". Mən bəzən bu təşkilatlara münasib olan insanlara istehza ilə deyirdim, "bunlar əvvəl oturub bunu öz aralarında dəqiqləşdirsinlər, sonra ortaya çıxarsınlar heç olmaya".

**– Hidayət müəllim, Azərbaycanda müstəqilliyin ilk illərindən başlayaraq bu separatçı hərəkatlar niyə belə geniş və açıq xarakter almışdı? Buna rəvac verən nə idi?**

– Əlbəttə, əsas səbəb hakimiyyətdəki boşluqlar, ölkədəki xaos və bir də dövlətçiliyin zəif olması idi. Digər tərəfdən də erməni təcavüzü genişlənməyə başlayanda bu qüvvələr düşündülər ki, indi ən münasib vaxtdır və planlarını reallaşdırmaq daha asandır. Kənar qüvvələr, müstəqil Azərbaycan dövlətinin varlığını istəməyən dövlətlər də bunu körükləyir, separatçılara müxtəlif vasitələrlə dəstək verirdilər.

Bir məsələni də qeyd edim. Məsələn, Azərbaycanda yaşayan rusların bir qismi Qarabağ hadisələri alovlanmağa başlayanda evlərini tərk edib Rusiyaya getmişdilər. Ermənistandan, Yuxarı Qarabağdan doğma ev-eşiklərindən didərgin düşən soydaşlarımız bura axın edəndə gəlib onların evlərini tutmuşdular. Rusiyada bəzi qüvvələr buna milli məsələ donu geydirməyə çalışırdılar. Mən bütün imkanlarımla bunu Rusiyanın mərkəzi mətbuatına və Moskvadakı rəhbər orqanlara bildirməyə çalışırdım ki, bu, milli məsələ deyil, beynəlmiləl məsələdir. Çünki həmən qaçqınlar daha çox gəlib azərbaycanlıların müvəqqəti boş qalan evlərinə girirdilər, nəinki rusların və ya digər millətlərin.

Çətin məsələlərdən biri qaçqınlar problemi idi. Onları yerləşdirmək, sosial tələbatlarını ödəmək, hüquqlarını müdafiə etmək çox vacib idi. Ayaz Mütəllibovun hakimiyyəti illərində onlara qarşı çox ədalətsizliklər olmuşdu. Məsələn, Qərbi Azərbaycandan deportasiya edilən azərbaycanlıların bir qismi, Ermənistandakı evlərindən didərgin düşəndə evlərini Bakıda yaşayan ermənilərlə dəyişmişdilər, bir qismi Bakıda özünə ev almışdı. Amma Mütəllibov hakimiyyəti min hiylə ilə, bəzən zorla onları Yuxarı Qarabağa köçürmüşdülər. Bu yerlər isə erməni silahlı dəstələrinin hücumlarından, erməni təcavüzündən müdafiə olunmamışdılar və müəyyən müddətdən sonra Ermənistanın təcavüzü geniş miqyas alanda onlar yeni yurd-yuvalarından da didərgin düşdülər. Yenidən qayıdıb Bakıya gələndə, məlum olurdu ki, bir çoxlarının evləri şəhər icra hakimiyyətinin işbazları tərəfindən başqa adamlara satılıb.

Belə hadisələr milli zəmində xırda münaqişələrə səbəb olurdu və yaxın xarici ölkələrin keçmiş rəhbərliyi, daxildəki separatçı təşkilatların liderləri buna millətçilik donu geydirmyə çalışır, öz iddialarını irəli sürürdülər. Ona görə də milli münasibətlər çox vacib bir məsələ kimi ortaya çıxmışdı.

Bax, belə bir vəziyyətdə prosesləri nəzarətdən çıxmağa qoymamaq, yaranan qarışıqlığı nizamlamaq, idarəçiliyi bərpa etmək və qanuni axara salmaq əlbəttə Heydər Əliyev istedadı, dövlətçilik təcrübəsi, müdrikliyi və zəkası tələb edirdi. Ulu öndər bunun öhdəsindən çox böyük ustalıqla və şərəflə gəldi.

Əvvəla, Heydər Əliyev ilk olaraq müəkəmməl dövlət quruculuğunu ən vacib məsələ kimi həll etməyə başladı. Bununla paralel olaraq mühüm məsələ olan milli münasibətləri normal axara salmaq üçün prioritetlərini bəyan etdi və qısa zamanda Ulu öndərin tapşırığı, mənim rəhbərliyimlə milli siyasət məsələləri üzrə dövlət müşavirliyinin milli azlıqların yerlərdəki təşkilatları ilə mükəmməl iş planı hazırlandı. Bu sahənin rəhbəri olaraq həssas bölgələrə müntəzəm səfərlərə başladım, rayon rəhbərləri və Vətənini sevən, Azərbaycanın bütövlüyü yolunda səylərini əsirgəməyən milli azlıqların qeyrətli oğulları, ziyalıları ilə ciddi işlər gördük.



**(ardı var)**

**İlqar RÜSTƏMOV,**
**Əməkdar jurnalist,**
**XQ**

# ATƏT PA-nın İrəvanda payız sessiyası, yoxsa erməni avantürizminə növbəti dəstək

## Qurum Cənubi Qafqazdakı durumu gərginləşdirmək yolu tutmaqdadır

(əvvəli 1-ci səhifədə)



Diqqət edək, ATƏT PA-nın İrəvandakı payız sessiyası "ATƏT böhranlı durumlarda: Parlament Assambleyasının daxili və xarici çağırışlarla mübarizədə rolu" şüarı altında keçiriləcək. Göründüyü kimi, Ermənistanda böhranın olduğu qəbul edilir. Burada daxili çağırış anlamında baş nazir Paşinyan iqtidarını yıxmaq istəyənlərdir. Yəni, başlıca olaraq ruspərəst qüvvələr. Böyük xarici çağırış isə şübhəsiz ki, Azərbaycandır. Ümumən, yığıncağın anti-Azərbaycan motivli olacağını indidən söyləmək mümkündür.

Bəli, bu, o ATƏT-dir ki, Minsk Qrupu adlı təsisatı uzun müddət Azərbaycanın torpaqlarının Ermənistanın işğalı altında qalmasını leqallaşdırmaq yolu tuturdu. Qurumun həmsədrləri illərlə regiona mənasız səfərlər gerçəkləşdirirdilər, Qarabağ probleminin həlli yerinə, danışıqları imitasiya edirdilər, vaxt uzatdırdılar ki, Azərbaycan xalqı öz haqq işini unutsun. İndi də utanmaz-utanmaz Ermənistana yığılır, ölkəyə mənəvi dəstək yolu tuturlar. Guya orada böhran həll edəcəklərmiş...

Bəli, ATƏT PA Ermənistanın mühüm anti-Azərbaycan tribunası, ermənipərəstlik alətidir. Qurum özünün payız sessiyasını Ermənistanda keçirmək qərarı ilə beynəlxalq ictimaiyyətin diqqətini Cənubi Qafqaza yönəltmək məqsədi güdür. Məqsəd diqqəti bilavasitə Ermənistan ətrafında cəmləşdirməkdir. Ölkənin məzlum obrazını canlandırmaq başlıca xətti təşkil edir. Guya ölkə Cənubi Qafqazda demokratiya qalasıdır və əgər dünya həmrəylik göstərməsə, bu qala yad qüvvələr tərəfindən dağıdılacaq.

ATƏT PA-nın İrəvanda sessiya keçirmək məntiqi eyni zamanda Ermənistanın anti-Rusiya siyasətinin təzahür formasıdır. Şübhəsiz ki, qurumun payız gündəliyində Bakı ilə yanaşı Moskva da təhlükə mənbəyi kimi göstəriləcək. Faktiki olaraq İrəvan özünün açıq tekstlə Rusiya əleyhinə söyləməyə cəsarət etmədiklərini ATƏT-in deputatlarının dili ilə gündəmə gətirəcək.

ATƏT PA-nın İrəvanda sessiya təşəbbüsü həm də beynəlxalq miqyasda geniş tüğyan edən ikili standartlar siyasətinin nəticəsidir. Olmazdımı ki, qurum Azərbaycanda da öz iclasını keçirsin. Əlbəttə, yox! Çünki erməni təəssübkeşliyi onun bəyan etdiyi və keşiyində durmağa mükəlləf olduğu ali prinsiplərdən qat-qat öndə dayanan məsələdir. ATƏT ermənipərəstlik naminə həmin prinsipləri heçə saymaqda pərgardır. Şübhə yoxdur ki, İrəvan parlamentindəki iclas da növbəti ermənipərəstlik meydanı kimi yadda qalacaq. Tam mümkündür ki, orada Azərbaycan əleyhinə qətnamə də qəbul edilsin. Axı dünya Ermənistana qətnamə dəstəyini əsirgəmir. Ola bilər, indidən sənədi yazıb hazır saxlayıblar da. ATƏT PA-dan, ümumən ATƏT-dən nə desən gözləmək mümkündür.

Məlumdur ki, Fransa özünün mövqeyi, xüsusən də anti-Azərbaycan xətti ilə daim Ermənistana illüziya yaşadır. Ölkənin İrəvana dəstəyi Paşinyan administrasiyasında onsuz da yüksək fazada olan avantürizm meyllərini daha da artırır. Nəticə etibarilə bu komanda reallıq hissini itirərək iflic durumuna düşür. Məsələyə mövcud prizmadan yanaşsaq, ATƏT PA-nın iclası da eyni effekti doğuracaq ki, əslində bu, son dərəcə ziyanlı tendensiyadır. Heç şübhəsiz, başlıca ziyan Ermənistanın Azərbaycanla sülhdən yayınmasıdır. Deməli, ATƏT PA-nın deputatları bölgəyə əslində böhranı aradan qaldırmağa deyil, dərinləşdirməyə gəlirlər.

**Ə.CAHANGİROĞLU**
**XQ**

**Kilikiya evinin (Livan, Suriya və Kiprin yunan hissəsindəki ermənilərin) baş keşişi I Aram ABŞ-da olub. İlk baxışdan məsələdə qeyri-adi heç nə yoxdur. Amma diqqət yetirəndə bəzi mətləblər üzə çıxır. I Aramı Birləşmiş Ştatlara ölkə Konqresinin Nümayəndələr Palatasının üzvü Adam Şiff dəvət edib. A.Şiffin isə ermənipərəstliyi hər kəsə yaxşı məlumdur. Onun ABŞ-dakı erməni lobbi və diaspor təşkilatları ilə yaxınlığı, onların əli ilə hərəkətə gətirildiyi də həmçinin.**

Əlqərəz, erməni keşiş səfər çərçivəsində Nümayəndələr Palatasının sessiyasının açılışında xeyir-dua verib və ən əsası isə bunu edərkən Qarabağdan danışmağı yaddan çıxarmayıb. Əvvəlcə onu bildirək ki, tarixən kilsə erməni avantürizhisslərdən uzaq Kilikiya evinin baş keşişi ABŞ Konqresinin aşağı palatası olan Nümayəndələr Palatasında xeyir-dua verərkən, Qarabağ erməniləri üçün də "göz yaşı töküb". Bildirib ki, onları öz vətənlərindən çıxmaları zorla gerçəkləş-

# I Aramın ABŞ Konqresindəki Qarabağ çərənləməsi

## Qurumun Nümayəndələr Palatası ermənipərəstliyə "sadiqdir"

minin başlıca dayağı, ilhamvericisi, "ideya mənbəyi" rolunda çıxış edib. Erməni millətçiliyinin qızışdırılması, türklərə və azərbaycanlılara nifrət ritorikası da loru dildə desək, onun yastığının altından çıxıb. İstər 1988-ci ildə Qarabağ münaqişəsi başlayanda, istər torpaqlarımızın işğalında, istərsə də II Qarabağ müharibəsi zamanı erməni kilsəsi yaramaz, din adına ləkə "dəstxətinə" sadiq qalıb. Halbuki, din xadimi imicinə malik şəxslər sülhü, insanpərvərliyi təbliğ etməli idilər.



Yeri gəlmişkən, erməni katolikosu II Qaregenin də dəfələrlə ali dəyərlərdən uzaq çağırışlarının şahidi olmuşuq. O Qaregin ki, Ermənistanda onun üzdəniraq, uşaqbaz olması, azyaşlı oğlan uşaqlarına cinsi təcavüz etməsi ilə bağlı söz-söhbətlər səngimək bilmir. Ümumən, 1999-cu ildən bütün ermənilərin baş kahini sayılan II Qaregin müxtəlif vaxtlarda dünyəvilər, keşişlər və hətta iki erməni patriarxı (Yerusəlim və Konstantinopol) tərəfindən kilsə həyatının maddi tərəfinə hədsiz bağlılıqda və avtoritar idarəçilikdə günahlandırılıb. Onun rəhbərliyi dövründə kilsənin idarəçiliyini mərkəzləşdirmək cəhdləri dindarlarla və diaspor arasında əsas probleme çevrilib.

Onu da bildirək ki, 2018-ci ildə Nikol Paşinyan baş nazir seçiləndən dərhal sonra Ermənistanda II Qaregin qarşı açıq müxalifətə keçənlər olub. Həmin ildəki kütləvi aksiyalar zamanı ölkə boyu minlərlə insan hakimiyyətin dinc yolla dəyişməsinə çalışarkən bir qrup din adamı və dindar kilsə daxilində də islahatlara başlamaq qərarına gəlmişdilər. "Yeni Ermənistan – yeni patriarx" hərəkatında birləşən bu şəxslər katolikosun və bəzi yepiskopların istefasını, kilsəyə yeni rəhbərin seçilməsini tələb edirdilər. Bu baxımdan, Eçmiədzindəki kilsələrindən Müqəddəs Qayane Monastırının rəhbəri Koryun Arakelyan xüsusi fəallıq göstərirdi. "Sadə dindarlarda olan Allaha inam bizim katolikosda yoxdur. Kilsəmizin azad olması və təmizlənməsi; ona qüsursuz və nümunəvi davranışlı, dua oxuyan və öz xalqını sevən patriarxın rəhbərlik etməsi vaxtı gəlib çatıb", – deyən K.Arakelyan bunu da bildirirdi: "Mənimçün kilsə Qaregin deyil, bizim müqəddəs atalarımızdır. Mən onlarla cəhənnəmə getməyə hazıram, nəinki katolikosla cənnətə".

I Aram da özünün İrəvandakı həmkarından fərqlənmir. Bütün normal insani dirilmiş prosesdir. Bundan əvvəl isə A.Şiff çıxış edib və I Aramı salamlayarkən bildirib ki, guya onun iman, icma və mərhəmət dəyərlərinə sarsılmaz sadiqliyi ABŞ-ın erməni icmasının ruhunu təcəssüm etdirir. Şiff ruh məsələsində haqlıdır. Çünki I Aram ən azı Birləşmiş Ştatlardakı erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri qədər həyasız məxluqdur. Onun nə danışmasının, nə deməsinin heç bir önəmi yoxdur. Çünki söylədikləri cəfəngiyyatdır. Başlıca məsələ Konqresin Nümayəndələr Palatasının onu fetişləşdirməsidir. Bəli, ABŞ-ın ali qanunverici orqanının aşağı palatası bu şəxsi bir növ müqəddəsləşdirməklə əslində Azərbaycan–Ermənistan sülh prosesindəki hazırkı reallıqlara qarşı çıxdığını göstərir. Məlumdur ki, I Aramı "xeyir-duaya" çağıranlar onun nə deyəcəyini də gözəl bilirdilər.

Digər tərəfdən, bir məqamı da vurğulayaq ki, istər I Aram, istərsə də II Qaregin yenə də Ermənistanın mövcud hakimiyyəti ilə ziddiyyət içərisindədirlər. Ötən il bu iki "din xadimi" Daşnaksütyun Partiyası ilə birgə Paşinyan administrasiyasının təşkilatçılığı ilə gerçəkləşmiş ümumerməni sammitində iştirakdan imtina etmişdilər. Həmin vaxt I Aramın bəhanəsi qəribə olmuşdu. O demişdi ki, İrəvana əlverişsiz hava şəraiti və atmosferin zəhərli olması səbəbindən getməyəcək. Göründüyü kimi, Kilikiya evinin baş pontifiki kifayət qədər anlamlı mesaj verir – mühit zəhərlidir. Heç şübhəsiz, onun fikrincə, belə bir mühiti formalaşdıran məhz N.Paşinyandır, Ermənistan hakimiyyətidir.

**R.ƏVƏZ**
**XQ**

# Fransa Hərbi Qənimətlər Parkında öz texnikasını görmək istəyirsə...

## Rəsmi Paris Ermənistanı silahlandırmaqla Brüssel gündəliyinə zərbə vurur

**Fransa Azərbaycan–Ermənistan sülh prosesinə zərbə vurmaqda israrlıdır. Ölkə var gücü ilə buna çalışmaqdadır. Hazırda Parisin mövcud istiqamətdəki dinamikasını müəyyənləşdirən cəhət onun İrəvanı silah-sursatla təchiz etməsidir. Fransanın "Acmat" şirkətinin istehsalı olan çoxməqsədli "Bastion" zirehli texnikası üçün komponentlər artıq Ermənistandadır. Heç şübhəsiz, silahlandırma prosesi daha da gücləndəcək. Parisdən eşidilən bəyanatlar belə düşünməyə əsas verir. Bəyanatların məzmunu isə bundan ibarətdir ki, guya, Ermənistanın təhlükəsizliyinin qorunmasına ciddi ehtiyac var.**



Bəli, hazırda istər rəsmi İrəvanın ayrı-ayrı mənsubları, istər erməni siyasi industriyasının təmsilçiləri, istərsə də xaricdəki ermənipərəstlər məhz Ermənistanın təhlükəsizliyinin qorunması müstəvisində polemika açmaqdadırlar. Avropanın müxtəlif təsisatları da bununla bağlı "fəallıq" göstərməkdədirlər. Bu prosesdə Azərbaycanın demonizasiyası başlıca xətti təşkil edir. Sanki ölkəmiz suveren Ermənistan ərazisinə hücum çəkməyə hazırlaşır. Bu yolla Ermənistanın silahlandırılmasına bir növ leqallıq libası geyindirilir.

Cənubi Qafqazdan sülh gözləntisinin aktual olduğu bir vaxtda Fransanın atdığı addımlar bu aktuallığa tam şəkildə qeyri-adekvatdır. Belə bir dəst xət isə əvvəldə də bildirdiyimiz kimi, Bakı–İrəvan nizamlamasına zərbə vurmaqdır. Deməli, Avropa İttifaqının təşəbbüsləri əhəmiyyətini itirmiş kimi görünür. Müvafiq olaraq Aİ Şurasının Prezidenti Şarl Mişelin missiyasının da artıq iflasa uğradığını söyləməyə əsas var.

İlk baxışdan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bağlanmaya da bilər. Ölkəmiz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, istəklərinə çatıb. İrəvan da itirdiyini itirib, Qarabağ avantürası bitib. Yəni, məsələnin hansısa sənəddə təsdiqlənməməsi keçərli kimi görünə bilər. Ancaq bölgədə sülhün olmaması yeni müharibə ehtimallarını gücləndirməkdədir. İndiki halda Ermənistan üzərinə ciddi şəkildə əməl edəcəyi öhdəlik götürməli, iddialarından əl çəkdiyini rəsmən bəyan etməlidir. Müqavilə məhz bu baxımdan vacibdir. Rəsmi İrəvan isə məsələ ilə razı deyil. Razılaşmadığını ən müxtəlif forma və üsullarla isbatlayır.

Bəli, Azərbaycanla qeyd-şərtsiz sülhə razı olmadığı müddətdə Ermənistan Cənubi Qafqazda təhlükə və təhdid mənbəyi kimi qalacaq. Hazırkı durumda onun bu statusunu müəyyənləşdirən Avropa İttifaqında mühüm rol oynayan Fransadır. Əslində Fransa oktyabrda keçirilmiş Qranada sammiti zamanı qondardığı birtərəfli sülh gündəliyi ilə mövcud istiqamətdəki inadını ortaya qoymuşdu. Nəzərə alaq ki, sözügedən sammitdə ölkə Prezidenti Emmanuel Makronun, həmçinin Şarl Mişelin, Almaniya Kansleri Olaf Şoltsun və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı sənədlər Brüssel gündəliyinə tam zidd idi. Həmin sənədlərin bölgədə yeni reallıq formalaşdırmağa hesablandığı gün kimi aydındır. Ermənistan Qranada gündəliyini ehkamlaşdırması, bu gündəliyi sülhün baza prinsipi kimi irəli sürməsi onu deməyə əsas verir ki, ölkə Azərbaycanla razılaşmayacağı məsələlər üzərinə fokuslanmaqla durumu mürəkkəbləşdirmək yolu tutur. Fransanın silah-sursat yardımı isə mürəkkəbliyə rəng qatmaqdadır. Görünür, Parislə İrəvan arasında bir müddət əvvəl imzalanmış hərbi-texniki əməkdaşlıq müqaviləsi artıq öz "bəhrəsini" verməkdədir. Bu öz yerində. N.Paşinyanın Fransaya səfəri və orada verdiyi bəyanatlar da cütlüyün anti-sülh ritorikasını təsdiqləməkdədir.

Mövcud vəziyyətdə Azərbaycan nə etməlidir? Əlbəttə, ölkəmiz Fransanın Ermənistanı silahlandırması niyyətlərini qətiyyətlə pislədi. Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadənin bildirdiyi kimi, hərbi yardım Ermənistanın regiondakı destruktiv fəaliyyətinə dəstəkdir. Azərbaycan ictimaiyyəti də məsələyə sərt reaksiya verir. Ancaq məlumdur ki, təkcə sözlə qınaq heç nəyi həll etmir. İndiyədək də bölgədə hər şeyi həll edən yeganə faktor güc olub. Yəni, istər Ermənistanın, istər Fransanın, istər xaricdəki ermənipərəstlərin anladıqları yalnız güc dilidir. Görünür, bu dil Ermənistanı sülhə məcburetmə üçün də əsas seçilməlidir. Yoxsa, Fransadan gələn hərbi yardım karvanlarının ard-arası kəsilməyəcək və şübhə yoxdur ki, günün birində Ermənistanın hərbi birləşmələri fransız "Bastion"larını minib üstümüzə gəlmək istəyəcəklər. Nə deyək, gəlsinlər. Gəldikləri kimi gördükləri də olacaq. Elə Fransanın da. Ölkə Bakıdakı Hərbi Qənimətlər Parkını öz istehsalı olan hərbi texnikanın da bəzəməsini çox arzulayırsa, onun bu niyyətinin gerçəkləşməsinə müvafiq dəstək göstərə bilərik.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Azərbaycan müasir müharibənin necə aparıldığını göstərdi

**"Azərbaycan həm İsrail, həm də Ukraynaya nümunədir. O, müasir reallıqlarda Ukraynaya, eləcə də İsrailə müharibənin necə aparılmalı olduğunu göstərib".**



Bu barədə Saratov vilayət dumasının "Vahid Rusiya"dan olan keçmiş deputatı, politoloq Dmitri Çernışevski özünün "YouTube" kanalında Ukrayna və İsraildəki qarşıdurmaları təhlil edərkən danışıb.

O, hesab edir ki, müasir müharibələrdə informasiya komponenti əvvəlki dövrlərdən daha vacib rol oynayır. "Ermənistan Azərbaycanın bir hissəsini işğal etdikdə ölkədə ən azı 700 min, bəlkə də bir milyon qaçqın var idi. Yurd-yuvalarından didərgin salınan, mülkləri əlindən alınan, öldürülən, təcavüzə uğrayan bu insanlar üçün Qərbdə heç kim göz yaşı tökməyib. Qərb hər şeyə göz yumub. Çünki o vaxtlar, 1990-cı illərdə Ermənistan informasiya gündəminə tamamilə hakim idi. Bu illərdə Azərbaycan təkcə Birinci Qarabağ müharibəsində deyil, informasiya müharibəsində də uduzdu", – deyə ekspert bildirib.

"İndi isə nə görürük? Azərbaycan həm informasiya sahəsində, həm də İkinci Qarabağ müharibəsində parlaq qələbə qazandı. Qərb daxil olmaqla, müxtəlif yerlərdə Azərbaycanın əleyhinə və tamamilə yalan fikirlər səsləndirilir. Çünki onlar reallığa məhəl qoymurlar. Lakin bu fikirlər Azərbaycana olan müsbət münasibətlər fonunda nəzərə çarpmır", – politoloq qeyd edib.

Politoloq vurğulayıb ki, Azərbaycan qalib gəlməyin çox çətin olduğu bir vəziyyətdə qələbə qazanıb: "Bu, kifayət qədər həssas və çətin vəziyyət idi. Burada günahkar tərəf olmaq çox asan idi. Amma Azərbaycan bu vəziyyətlə üzləşmədi. Yəni Azərbaycan informasiya sahəsində tam qələbə qazandı. Lokal antiterror tədbirləri cəmi iki gün davam edib. Bu müddət ərzində Azərbaycan qalib gəlib və bununla da "blitskriq" təmin edilib. Əslində, bu, zəruri şərtdir".

Ekspertin sözlərinə görə, Azərbaycan öz "blitskriq" və informasiya komponenti ilə həm Ukraynaya, həm də İsrailə tamamilə qüsursuz nümunə göstərir: "Son üç müharibədən yalnız biri müasir idi. Söhbət İkinci Qarabağ müharibəsindən gedir. Bu, çox güclü informasiya dəstəyi ilə müşayiət edilən ildırımsürətli müharibə idi".

**XQ**

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

## (fəlsəfi-sinergetik təhlil)



IV MƏQALƏ

"Müdrik hər bir ifratdan qaçır"
Lao-Szı

### Siyasətin "qızıl yolu": müxtəlifliyin harmoniyası

Cənubi Qafqaz kimi tarixən mürəkkəb və zidiyyətli "geosiyasi taleyə" malik bir regionda müasir mərhələdə siyasi ifratçılığa uğramamaq böyük liderlik məharəti tələb edir. Ermənistan və Gürcüstanın təcrübəsi göstərdi ki, bu iki Cənubi Qafqaz ölkəsi ifrat aqibətindən qaça bilmədilər. Hazırda daha pis vəziyyətdə olan Ermənistandır. Bu ölkənin rəhbərliyi gah bu, gah digər böyük geosiyasi gücə reverans edir, arada vurnuxan kimi görünür. Azərbaycan isə tamamilə fərqli – siyasi ifratçılıqdan uzaq və müxtəlifliyin sinergetik harmoniyasına uyğun geosiyasi mövqe tutmaqdadır.

Bu siyasətin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur və Prezident İlham Əliyev müdrik liderin dəstxətini XXI əsrin çarığışları fonunda böyük uğurla davam etdirir. Həmin prizmadan biz əvvəlki məqalələrdə İlham Əliyev liderliyinin bir sıra yeni məqamlarına fəlsəfi-sinergetik nəzər salmağa çalışdıq. Bu məqalədə isə Cənubi Qafqazın geosiyasi konfiqurasiyasına ciddi təsir edə biləcək və birbaşa Azərbaycan liderinin təşəbbüsləri ilə bağlı olan 3 əməkdaşlıq formatının təhlilini aparmağa cəhd edəcəyik.

Öncə qeyd edək ki, bu məsələ müasir uğurlu liderliyin ən çətin və mürəkkəb aspektlərindən biridir. Çünki burada yerli miqyasdan birbaşa regional və qlobal miqyasda uğurlu olmaq formuluna çıxış olmalıdır. Mühüm şərt isə siyasi liderlikdə yerli-regional-qlobal miqyaslarda uğurluluq kriteriyaları arasında qarşılıqlı əlaqə yaratmaq qabiliyyəti ilə bağlıdır. Postsovet məkanı ölkələrinin təcrübəsi göstərir ki, bu vəzifənin öhdəsindən Azərbaycan Prezidenti İlham Əliyev tam olaraq gəlmişdir. İndi bu tezisin detallarından söz açaq.

### "Qafqaz Evi"ndən "Qafqaz sinerjisi"nə: İlham Əliyevin yeni liderliyi kontekstində

Bir neçə əsrdir ki, "Qafqaz evi"ndə siyasi və geosiyasi tufan dayanmır. XX əsrin əvvəllərində cəmi bir neçə aya Cənubi Qafqazın üç ölkəsi bir federasiyada birləşdi. Lakin o da geosiyasi sınaqlara tab gətirmədi. Rusiya hər üçünü işğal edərək SSRİ-nin tərkibinə qatdı. Bununla "Qafqaz evi" yalnız rəmzi mənada mövcud oldu. 70 il müddətində qafqazlılar arasına nifaqı daha da körüklədilər. O cümlədən, azərbaycanlıların mənfi obrazını yaradır, onları erməni və gürcülərdən aşağı sayırdılar, hər yerdə günahkar müsəlman türklər olurdu. Əlavə olaraq, Azərbaycan SSR-in əraziləri Ermənistan SSR-ə peşkəş edildi. Beləliklə SSRİ dövründə "Qafqaz evi" "gizli Qafqaz düşmənçilik məkanı"na çevrildi. Bunun alovları 1988-ci ildən açıq fəaliyyət mərhələsinə keçən erməni separatizmi vasitəsi ilə regionu "yandırmağa" başladı. Belə bir düşmənçilik şəraitində yenə də Azərbaycan "Qafqaz evi" ideyasını aktuallaşdırdı. Ulu öndər Heydər Əliyev Eduard Şevardnadze ilə birgə müstəqil Cənubi Qafqaz ölkələrinin birliyinə səslədi. Lakin Ermənsitan və havadarları tamam fərqli siyasi ab-hava içində oldular. Azərbaycana təcavüz xətti və işğalın nəticələrini hüquqiləşdirmək iddiaları davam etdi. Bununla da XXI əsrin son onilliyində "Qafqaz evi" yaratmaq şansı əldən verildi.

Bununla bütün vəzifə XXI əsrdə fəaliyyət göstərməli olacaq Cənubi Qafqaz ölkələri liderlərinin üzərinə düşmüş oldu. Onların sırasında İlham Əliyev həm ideyanın daşıyıcısı, həm də onu real mexanizmlərlə həyata keçirə bilən lider olduğunu dünyaya nümayiş etdirdi. İlham Əliyev "Qafqaz Platforması"ndan bəhs edərək onu regional əməkdaşlıq və təhlükəsizlik formulu olmaqla yanaşı, qlobal miqyasda əməkdaşlıq və təhlükəsizlik formulu ilə sıx əlaqələndirdi.

Konkret olaraq, "Qafqaz Platforması" "3+3" formulunun mərkəzidir. Azərbaycan Prezidenti "Qafqaz Platforması"nı üç region dövlətinin sabitliyi, təhlükəsizliyi və əməkdaşlığı kontekstində görür və bu əsasda ziddiyyətsiz "3+3" formuluna çıxış əldə edir. Məsələ ondan ibarətdir ki, "3+3" konkret olaraq Cənubi Qafqazda regional təhlükəsizlik, sabitlik və əməkdaşlığın davamlı təmin edilməsi ilə bağlıdır. Burada isə üç istiqamətdə ziddiyyətlər, onlara maneələr də deyə bilərik mövcuddur. Birincisi, Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalamağa hazır olmaması. İkincisi, İranın Azərbaycana qarşı müəyyən iddiaları və açıqca təcavüzkar Ermənistanı dəstəkləməsi. Üçüncüsü, Gürcüstanın Rusiya ilə əməkdaşlıq etmək istəməməsi.

Bu problemlərin həlli 3 yerli Qafqaz ölkəsinin qarşılıqlı etimad və səmimi əməkdaşlıq xətti seçməsi ilə həll edilə bilər. Birincisi, bununla son 300 ildə ilk dəfə olaraq Cənubi Qafqazda müstəqil dövlətlər hüquqi Platforma çərçivəsində əməkdaşlıq kursuna keçmiş olurlar. İkincisi, kənar qüvvələrin hər hansı mənfi təsiri əngəllənmiş olur.

Bununla İlham Əliyevin "Qafqaz Platforması" layihəsinin fəlsəfi sinergetik aspektdə mahiyyəti aydınlaşır və eyni zamanda, çox mühüm bir nəticə çıxarmağa əsas yaranır. Yuxarıdakı təhlildən görünür ki, əslində Azərbaycan Prezidenti "Qafqaz sinerjisi" yaradır!

Məsələnin fəlsəfi-sinergetik anlamının çox aktual olan digər aspekti "Qafqaz evi"nin "Qafqaz sinerjisi" yaratması prosesinin yalnız regional miqyasla məhdudlaşmaması ilə əlaqəlidir.

### "3+3" formatından Avropa İttifaqının milli təhlükəsizliyinə sinergetik keçid

Bəlkə də bu tezisi Tehran və Moskvada anlamağı və qəbul etməyi arzulamırlar. Lakin geosiyasi zərurət, realpolitika qaydaları və gələcəyin perspektivi başqa məqamları diktə edir. Bir sıra hallarda ən böyük güclərin görmək istəmədikləri belə mənzərələr yaranır. İndi "3+3" formatını başlıca olaraq Cənubi Qafqazdan uzaq olan qüvvələrin regiona təsirini minimum etmək strategiyası çərçivəsində dəyərləndirirlər. Lakin ideyadan konseptə və oradan da konsepsiya səviyyəsinə keçəndə situasiyaya daha geniş miqyasda baxmaq ehtiyacı yaranır. Həmin bucaq altında İlham Əliyevin liderliyində yüksək strateji zəka, konstruktiv realpolitika faktoru və siyasətdə humanitarlıq və əməkdaşlığa milli maraqlar kontekstində verilən önəm çox aydın görünə bilir.

Məsələ ondan ibarətdir ki, İlham Əliyev "Qafqaz evi"ndən "Qafqaz sinerjisi" yaratmaq səviyyəsinə keçid etməklə "3+3" formatını regional miqyasdan qlobal kontekstə istiqamətləmiş olur. Səbəbi çox sadədir. Çünki "3+3" formatına daxil olan ölkələr qlobal miqyasda əməkdaşlıq, təhlükəsizlik və sabitlik naminə çalışmalıdır ki, perspektivli layihələrdə ziddiyyətsiz iştirak mümkün olsun. Bu zaman geniş bir məkanda çoxlu sayda dövlətlərin əməkdaşlığı bir zərurətdir. O cümlədən, Zəngəzur Dəhlizinin bütövlükdə Orta Dəhliz çərçivəsində perspektivli geosiyasi hadisəyə çevrilməsi real görünür.

Bunun fonunda Azərbaycanın təşəbbüsü ilə işlək olan bir neçə energetik, nəqliyyat-logistika və informasiya layihələri konkret reallaşma imkanı əldə edir. Strateji olaraq bütün bunlar bərpa olunan ("yaşıl enerji"), müasir nəqliyyat-logistika, iqtisadi, ən müasir informasiya texnologiyalarının tətbiqi və enerji təhlükəsizliyinin milli təhlükəsizliklərlə sıx əlaqəsi mümkünlüyünə aparıb çıxarır. Bu prosesdə artıq Avropa ölkələri də iştirakçıdırlar. Özü də Azərbaycanın "Qafqaz evi"+ "3+3" formatları ilə daxili əlaqələr şəraitində avropalılar iştirakçıdırlar. Faktlara baxaq.

Prezident İlham Əliyev keçən ilin sentyabrında İtaliyanın Çernobbio şəhərində təşkil edilən beynəlxalq konfransda çıxış edən zaman Azərbaycanın Avropa İttifaqı ölkələri ilə bir çox layihəsinin geosiyasi əhəmiyyətindən bəhs etmişdir. Dövlət başçısının məsələni Azərbaycanın enerji strategiyasının mərhələləri kontekstində qoyması olduqca səmərəli və məntiqli idi. Çünki Aİ-nin Cənubi Qafqaz istiqamətində enerji layihələri yalnız Azərbaycanın enerji strategiyası çərçivəsində konkret məzmun almışdır.

Azərbaycanın enerji strategiyasının üçüncü mərhələsində ön sıraya "yaşıl enerji" (bərpa olunan enerji) məsələsi çıxmaqdadır. Bura Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Supsa, TAP, TANAP və ümumi halda "Cənub Qaz Dəhlizi" daxildir. Bu bağlılıqda Sofiyada Yunanıstan-Bolqarıstan İnterkonnektorunun açılışı, Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması xüsusi əhəmiyyət kəsb edir.

Bunlar Cənubi Qafqaz üçün nəzərdə tutulan "3+3" təhlükəsizlik və əməkdaşlıq formulunun stratejidə Avropanın da milli təhlükəsizliyi üçün sinergetik effekt verə biləcəyini göstərir. Bu anlamda İlham Əliyevin yeni lider kimi strateji proqnozlaşdırmaq qabiliyyətinin yüksək olduğuna qətiyyən şübhə yeri qalmır. Həmin kontekstdə Azərbaycan Prezidentinin XXI əsrin yeni ruhlu liderlərindən biri kimi, strateji zəkasının bir başqa maraqlı aspekti üzərində düşünmək zərurəti yaranır.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

# Ceyhun Bayramov mərakeşli həmkarı ilə görüşüb



**Noyabrın 13-də xarici işlər naziri, Azərbaycan Respublikası Hökuməti və Mərakeş Krallığı Hökuməti arasında ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın (Komissiya) Azərbaycan tərəfdən həmsədri Ceyhun Bayramov Mərakeş Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilər naziri, Komissiyanın Mərakeş tərəfdən həmsədri Nasser Bourita ilə görüşüb.**

Ceyhun Bayramov və Nasser Bourita arasında baş tutan təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

İkitərəfli görüşlərdən sonra, Azərbaycan və Mərakeşin aidiyyəti dövlət qurumlarının rəsmilərinin də iştirak etdiyi ikitərəfli əməkdaşlıq üzrə Birgə Komissiyanın 2-ci iclası keçirilib.

Görüşlər zamanı Azərbaycan ilə Mərakeş arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq əlaqələri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb.

**XQ**

# Zakir Həsənov Birləşmiş Ərəb Əmirliklərində

**Noyabrın 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) keçirilən "Dubai Airshow – 2023" beynəlxalq sərgisində iştirak etmək məqsədilə bu ölkəyə səfər edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənovun konfrans və panel müzakirələrdə iştirakı nəzərdə tutulur.

**XQ**

---

IX Bakı Beynəlxalq Kitab Sərgisi

# "Heydər Əliyev Azərbaycandır!" sənədli filminin təqdimatı

**Noyabrın 13-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı və "Caspian Event Organisers" şirkətinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçirilən 9-cu Bakı Beynəlxalq Kitab Sərgisində AZƏRTAC-ın hazırladığı "Heydər Əliyev Azərbaycandır!" ikihissəli sənədli filminin təqdimatı keçirilib.**




Ekran əsərində dahi şəxsiyyətin ictimai-siyasi fəaliyyətinin nəticəsi olaraq Azərbaycanın inkişafında mühüm rol oynamış 100 tarixi fakt təqdim edilir.

Sərgisində Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ayrıca stendlə təmsil olunur.

Stenddə ziyarətçilərə, eyni zamanda, AZƏRTAC-ın fəaliyyəti, o cümlədən, veb-saytının yeni dizaynı, yeni loqosu və Uşaq Bilik Portalı (portal.azertag.az) haqqında da geniş məlumat verilir.

*

**Həmin gün Beynəlxalq Kitab Sərgisi çərçivəsində Xalq yazıçısı Elmira Axundovanın "Zərifə və Heydər Əliyevlər – Əbədiyaşar məhəbbət" və "Dövlət keşiyində" kitablarının təqdimat mərasimi keçirilib.**

Kitabında Zərifə və Heydər Əliyevlərin boya-başa çatdığı ailələrindən, uşaqlıq və gənclik illərindən, həyatın bütün çətinliklərinə birgə sinə gərməyə kömək edən əbədiyaşar məhəbbətindən söhbət açılır.

"Dövlət keşiyində" əsəri isə Heydər Əliyevin təhlükəsizlik orqanlarında fəaliyyətindən bəhs edir.

Xalq yazıçısı Elmira Axundova kitabların yaranması haqqında danışıb. O, uzun illər ərzində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin tədqiqatçısı kimi dahi rəhbər barədə çoxlu sayda kitab ərsəyə gətirdiyini bildirib.

*

**Dünən Beynəlxalq Kitab Sərgisi çərçivəsində "Uzun Həsən – Ağqoyunlu dövlətinin hökmdarı" kitabının təqdimatı da keçirilib.**

Fond tərəfindən nəşr olunan kitab iki hissədən ibarətdir. Birinci hissədə Uzun Həsənin şəcərəsi, tərcümeyi-halı haqqında məlumat verilir.

Nəşrdə, həmçinin Uzun Həsən, onun oğlu Sultan Yaqubun daxili və xarici siyasəti, XV əsrdə Azərbaycanda və dünyada baş vermiş siyasi proseslər, XIV-XV əsrlərdə Azərbaycana gəlmiş və Ağqoyunlu sarayında olmuş avropalı səyyahlar, Azərbaycanın ilk qadın diplomatı, Uzun Həsənin anası Sara Xatunun fəaliyyəti, Uzun Həsənin həyat yoldaşı Despina Xatunun obrazının Avropa mədəniyyətində tərənnüm olunması haqqında tarixi məlumatlar yer alıb.

Nəşrin ikinci hissəsi kataloqdur. Burada İstanbul şəhərində yerləşən Hərb Muzeyindəki nadir eksponatların, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi və Gəncə tarix-diyarşünaslıq muzeyinin, Azərbaycan Milli Kitabxanasının fondlarında saxlanılan və Ağqoyunlu dövrünə aid 50-dən çox eksponat haqqında məlumatlar əldə etmək mümkündür.

Qeyd edək ki, kitab Heydər Əliyev Mərkəzində hazırda davam edən "Uzun Həsən - Ağqoyunlu dövlətinin hökmdarı" sərgisi çərçivəsində nəşr olunub.

**XQ**

# Zəfərə hədəflənən sosial siyasət



**Ölkəmizin iqtisadi gücü, müasir ordu quruculuğu və xalq–dövlət birliyi nəticəsində 3 il əvvəl Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qələbə əzmini və iradəsini bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək ədaləti və beynəlxalq hüququ təmin etdi. Bu qələbəni, cənab Prezidentin qeyd etdiyi kimi, rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçməklə şəhidlərimizin qanı və canı bahasına əldə etdi.**

Zəfər çalmış Azərbaycan bu gün vətəndaş rifahının təminatı istiqamətində mühüm irəliləyişlərə yol açan güclü sosial siyasətə və iqtisadi gücə malikdir. Hazırda ölkəmizdə reallaşan uğurlu sosial islahatlar məhz bunun bariz nümunəsidir. Şəhid ailələrinə və müharibədən zərər çəkmiş şəxslərə diqqət və qayğı, ölkə vətəndaşlarının rifahının və məmnunluğunun təminatı Prezident İlham Əliyevin daim xüsusi həssaslıqla yanaşdığı məsələlərdən biridir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın yüksək humanizm, nəciblik, xeyirxahlıq nümunəsi olan təşəbbüs və layihələri də, xüsusilə, əhalinin həssas qruplarının sosial müdafiəsində mühüm rola malikdir.

Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığı əsasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi həyata keçirilməkdədir. Ötən dövrdə reallaşdırılan sosial layihələr çərçivəsində şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənərək həmin kateqoriyadan olan şəxslərə 5 min 350 mənzil və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 324 avtomobil verilib. Postmüharibə dövrü üzrə qeyd olunan sosial dəstək proqramı çərçivəsində şəhid ailələri və müharibə iştirakçılarından ibarət 126 min şəxsi əhatə edən 315 min dəstək yönümlü xidmət göstərilib. Bu dövrdə həmin kateqoriyaya aid 104 min şəxsə 116 min sosial ödəniş, 17 min 337 şəxsə isə proaktiv qaydada birdəfəlik ödəniş təyin olunub. Bununla yanaşı, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib.

Bizə bu Zəfəri yaşadan ölməz şəhidlərimizin ailə üzvlərinin və müharibə iştirakçılarının məşğulluğunun təmin edilməsi də sosial dəstək tədbirlərinin əsas hədəflərindən biridir. Bu istiqamətdə görülən tədbirlər nəticəsində həmin kateqoriyaya aid 20 min 300 nəfər işlə təmin edilib, o cümlədən 10 min 300 şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Vətən müharibəsindən sonra ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və torpaqlarımızın işğaldan azad olunması istiqamətində aparılan hərbi əməliyyatlar zamanı şəhid olmuş şəxslərin ailə üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ icrasını təmin etmək məqsədilə yaradılan vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 98 min 600 şəxsə müxtəlif xidmətlər göstərilib.

Müharibə ilə əlaqədar əzalarını itirən və əlilliyi olan şəxslərin yüksək texnologiyalı son nəsil protezlər və reabilitasiya vasitələri ilə təminatı işləri də həyata keçirilib. Ümumilikdə, 44 günlük Vətən müharibəsindən sonra sosial dəstək proqramı çərçivəsində müharibə ilə əlaqədar əlilliyi olan 448 şəxs 467 ədəd yüksək texnologiyalı müasir protezlə təmin edilib, 2 min 35 şəxsə 46 min reabilitasiya vasitəsi verilib.

Vətən müharibəsində şərəfli döyüş yolu keçmiş qəhrəmanlarımızın psixoloji müdafiəsinin, bərpasının, dayanıqlığının təmin edilməsinə və onlarda müharibənin izləri olan psixoloji fəsadların aradan qaldırılması məqsədilə bu ilin avqust ayında "Qəhrəmanlarımız üçün yaşıl işıq" sosial-psixoloji dəstək layihəsinə başlanılıb. Ümumilikdə, postmüharibə dövründə şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 52 min 400 sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.

Qəhrəman Vətən övladlarının yadigarlarının və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin fərdi bacarıqlarının inkişaf etdirilməsi, həmin şəxslərin dünyagörüşünü, motivasiyasını artırmaq, yeni yaradıcılıq uğurlarını stimullaşdırmaq, sosial reabilitasiyasına dəstək olmaq məqsədilə mütəmadi olaraq tədbirlər və layihələr həyata keçirilir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial xidmətlər sahəsində keyfiyyətcə yeni mərhələ açan, hər kəsə dost məramı ilə yanaşan, şəffaflıq, operativlik, vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə yaradılan DOST konsepsiyası çərçivəsində yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi Azərbaycanda müharibə ilə əlaqədar əlil olanların və şəhid ailələrinin üzvlərinin cəmiyyətə inteqrasiya imkanlarının artırılması sahəsində aparılan fəal dövlət siyasətinin növbəti əyani təcəssümünü ifadə edir.

44 günlük Vətən müharibəsində ölkəmiz öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan yeni mərhələsinə qədəm qoydu. Ölkə başçısının göstərişləri ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi fəallığının təmin olunmasına, həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsinə xidmət edən məqsədyönlü və genişmiqyaslı layihələrin həyata keçirilməsinə başlanılıb. Dövlət başçısının müvafiq sərəncamı ilə işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub.

DOST layihəsi çərçivəsində ötən ildən Zəngilan rayonunda fəaliyyət göstərən "Smart DOST" məntəqəsi artıq doğma torpaqlarına qayıdan vətəndaşlarımızın xidmətindədir. Həmin sosial islahatların davamı olaraq bu il avqustun 7-də açılan Qarabağ Regional DOST Mərkəzi 9 inzibati rayonu əhatə edərək, ümumilikdə, 900 mindən çox əhaliyə "bir pəncərə" prinsipi ilə 15 istiqamət üzrə 159 xidmət göstərir. Bu mərkəzlə birgə istifadəyə verilən Qarabağ Regional Peşə Hazırlığı Mərkəzi də həmin bölgədə məşğulluq imkanlarının artırılmasına, işçi qüvvəsinin əmək bazarının tələblərinə uyğun peşə bacarıqlarına yiyələnmələrinə xidmət edir. Ümumilikdə, "Böyük Qayıdış"a dair I Dövlət Proqramına əsasən 2023 –2026-cı illərdə Cəbrayılda Regional DOST Mərkəzi və Peşə Hazırlığı Mərkəzi, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşada DOST filialları, Kəlbəcərdə Reabilitasiya Mərkəzi yaradılacaq.

Doğma yurdlarına köçürülən sakinlərin məşğulluğunun təmin edilməsi qarşıda duran mühüm hədəflərdən biridir. Hazırda sakinlərin münasib vakansiyalar üzrə işlə təminatı, özünüməşğulluq proqramına cəlbi, eləcə də onların bir qisminin yeni peşələrə yiyələnmələri məqsədilə peşə hazırlığı kurslarının təşkili üzrə tədbirlər davam etdirilməkdədir. "Böyük Qayıdış"ın başlanğıcı olan Zəngilanın Ağalı kəndinə köçürülən sakinlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aktiv məşğulluq proqramları ilə əhatə olunublar. Proqram üzrə Füzuli şəhərinə köçürülən sakinlərin məşğulluğuna dəstək işləri çərçivəsində 59 nəfər işlə təmin edilib, 16 sakinin isə özünüməşğulluq proqramına cəlb edilməsi işləri aparılır. İşğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən aktiv məşğulluq proqramları nəticəsində ümumilikdə, bu ərazilərə köçürülən sakinlərdən əmək qabiliyyətli olanların təqribən 70 faizinin məşğulluğu artıq təmin edilib.



Cənab Prezident tərəfindən imzalanmış qanunvericilik aktları ilə işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşaraq işləyən mütəxəssislərin ilkin maddi-məişət şəraitinin dəstəklənməsi məqsədilə bu ilin avqust ayında onlara birdəfəlik müavinətin (600 manat) təyin olunmasına başlanılıb. Həmin mütəxəssislərə birdəfəlik müavinətin verilməsi ilə yanaşı, onların aylıq vəzifə maaşlarına əlavələr hesablanması və onlara hər il 5 gün əlavə məzuniyyət verilməsi də nəzərdə tutulub.

Vətən müharibəsi iştirakçılarına göstərilən diqqətin və dəstəyin tərkib hissəsi olmaqla müharibə iştirakçılarının və onların ailə üzvlərinin, şəhid ailələrinin sosial rifahının yaxşılaşdırılması, məşğulluğunun təmin olunmasına dəstək məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Dövlət Məşğulluq Agentliyinin birgə həyata keçirdiyi "Qarabağ KOB-ları" layihəsinin icrasına başlanılması da bu istiqamətdə atılan mühüm addımlardan biridir. Bu layihə çərçivəsində, ümumilikdə, 50 yeni sahibkarlıq subyektinin yaradılması nəzərdə tutulur. Bu ilin aprel ayından başlayaraq 4 rayonda (Füzuli, Laçın, Tərtər (Suqovuşan, Talış) və Ağdam) 62 işəgötürən üzrə 1000 nəfərdən çox işçinin iştirakı ilə əməyin mühafizəsi və mina təhlükəsizliyinə dair maarifləndirici tədbirlər keçirilib. Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı inkişafın təmin olunması, yaşayış üçün rahat şərait yaradılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi, o cümlədən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi işləri "Böyük Qayıdış"a dair I Dövlət Proqramına uyğun olaraq davam etdiriləcək.

Sentyabrın 19-da antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etdi. Antiterror əməliyyatları zamanı hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərərək Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş separatçıların böyük hissəsini məhv etdi. Hərbi əməliyyatlar nəticəsində şəhid olan və xəsarət alan hərbi qulluqçularımızın da sosial müdafiə tədbirləri ölkə başçısının göstərişlərinə əsasən davam etdirilməkdədir.

Uğurlu antiterror əməliyyatlarından sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Xankəndi şəhərində həssas əhali qrupları olan şəxslər üçün 30 nəfərlik sığınacaq yaradılıb, burada yerləşdirilmiş sakinlərə psixoloq və sosial işçilər tərəfindən sosial xidmətlərin göstərilməsinə başlanılıb.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə bağlı geniş miqyaslı sosial dəstək tədbirləri bundan sonra da genişlənəcəkdir.

Hazırda Azərbaycan xalqı özünün ən qürurlu və ən şərəfli tarixini yaşayır. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu misilsiz qələbə – Zəfər Günü və Xankəndidə keçirilmiş parad qəlbimizi fərəhlə doldurur!

***Anar KƏRİMOV,***
***Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini***

# Arazdəyəndəki zavodla bağlı Ermənistan danışıqlara hazır olduğunu bildirib

**Ermənistan mətbuatında yayılan məlumata əsasən, bu dövlətin ətraf mühit naziri ölkəsinin Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində, Arazdəyən qəsəbəsi yaxınlığında metallurgiya zavodunun inşası ilə bağlı BMT-nin Avropa İqtisadi Komissiyasının İcraçı katibinə müraciət ünvanlayaraq respublikamızla danışıqlara hazır olduğunu bildirib.**



Xatırladaq ki, işğalçı ölkənin Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində, Arazdəyən qəsəbəsi yaxınlığında 16 min 500 kvadratmetr sahədə, illik istehsal gücü 108 min ton olan iri metallurgiya zavodunun inşasının aparılması ilə bağlı Ermənistanın iqtisadiyyat naziri Vahan Kerobyanın 3 iyun 2023-cü il tarixli sosial media hesabında məlumat və bu faktı təsdiq edən videogörüntülər yayılıb.

Ermənistan 1991-ci il BMT-nin Avropa İqtisadi Komissiyasının "Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyası"nın 3.1-ci bəndinə əsasən, sərhədyanı zonada tikiləcək metallurgiya zavodu barədə təsirə məruz qala biləcək ölkə kimi Azərbaycanı rəsmi xəbərdar etməyə və Konvensiyanın 5-ci bəndinə əsasən Azərbaycanla müvafiq məsləhətləşmələr aparmağa dair öhdəliklərə malikdir. Bu xüsusda qeyd edilməlidir ki, adıçəkilən fəaliyyət Konvensiyanın 1-ci əlavəsində transsərhəd təsiri gözlənilən fəaliyyətlərin siyahısına daxildir.

Bütün bunlara baxmayaraq, Ermənistan tərəfindən mövcud olan kommunikasiya kanalları vasitəsilə Azərbaycana bu barədə hər hansı rəsmi bildiriş verilməyib və Azərbaycanla məsləhətləşmələrə başlanılmayıb.

Məlumat mətbuatda açıqlanan zaman Azərbaycan tərəfindən məsələyə operativ reaksiya verilib və Ermənistana məktub ünvanlanıb. Məktubda Ermənistandan Konvensiya üzrə öhdəliklərini reallaşdırması, layihənin zərərli transsərhəd təsirlərini müəyyənləşdirmək məqsədilə məsləhətləşmələrə başlamaq üçün zəruri məlumatların təqdim edilməsi və zavodun tikintisinin həmin ərazidə dayandırılması tələb olunub.

Ermənistan tərəfinin cavab məktubunda Konvensiya üzrə öhdəliləri pozulmadığı, sözügedən fəaliyyətin Azərbaycanın ətraf mühitinə əhəmiyyətli mənfi təsir etməyəcəyi bildirilib və respublikamızın məsləhətləşmələr aparmaq, sənədləri təqdim etmək və müəssisənin tikintisinin həmin ərazidə dayandırılması ilə bağlı tələbləri rədd edilib.

Bunu nəzərə alaraq, cari ilin sentyabr ayında Azərbaycan Konvensiyasın 3.7-ci maddəsinə və 4-cü Əlavəsinə əsasən məsələnin araşdırılması üçün BMT-nin Avropa İqtisadi Komissiyasının İcraçı katibinə müraciət ünvanlayıb. Müraciətdə Katiblikdən təcili olaraq zavodun transsərhəd təsirini müəyyənləşdirmək üçün təhqiqat komissiyasının yaradılması, ətraf mühitə təsir müəyyən edilənədək müəssisənin inşasının dərhal dayandırılması üçün Ermənistana müraciət edilməsi, ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi və mümkün təsirlərin azaldılması tədbirləri daxil olmaqla, inşaatla bağlı mümkün məlumatların əldə edilməsinə Azərbaycana kömək göstərilməsi xahiş edilib. Müraciətin surəti Ermənistan tərəfinə də müvafiq qaydada çatdırılıb.

2023-cü il oktyabrın 13-də icraçı katib adından Azərbaycan tərəfinə cavab məktub ünvanlanıb. Məktubda Ermənistanın müzakirələr aparmağa, ətraf mühitə təsir və layihə sənədlərinin təqdim edilməsinə dair öhdəliklərinin olduğu təsdiqlənib.

Azərbaycanın BMT-nin Avropa İqtisadi Komissiyasının icraçı katibinə müraciəti və Ermənistana qarşı davamlı hüquqi-diplomatik təzyiqləri nəticəsində 2023-cü il oktyabrın 31-də işğalçı dövlətin iqtisadiyyat naziri zavodun inşasının (sərhəddən uzaq olan) yeni yerə keçirilməsi barədə mətbuata açıqlama verib. Eyni zamanda, Ermənistanın ətraf mühit naziri icraçı katibə müraciət ünvanlayaraq Azərbaycanla danışıqlara hazır olduğunu bildirib.

***V.BAYRAMOV***
***XQ***

# XİN Fransa tərəfindən Ermənistana zirehli avtomobillərin göndərilməsini pisləyib

**Fransa tərəfindən Ermənistana hücum xarakterli "Bastion" zirehli avtomobillərinin göndərilməsini qətiyyətlə pisləyirik.**

Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransanın Ermənistana hərbi texnika göndərməsi ilə bağlı suala cavabında bildirilib.

Qeyd olunub ki, sözügedən hərbi texnikanın ötürülməsi Azərbaycan ərazilərinin bir hissəsini 30 ilə yaxın işğal altında saxlayan, hazırda da təcavüzkar siyasətdən və ritorikadan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək.

Özünü beynəlxalq hüququn təbliğatçısı, bölgədə sülh və sabitliyin tərəfdarı kimi təqdim edən Fransanın bu addımları regionda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərinin qarşılıqlı şəkildə tanınması və hörmət edilməsi əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyur və vəziyyətin gərginləşdirilməsinə xidmət edir.

Fransanın Azərbaycana qarşı apardığı qarayaxma kampaniyası və bölgədəki destruktiv fəaliyyəti fonunda Ermənistanın hərbiləşmə siyasətinə xidmət edən bu addımları Fransanın bölgədə yanlış maraqlardan çıxış etdiyini göstərir.

Ermənistan və Fransa bölgədə silahlanmaya və hərbiləşmə siyasətinə son qoymalı, regionda sülh və əməkdaşlığın alternativinin olmadığını, nəhayət, anlamalıdırlar.

"Beynəlxalq ictimaiyyəti öz təcavüzkar siyasəti və əməlləri ilə tanınan Ermənistanı silahlandırmaqdan, buna şərait yaratmaqdan çəkinməyə, regionda sülh və firavanlığın bərqərar olunmasının qarşısını alan belə qeyri-legitim fəaliyyəti dayandırmağa və pisləməyə çağırırıq", - deyə açıqlamada vurğulanır.

**XQ**



# Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələri dərinləşir



(əvvəli 1-ci səhifədə)

Bütün bunlarla bərabər, Özbəkistan Azərbaycan və Türkiyə ilə yükdaşımalarla bağlı məlumatları rəqəmsallaşdırıb və digər dövlətlərlə də analoji layihələrin reallaşdırılmasına başlanılıb. Türkiyə, Türkmənistan, Tacikistan, eləcə də Azərbaycan və İran tərəfindən razılaşdırılan multimodal dəhlizlər səmərəli fəaliyyət göstərməklə ECO-ya üzv ölkələr arasında əlaqələrin inkişafını daha da sürətləndirib. Energetikanın ECO üçün çox vacib sahə olduğu nəzərə alınaraq bu istiqamətdə Xartiya imzalanıb.

ECO öz fəaliyyətində turizm sahəsində əməkdaşlığı da daim diqqət mərkəzində saxlayıb, "Turizm paytaxtları" konsepsiyasının icrası istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirib. İndiyədək 6 şəhər, o cümlədən Tacikistanın Düşənbə, İranın Sari və Ərdəbil, Özbəkistanın Şəhrisəbz, Türkiyənin Ərzurum və Azərbaycanın Şuşa şəhərləri "Turizm paytaxtları" seçilib. ECO-ya üzv ölkələrin çox zəngin mədəni irs və təbiət gözəllikləri ideyalarının təbliğinin bundan sonra da diqqətdə saxlanılacağı və bu istiqamətdə önəmli təşəbbüslərin reallaşdırılacağı nəzərdə tutulub.

Azərbaycan bu təşkilata üzv olduğu ilk vaxtlardan qurumun işində fəal iştirak edir. Dövlətimizin başçısı noyabrın 9-da Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində keçirilən ECO-nun 16-cı Zirvə toplantısında çıxış edərək bütün bunlar barədə ətraflı məlumat verərək bildirib ki, ölkəmizin nəqliyyat və logistika infrastrukturu təşkilata üzv dövlətlər üçün açıqdır.

Prezident İlham Əliyev, həmçinin qeyd edib ki, son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla dollar həcmində sərmayə qoyub və ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Hər iki dəhlizin Azərbaycandan keçən hissələri tam hazır vəziyyətə gətirilib. Respublikamızda bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükaşırma qabiliyyətinin daha da genişləndirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Azərbaycan, eyni zamanda, etibarlı tranzit ölkədir və respublikamızın nəqliyyat-logistika infrastrukturu bütün ECO ölkələri üçün açıqdır. Şərq-Qərb marşrutu üzrə yükdaşımalara tələbatın artdığını nəzərə alaraq Azərbaycan Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınan yüklərin həcminin 1 milyon tondan 5 milyon tona çatdırmağı hədəfləyir. Həmçinin İran İslam Respublikasının ərazisi vasitəsilə Naxçıvan Muxtar Respublikasına çıxış imkanı yaradacaq avtomobil və dəmir yolunun çəkilməsi barədə bu ölkə ilə razılığa mühüm önəm verir.

Dövlətimizin başçısı çıxışında son 20 il ərzində Azərbaycan iqtisadiyyatına 310 milyard dollar həcmində sərmayə qoyulduğunu, bunun 200 milyard dollarının qeyri-neft sektorunun payına düşdüyünü və belə bir yüksək göstəricinin respublikamızda yaradılan münbit sərmayə iqliminin nəticəsində əldə edildiyini də vurğulayıb.

Ölkəmiz təşkilata sədrliyi dövründə qurumun digər regional və beynəlxalq platformalarla əməkdaşlığı da güclənib. Azərbaycanın son illərdə ECO-ya üzv ölkələrlə bərpaolunan enerji sahəsində əlaqələri genişlənib. Məhz buna görədir ki, respublikamız təşkilatın Təmiz Enerji Mərkəzinin ev sahibi kimi rəsmi olaraq təsdiqlənib.

Yeri gəlmişkən, Azərbaycanın təşkilatda sədrlik mövzusunun "Yaşıl keçid və qarşılıqlı əlaqələr" kimi müəyyənləşdirilməsi hazırkı dövrdə xüsusi önəm daşıyır. Dekarbonlaşma, "yaşıl enerji" növlərinin artırılması kimi məsələlər ölkəmizin dayanıqlı inkişaf gündəliyinin əsasını təşkil edir. Eyni zamanda, "yaşıl enerji" zonası elan olunan Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasına uyğun olaraq həyata keçirilir.

Beləliklə, Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetirir. Respublikamızın bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir.

Azərbaycan yaxın gələcəkdə "yaşıl və hidrogen enerjisi"nin ixracatçısına çevriləcək. Dünyanın aparıcı "yaşıl enerji" şirkətləri olan xarici investorlarla imzalanan sazişlərə və anlaşma memorandumlarına əsasən, qarşıdakı illərdə ölkəmizdə istehsal ediləcək bərpaolunan enerji 10 qiqavata çatacaq.

Bu ilin oktyabr ayında Azərbaycanda fəaliyyətə başlayan "Masdar" şirkəti tərəfindən inşa edilmiş 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyası Xəzər dənizi və Qafqaz regionunda ən böyük günəş elektrik stansiyasıdır.

Azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilib. 2024-cü ilin sonuna qədər bu rəqəmin 270 meqavata çatacağı planlaşdırılıb. Bir neçə ildən sonra erməni işğalından azad edilmiş ərazilərdə hidroelektrik stansiyaların ümumi gücünün də 500 meqavata çatdırılacağı nəzərdə tutulub.

Sonda xatırladaq ki, 1964-cü ildə İran, Pakistan və Türkiyə tərəfindən İnkişaf üçün Regional Əməkdaşlıq (İRƏ) adı ilə üç ölkə arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılan bu qurum 1985-ci ildən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatı adlandırılıb. Təşkilatın təsis proqramında davamlı iqtisadi artıma nail olunması, üzv dövlətlərin iqtisadi inkişafının sürətləndirilməsi, ticarətin liberallaşdırılması, üzv dövlətlərin iqtisadiyyatının dünya iqtisadiyyatına tədricən inteqrasiyası, nəqliyyat və kommunikasiya sisteminin inkişaf etdirilməsi, maddi sərvətlərin səmərəli istifadəsi məsələləri qarşıya mühüm vəzifələr kimi qoyulub.

Azərbaycan quruma 1992-ci ildə üzv olub. Təşkilatın 9-cu və 12-ci zirvə toplantıları müvafiq olaraq 2006 və 2012-ci illərdə Bakıda reallaşıb, Bakı bəyannamələri qəbul edilib. Bu il yanvarın 24-də isə Özbəkistanın Daşkənd şəhərində qurumun Nazirlər Şurasının 26-cı iclası keçirilib. Toplantıda təşkilata sədrlik Azərbaycana keçib.

***V.BAYRAMOV***
***XQ***



# Macarıstan ölkəmizdən böyük həcmdə qaz almağı planlaşdırır

**Macarıstanın xarici işlər və xarici iqtisadi əlaqələr naziri Peter Siyarto paytaxt Buxarestdə keçirilən 6-cı Beynəlxalq Qaz Konfransında çıxış edərək ölkəsinin gələcəkdə Azərbaycan, Qətər və Türkiyədən böyük həcmdə qaz almağı planlaşdırdığını, lakin regionda boru kəmərinin gücünün bunun üçün yetərli olmadığını bildirib.**

Peter Siyarto daha sonra Macarıstanın qazın əsas hissəsinin hələ də Rusiyadan aldığını və mənbə ilə tədarük marşrutlarının şaxələndirilməsinin illüziya olaraq qaldığını vurğulayıb. O, bunun səbəbini Cənub-Şərqi Avropanın yetərli boru xəttinə malik olmaması ilə əlaqələndirib.

Macarıstan rəsmisi, həmçinin qaz kəmərlərinin ötürmə qabiliyyətini artırmaq üçün əlavə vəsaitin lazım gəldiyini, ancaq Cənub-Şərqi Avropa ölkələri üçün zəruri məbləğin əldə edilməsinin çətin olduğunu, Avropa Komissiyasının isə bu layihənin maliyyələşdirilməsini təsdiqləmədiyini diqqətə çatdırıb.

Siyarto əlavə edib ki, Macarıstan boru kəməri və interkonnektor imkanlarını genişləndirmək üçün qonşuları, habelə tərəfdaşları ilə əməkdaşlığı davam etdirəcək.

# Naxçıvanda vergi daxilolmaları artıb

**2023-cü ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasında (MR) Dövlət Vergi Xidmətinin (DVX) xətti ilə büdcəyə 1 milyard 34 milyon manatdan çox vergi daxil olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 33 faiz və ya 33 milyon manat çoxdur.**



İqtisadiyyat Nazirliyi yanında DVX-nin məlumatında daha sonra bildirilir ki, Naxçıvan MR DVX-də qeydiyyatda olan vergi ödəyiciləri üzrə vergi daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 39 faiz və ya 36,8 milyon manat artıb.

Hesabat dövründə MR-də məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar isə 120 milyon manatdan çox olub. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 11,6 faiz çoxdur.

***XQ***

# Ölkəmiz "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin mühüm iştirakçısıdır

## *Bu marşrutdan ildə 2,5-3 milyard dollar qazanılacaq*

**Rəşt–Astara dəmir yolunun tikintisinin davam etdirilməsi istiqamətində Rusiya ilə aparılan danışıqlarda texniki məsələlərin 70 faizi razılaşdırılıb. Bu barədə İranın Nəqliyyat İnfrastrukturunun Tikintisi və İnkişafı dövlət şirkətinin icraçı direktoru Xeyrulla Xademi məlumat verib. O bildirib ki, yolun tikintisinin maliyyələşmə qrafiki, yükdaşıma imkanının artırılması, stansiyaların inşası, istismarın qaydaları haqqında Rusiya ilə razılıq əldə olunaraq sənəd imzalanıb.**



"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Rəşt-Astara yolu Qəzvin-Rəşt-Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun davamıdır. Asiya ilə Avropanı nəqliyyat baxımından birləşdirəcək bu dəhlizin formalaşması nəticəsində İran, Azərbaycan və Rusiyanın tranzit yükdaşıma imkanları artacaq. Cənub Şərqi Asiya ölkələrindən daşınan yüklər Hindistanın Mumbai limanına, buradan isə İranın Çabahar və Bəndər-Abbas limanlarına daxil olacaq. Bu limanlardan isə yüklər qatarla Qəzvin-Rəşt-Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu ilə ölkəmizin ərazisindən keçərək Rusiya və Avropaya daşınacaq.

Xatırladaq ki, "Şimal-Cənub" Nəqliyyat Dəhlizinin təməli 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistan arasında imzalanmış hökumətlərarası saziş əsasında qoyulub. Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Ötən müddətdə 13 ölkə sözügedən sənədi ratifikasiya edib. Yeri gəlmişkən, hazırda mövcud marşrutla Hindistandan Rusiyaya yüklərin çatdırılması üçün 6 həftədən artıq vaxt tələb olunur. "Şimal-Cənub" nəqliyyat dəhlizinin tam fəaliyyətə başlamsı isə bu müddətin iki dəfə azalmasına səbəb olacaq.

"Şimal-Cənub" Nəqliyyat Dəhlizinin formalaşmasında tranzit ölkə kimi mühüm rol oynayan Azərbaycan bu sazişə 2005-ci ildə qoşulub. Avrasiya materikinin şimal və cənub hissələri arasında mühüm nəqliyyat-logistika rolunu oynayan dəhlizin Azərbaycan üzərindən keçməsi səbəbindən ötən müddətdə dövlətimiz tərəfindən böyük infrastruktur layihələri həyata keçirilib. Bu baxımdan Bakının cənub hissəsində yeni beynəlxalq ticarət limanının inşası xüsusi əhəmiyyət daşıyır. Son illər limanının yükaşırma qabiliyyətinin artırılması ilə bağlı görülən işlər Bakı Dəniz Ticarəti Limanının beynəlxalq statusunu bir qədər gücləndirir. Bundan əlavə, Ələt-Astara avtomobil yolunun yenidən qurulması, İran Astarası ilə Azərbaycan Astarası arasında yeni dəmir yolu körpüsünün istifadəyə verilməsi ölkəmizin tranzit rolunun xeyli artmasına səbəb olub.

Bütövlükdə isə, Prezident İlham Əliyevin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Astara (Azərbaycan)–Astara (İran) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər 8,3 kilometr yeni yol tikilib, Astaraçay üzərində dəmiryol körpüsü inşa olunub, buradan İran İslam Respublikası ərazisində yaradılmış yük terminalına qədər 1,4 kilometr yol çəkilib. Eyni zamanda, Astaraçay üzərində tikintisi başa çatdırılmış yeni avtomobil körpüsü də yaxın günlərdə hər iki dövlət rəsmilərinin iştirakı ilə istismara veriləcək. Bütün bunlarla yanaşı, hazırda "Azərbaycan Dövlət Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən İranın Astara şəhərində yük terminalının tikintisi sürətlə davam etdirilir. Dəhliz çərçivəsində nəzərdə tutulmuş infrastruktur layihələri tamamlandıqdan sonra İran ərazisindən keçməklə Bakıdan Naxçıvan Muxtar Respublikasına dəmir yolu ilə birbaşa daşımaların təşkili mümkün olacaqdır.

Dəhlizlə ilkin olaraq il ərzində 5 milyon ton yükün daşınması, gələcəkdə isə bu həcmin 10 milyon tona qədər artırılması planlaşdırılır. Yeri gəlmişkən, hazırda İrana, əsasən, taxıl məhsulları və meşə materialları, əks istiqmətdən neft və neft məhsulları, mineral gübrələr, sement, kimyəvi məhsullar və s. daşınır. Yeri gəlmişkən, İranın Prezident Administrasiyasının rəhbərinin müavini Məhəmməd Cəmşidi İSNA informasiya agentliyinə verdiyi müsahibəsində qeyd edib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin gətirəcəyi gəlir neft satışından əldə olunan gəlirə bərabər olacaq. Onun sözlərinə görə, dəhlizin illik gəliri 20 milyard dollara çatacaq. Dəhlizin tam gücü ilə fəaliyyətə başlaması gələcəkdə Azərbaycanın da tranzit gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Ekspertlərin fikrincə, ölkəmiz tranzit yüklərin daşınmasından ildə 2,5-3 milyard dollar qazanacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



**Təbriz YADİGAROV, ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent**

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı Azərbaycan Respublikasının həm xarici, həm də daxili iqtisadi maraqlarına cavab verir. Yeni İpək Yolunun Transxəzər hissəsindən keçən bu dəhliz regionda qüvvələr balansını yaxşılaşdırmaqla yanaşı, Süveyş kanalına və ümumilikdə, dəniz yoluna alternativ bir marşrut olduğundan xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu marşrutun istifadəyə verilməsi ilə Xəzər dənizində xarici ticarət fəaliyyəti ilə yanaşı, Xəzəryanı ölkələrin logistikasına investisiyaların axını da artır.

Artıq "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə Rusiyadan İrana yükdaşımaların həyata keçirilməsinə başlanılıb. Belə ki, bu il sınaq məqsədilə Rusiyadan İrana taxta məmulatları yola salınıb. Yük Rusiyanın Tixonovo stansiyasından çıxaraq dəmir yolu ilə Azərbaycanın Astara stansiyasındakı terminala çatdırılıb. Orada aşırma əməliyyatı keçirəndən sonra yük avtomobillərlə İran ərazisinə göndərilib. Qeyd edək ki, 907 ton həcmdə olan yük Astara terminalına 16 vaqon vasitəsilə çatdırılıb. Sınaq yükdaşımasından sonra həmin yüklərin "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə davamlı olaraq nəql edilməsi nəzərdə tutulur.

"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə yükdaşımaların həyata keçirilməsi bu marşrutun perspektivindən xəbər verir. Dəhlizin tam işə düşməsi Azərbaycanın bölgənin ən əsas tranzit və logistik mərkəzinə çevrilməsinə böyük təkan verəcək. Xatırladaq ki, hazırda dəhlizin İranın Rəşt və Azərbaycanın Astara şəhərləri arasındakı hissəsində yüklər avtomobil nəqliyyatı ilə daşınır. Bu da yüklərin bir nəqliyyat növündən digərinə ikiqat daşınması zərurəti ilə əlaqədar 7200 kilometrlik dəhlizin inkişafına mane olur. Hələ 2017-ci ildə Azərbaycan həmin hissənin tikintisi üçün İrana 500 milyon dollar məbləğində güzəştli kredit ayırmışdı. Ümumilikdə, bu xəttin tikintisi 2 milyard dollar dəyərində qiymətləndirilirdi. Rusiya isə 2030-cu ilə qədər "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişafına 1,5 milyard dollar ayırmağı planlaşdırır. Bu istiqamətdə yük daşınması xərclərin 10-20 faiz azalması ilə 3 dəfə, daşımaların həcmi isə ildə 10-15 milyon ton arta bilər.

Yeri gəlmişkın, ötən il Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində tranzit daşımaların həcmi 13 milyon 635 min ton təşkil edib ki, bunun da 7 miyon 478 min tonu dəmir yolu, 6 milyon 157 min tonu isə dəniz nəqliyyatı ilə daşınıb. Hesablamalara görə, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yükdaşıma potensialı 2030-cu ilə qədər 14,6 milyon tondan 24,7 milyon tona qədər artacaq.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 410** **Bakı şəhəri, 13 noyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322, № 12, maddə 1674; 2015, № 4, maddə 471, № 10, maddə 1228; 2018, № 7 (II kitab), maddə 1645; 2019, № 2, maddə 356; 2020, № 3, maddə 366; 2021, № 7, maddə 858; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 avqust tarixli 351 nömrəli, 2019-cu il 18 dekabr tarixli 485 nömrəli və 2022-ci il 15 mart tarixli 85 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"na aşağıdakı məzmunda 227-ci və 228-ci hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 227. | Sərsəng su anbarı | Tərtər, Kəlbəcər rayonları | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 228. | Suqovuşan su anbarı | Tərtər rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 411** **Bakı şəhəri, 13 noyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 1999-cu il 7 iyun tarixli 94 nömrəli, "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısının təsdiq edilməsi haqqında" 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli, "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısının təsdiq edilməsi haqqında" 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli, "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"-nın və "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın təsdiq edilməsi barədə" 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli və "Mərzçəkmə işlərini həyata keçirən özəl hüquqi və fiziki şəxslərin (kadastr mühəndislərinin) uyğunluğunun qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2016-cı il 6 may tarixli 185 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2022-ci il 29 noyabr tarixli 646-VIQD nömrəli, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 29 noyabr tarixli 647-VIQD nömrəli və "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 29 noyabr tarixli 648-VIQD nömrəli qanunlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 7 iyun tarixli 94 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 6, maddə 373, № 11, maddə 654; 2000, № 2, maddə 116; 2001, № 1, maddə 70, № 5, maddə 350; 2002, № 11, maddə 675; 2006, № 11, maddə 994; 2009, № 10, maddə 846; 2015, № 10, maddə 1223, № 11, maddə 1411; 2016, № 10, maddə 1708; 2017, № 4, maddə 657, № 5, maddə 965; 2018, № 3, maddə 629; 2020, № 10, maddə 1302; 2021, № 11, maddə 1284) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Dövlət torpaq kadastrının aparılması qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən torpaq-kadastrı işləri ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Torpaq-kadastr sənədlərinin aparılması Qaydaları"na aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən texniki kadastr və yerquruluşu sənədlərinin (kadastr xəritələri və plan-xəritə materialları) tərtibi və bu işlərə dair məlumatların və sənədlərin (arxiv arayışları, texniki sənədlərin təsdiq edilmiş surəti) verilməsi ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

1.3. həmin Qərarla təsdiq edilmiş "Torpaqların monitorinqinin aparılması qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

"10. Dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən torpaqların monitorinqi işləri ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

1.4. həmin Qərarla təsdiq edilmiş "Yerquruluşu işlərinin aparılması qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8-ci hissə əlavə edilsin:

"8. Dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən yerquruluşu işləri ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 682; 2002, № 3, maddə 145; 2003, № 6, maddə 342; 2005, № 8, maddə 782; 2006, № 10, maddə 903; 2008, № 2, maddə 106; 2010, № 3, maddə 264, № 12, maddə 1123; 2014, № 10, maddə 1315; 2016, № 9, maddə 1585; 2017, № 12 (II kitab), maddə 2544; 2018, № 12 (II kitab), maddə 2735; 2019, № 1, maddə 169, № 3, maddə 555, № 5, maddə 967, № 6, maddə 1172, № 7, maddə 1338; 2020, № 2, maddə 202; 2022, № 8, maddə 1021, № 9, maddə 1085) ilə təsdiq edilmiş "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısı"nın 18-ci hissəsinin birinci abzasından "mənzil-kommunal təsərrüfatının inventarlaşdırma orqanlarına" sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869; 2007, № 1, maddə 45, № 3, maddə 312, № 10, maddə 1021; 2008, № 2, maddə 116; 2009, № 6, maddə 491, № 10, maddə 846, № 12, maddə 1061; 2010, № 3, maddə 264, № 4, maddə 359, № 7, maddə 702, № 12, maddə 1122; 2014, № 3, maddə 321, № 10, maddə 1322; 2015, № 4, maddə 474; 2016, № 2 (II kitab), maddə 366, № 3, maddə 610, № 5, maddə 951, № 8, maddə 1431, № 9, maddə 1555, № 11, maddə 1955; 2017, № 1, maddə 131, № 3, maddə 510, № 8, maddə 1617, № 12 (II kitab), maddə 2504; 2018, № 6, maddə 1377, № 7 (II kitab), maddə 1630, № 8, maddə 1809, № 11, maddə 2428, № 12 (II kitab), maddələr 2735, 2738; 2019, № 1, maddə 157, № 9, maddə 1564; 2021, № 1, maddə 85, № 4, maddə 417, № 9, maddələr 1049, 1054; 2022, № 4, maddələr 375, 408; 2023, № 6, maddə 871) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 6-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

"6. Torpaq sahələrinin döngə nöqtələrinin koordinatlarının müəyyən edilməsi və torpaq sahəsinin planı və ölçüsünün hazırlanması ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən göstərilən xidmətlər, daşınmaz əmlakın ilkin və təkrar texniki inventarlaşdırılması, daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi, daşınmaz əmlakın hüquq sahibi, təsviri və ünvanı barədə dövlət reyestrindən məlumatların verilməsi, sxematik ünvan planlarının tərtibi, hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu və verilməsi ilə bağlı mobil xidmətlərin göstərilməsi, torpaq kadastr məlumatları və çöl-ölçmə işlərinin nəticələri əsasında torpaq sahəsinə dair mütəxəssis rəyinin verilməsi ilə bağlı göstərilən xidmətlər, dövlət sifarişi əsasında aparılan işlər istisna olmaqla, dövlət qurumlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sifarişi ilə həyata keçirilən torpaq-kadastrı, torpaqların monitorinqi və yerquruluşu işləri, texniki kadastr və yerquruluşu sənədlərinin (kadastr xəritələri və plan-xəritə materialları) tərtibi və bu işlərə dair məlumatların və sənədlərin (arxiv arayışları, texniki sənədlərin təsdiq edilmiş surəti) verilməsi, həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən mərzçəkmə işlərini həyata keçirən özəl hüquqi və fiziki şəxslərin uyğunluğunun təsdiq edilməsi ilə bağlı göstərilən xidmətlər.".

**4.** "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nın və "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233; 2016, № 8, maddə 1434, № 10, maddə 1718; 2017, № 2, maddə 317, № 5, maddə 993, № 10, maddə 1927, № 12 (II kitab), maddələr 2485, 2540; 2018, № 4, maddə 790, № 8, maddə 1803, № 10, maddə 2167; 2019, № 3, maddələr 555, 566, № 5, maddə 967, № 7, maddə 1325; 2021, № 3, maddə 296, № 12, maddə 1510; 2023, № 6, maddələr 857, 864) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları" üzrə:

4.1.1. aşağıdakı məzmunda 1.5-ci bənd əlavə edilsin:

"1.5. Daşınmaz əmlakın ilkin və təkrar texniki inventarlaşdırılması, daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi ilə bağlı göstərilən xidmətlərə və hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu və verilməsi ilə bağlı mobil xidmətlərin göstərilməsinə görə, torpaq sahələrinin döngə nöqtələrinin koordinatlarının müəyyən edilməsi və torpaq sahəsinin planı və ölçüsünün hazırlanması ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

4.1.2. 2-1.6-cı bənddə "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin göstərdiyi xidmətlərə görə xidmət haqlarının" sözləri "daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsi və başqasına keçməsi ilə bağlı daşınmaz əmlak barədə məlumatların yoxlanılması və dövlət reyestrinə daxil edilməsi xidmətlərinə görə bu Qaydaların 1.5-ci bəndində nəzərdə tutulan xidmət haqlarının" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"a aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Daşınmaz əmlakın təsviri barədə dövlət reyestrindən məlumatların verilməsi ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.".

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 may tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 945; 2018, № 8, maddə 1817; 2021, № 5, maddə 524) ilə təsdiq edilmiş "Mərzçəkmə işlərini həyata keçirən özəl hüquqi və fiziki şəxslərin (kadastr mühəndislərinin) uyğunluğunun qiymətləndirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1-ci bənddən "və Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 516 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi haqqında Əsasnamə"nin 3.0.90-cı yarımbəndinə" sözləri çıxarılsın və həmin bəndə "mərzçəkmə işlərini" sözlərindən əvvəl "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti (bundan sonra - Xidmət) tərəfindən" sözləri əlavə edilsin;

5.2. 1.2-ci bənd ləğv edilsin;

5.3. 4.1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xidmət tərəfindən mərzçəkmə işlərini həyata keçirən özəl hüquqi və fiziki şəxslərin uyğunluğunun təsdiq edilməsi ilə bağlı göstərilən xidmətlərə görə Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə xidmət haqları ödənilir.";

5.4. 7.2-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

5.5. Qaydalara 1-3 nömrəli əlavələrin adlarında və cədvəllərində ismin müvafiq hallarında "Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidməti" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# 2024-cü ilin dövlət büdcəsi layihəsi birinci oxunuşdan keçib

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə keçirilən Milli Məclisin payız sessiyasının plenar iclasında 2024-cü ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan sənədlər müzakirə edilib.**



Parlamentin sədri gündəliyə 14 məsələ çıxarıldığını, onlardan 12-nin büdcə zərfinə daxil edilən qanun layihələrinin olduğu bildirilib. S.Qafarova 2024-cü ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlərin parlament komitələrinin iclaslarında geniş müzakirə olunduğunu və Milli Məclisin plenar iclasına tövsiyə edildiyini diqqətə çatdırıb. Hesablama Palatasının da büdcə zərfi barəsində müsbət rəyi olduğu diqqətə çatdırılıb.

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi"ni birinci oxunuşda təqdim etdi. Komitə sədri bildirib ki, 2024-cü il üçün dövlət və icmal büdcəsinin layihəsi və sonrakı 3 il üçün dövlət və icmal büdcənin parametrləri, orta müddətli dövr üçün makro-iqtisadi proqnoz göstəriciləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada Milli Məclisə daxil olub.

T.Mirkişili, həmçinin cari ildə Azərbaycanda ÜDM-nin artım tempinin ilin sonuna qədər 1,9 faiz olması ilin əvvəlində baza ssenaridə təklif olunduğunu nəzərə çatdırıb. 2024-cü ildə ölkəmizdə artımın 2,4 faiz, neftin 1 barrelinin orta qiyməti büdcə layihəsində optimist ssenaridə 80 ABŞ dolları nəzərdə tutulub. Bu ilin sonuna inflyasiyanın ölkəmizdə 9,5 faiz, növbəti ildə 5,3 faiz olacağı planlaşdırılır.

Son 20 il ərzində ölkə iqtisadiyyatının 4 dəfədən çox, büdcə xərclərinin 30 dəfədən çox artdığını deyən T. Mirkişili onu bildirib ki, 2024-cü ilin büdcəsi əsasən 4 sütunu – real artım, məqbul inflyasiya, profisitli tədiyyə balansı, sabit məzənnə üzərində iqtisadi çərçivənin hazırlanmasını özündə ehtiva edir. Növbəti ildə ÜDM-in 2,4 faiz, qeyri-neft sektorunun 4,6 faiz artması nəzərdə tutulub. Təqdim edilmiş sənədlərdə 3 ssenari – baza, optimist və pessimist ssenarilər təklif olunur. Baza ssenaridə neftin 1 barrelinin qiymətinin 60 ABŞ dolları, optimist ssenaridə 80 ABŞ dolları, pessimist ssenaridə isə 40 ABŞ dolları ətrafında olacağı göstərilir. O qeyd edib ki, büdcə layihəsində növbəti ilin gəlirlərinin cari ilə nisbətən 282,5 milyon manat, xərclərinin isə 138,2 milyon manat artması planlaşdırılır. Büdcə layihəsində sosial xərclərin 1 milyard 34,5 milyon manat artması planlaşdırlır və bu da insanların maddi rifah halının daha da yaxşılaşdırılmasına xidmət edəcək.

Maliyyə naziri Samir Şərifov çıxışında bildirib ki, növbəti il və sonrakı 3 il üzrə qeyd olunan çağırışlar, daxili və xarici mühit faktorları nəzərə alınmaqla, 2024-cü ilin dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində təklif olunur. Bu, cari il üçün təsdiq olunmuş göstərici ilə müqayisədə 3 milyard 409 milyon manat, cari ilin yenidən baxılma ilə əhəmiyyətli dərəcədə artırılmış dövlət büdcəsi xərclərindən 3 milyard, nisbətdə isə 138 milyon manat çoxdur. Xərclərin 93 faizi və ya 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. O diqqətə çatdırıb ki, 2024-cü ilin gəlirləri 2023-cü il üçün təsdiq olunmuş gəlirlər proqnozu ilə müqayisədə 283 milyon və ya 0,8 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 493 milyon manat və ya 11,4 faiz çox olacaq.

Diqqətə çatdırılıb ki, 2024-cü ilin dövlət büdcəsi xərclərinin 51,2 faizi və ya 18 milyard 833 milyon manatı məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Dövlət büdcəsi xərclərinin prioritet istiqamətlərindən olan müdafiə və milli təhlükəsizlik xərclərinə 17,5 faiz və ya 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulub və bu 2023-cü illə müqayisədə 366 milyon manat və ya 6 faiz çoxdur.

Sonra iqtisadiyyat naziri Mikayıl Cabbarov, Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov və Hesablama Palatasının sədri Vüqar Gülməmmədov gələn ilin dövlət büdcəsi layihəsi haqqında fikirlərini bildiriblər.

Deputatların təkilf və rəylərindən sonra 2024-cü ilin dövlət büdcəsi layihəsi və gündəlikdəki digər məsələlər birinci oxunuşda qəbul edilib.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Milli Məclislə ATƏT PA arasında əməkdaşlıq müzakirə edilib

**Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Cənubi Qafqaz regionunda vəziyyət haqqında fikir mübadiləsi aparılıb. Sahibə Qafarova bu ilin sentyabr ayında Azərbaycan Ordusu tərəfindən həyata keçirilən antiterror tədbirləri barədə məlumat verib. O qeyd edib ki, antiterror tədbirləri beynəlxalq hüquq normalarına tam uyğun olaraq həyata keçirilib.

Sahibə Qafarova, həmçinin Qarabağın etnik erməni sakinlərinin reinteqrasiyası ilə bağlı Azərbaycan tərəfindən təklif olunan tədbirlər barədə də danışıb. O, həmçinin ölkəmizə qarşı müşahidə olunan ikili standartları sərt tənqid edib.

Görüşdə Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Cənubi Qafqazın təhlükəsiz və sabit gələcəyi üçün əsas maraqlı tərəfdir və Azərbaycan regionda sülh gündəliyinin irəliləyişinə sadiqdir.

Görüşdə ATƏT PA-nın Ermənistan və Azərbaycan nümayəndə heyətləri arasında etimadın qurulması baxımından mümkün rolu barədə də fikirlər səsləndirilib.

Tərəflər, həmçinin Azərbaycan Milli Məclisi ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq məsələləri haqqında da müzakirələr aparıblar.

**Ə.BƏDƏLOV**
**XQ**

# Ağdam məscidləri vandallıq izlərindən təmizlənir

## Qədim ibadətxanalarımız ən müasir üsullarla həyata qaytarılır

**Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilmiş Ağdam Cümə məscidi işğal dövründə erməni vandalizminə məruz qalan yüzlərlə tarixi-dini abidələrimizdən biridir. Məbədin minarələri daxildən qismən sökülmüş, məscidin tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınmışdı. İslam xüsusiyyətlərini əks etdirən nə varsa məhv edilmişdi. Eyni zamanda, işğal dövründə ermənilər məsciddə mal-qara, donuz saxlamış, ondan müşahidə məntəqəsi kimi istifadə etmişdi.**







Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində tarixi qələbə əldə edildikdən sonra işğaldan azad edilmiş torpaqlara ilk səfərini Ağdam Cümə məscidindən başladı, Məkkədən gətirdiyi "Qurani-Kərim"i məbədə bağışladı. Bu, ölkə başçısının dini abidələrə verdiyi önəmin bariz nümunəsi idi.

Hazırda Cümə məscidində Heydər Əliyev Fondunun dəstəyi ilə təmir-bərpa işləri həyata keçirilir və bu layihə yekunlaşmaq üzrədir. Bu barədə Ağdam rayonunda tikinti-bərpa işlərində fəal iştirak edən iş icraçısı Telman Ağayev dedi:





– Ağdam Cümə məscidi xüsusi daşlardan, binanın fasad hissələrinin künclərindən qalxan minarələri isə kərpicdən inşa edilib. Aparılan təmir-bərpa işlərində əsas məqsəd məscidi əvvəlki görkəminə, tarixi abidələr sırasına qaytarmaqdan ibarətdir. Burada hər bir daş belə yerində olmalıdır. Bu səbəbdən də məscidinin bərpa prosesinə həssaslıqla yanaşılır. Əvvəlcə məscidin örtük və sement birləşmələri tamamilə çıxarılıb.

Həyata keçirilən bütün işlər tarixi kərpiclərin zədələnməməsi üçün əl ilə həyata keçirilib. Bərpa prosesi zamanı üçün hazırlanıb. Bütün otaqlarda əhəng əsasında yeni, üçqatlı suvaq sistemi tətbiq edilir, son qatda ilk versiyaya uyğun mineral boya tətbiq olunur. İslama aid dini-mənəvi atributlar, divar rəsmləri, ornamentlər bərpa olunur. Məscidin qəzalı vəziyyətdə olan mehrabı da bütövlükdə tarixi görünüşə xələl gəlmədən əvvəlki vəziyyətinə qaytarılıb.

Bu məqamda maraqlı bir faktı da oxucuların diqqətinə çatdırmaq istəyirəm. Mehrab taxçasının üzərində binanın dekor tərtibçisi Məhəmməd Nəqqaş Təbrizinin adı və təmir olunduğu hicri təqvim ilə 1331-ci il (miladi 1913) həkk olunub. Ağdam Cümə məscidinin divar rəsmlərini isə Nəqqaş Məhəmməd Şükuhi işləyib.

Qeyd edim ki, məscid indiyədək bir çox tarixi hadisələrin, müsibətlərin, faciələrin şahididir. Ağdam şəhidlərinin kəfn-dəfn işləri bu məsciddə həyata keçirilib. Məscid həm də Xocalı faciəsinin dəhşətlərinin şahididir.

Telman Ağayev sonda bildirdi ki, təmir-bərpa işləri bu ilin sonu və ya gələn ilin əvvəlində başa çatacaq. Bir aydır ki, Qiyaslı məscidində də təmir-bərpa işlərinə başlamışıq. Layihə yüksək səviyyədə fasadlar təmizlənib, zədələnmiş və ya qırılmış kərpiclər bərpa edilib, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işlənilib. Qübbələr üzərində qırılan hörgü birləşmələri və gips örtükləri çıxarılıb. Sonra əvvəlki görkəmində bərpa edilib. Konservasiya zamanı çatışmayan, zəifləmiş və ya qeyri-sabit hörgü və tonoz konstruksiyaları yenilənib.

Oxşar işlər minarələrdə də tətbiq olunub. Hər iki minarənin yuxarı dəmir örtüyü (günbəzi) bərpa edilib. Onu da deyək ki, bu dəmir örtük köhnə örtüyün əsasında hazırlanıb. Köhnə günbəz isə məscidin həyətində saxlanılır. Minarənin bərpasında təbii boyalardan istifadə olunub. Artıq minarələr və məscidin fasadı hazırdır. Cümə məscidinin daxilində təmir-bərpa işləri davam edir. Namaz zalında əsas kərpicdən başqa, gips tamamilə çıxarılaraq bura sonrakı mərhələ icra olunur. Tezliklə buradan azan səsi eşidiləcək, namaz qılınacaq.

Əlavə edək ki, erməni vandallar kəndi tamamilə dağıdıblar, sağlam bir bina belə saxlamayıblar. Kənd sakini Musa Allahverdiyev bildirdi:

– 27 illik işğal dövründə kəndin yaşayış evləri, məktəb, uşaq bağçası, klub, kitabxana və tibb məntəqəsi talan edilib, yandırılıb. Düşmən kənd qəbiristanlığını da dağıdıb. Vətən müharibəsində Qiyaslı kəndi 63 şəhid verib. Onlardan biri də mənim qardaşım Rəsul Allahverdiyevdir. Şəhidlərimizin qəbirlərini ziyarət etdik, ətrafı ot və kol-kosdan təmizlədik, dualarımızı etdik. Eybi yoxdur, qoy hələlik evsiz-eşiksiz qalaq, amma öz torpağımızın üstündə gəzək. Yaxın illərdə evimiz də olacaq, kəndimizə qayıdacaq, onu yenidən dirçəldəcəyik. O gün yaxındır. Artıq bu işlərə məsciddən başlanılıb.

Musa Allahverdiyev məscid barədə bəzi maraqlı məlumatlar da verdi:

– Qiyaslı məscidi XVIII əsrə aiddir və kəndin imkanlı şəxsləri tərəfindən inşa edilib. Vaxtilə məbəddə iki minarə olub. Uzun illər ibadət ocağı kimi istifadə edilib. Sovet dövründə isə vəziyyət dəyişib. Ondan başqa məqsədlər üçün istifadə edilib. 1929–1932-ci illərdə ibadət evi kolxozun inzibati binası olub. 1960–1970-ci illərdə bura kənd mağazası, 1985–1989-cu illərdə isə "Yaşıl aptek" kimi fəaliyyət göstərib. Nəhayət, 1989-cu ildə məscidin fəaliyyəti yenidən bərpa edilib. Həmin dönəmdə məscid kənd sakinləri tərəfindən təmir olunub. Bir neçə gün ərzində isə ora 18 ədəd qədim xalça bağışlanıb.

Məscid 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən qarət olunaraq tamamilə dağıdılıb. Buradan inək və donuz tövləsi kimi istifadə olunub. İkinci Qarabağ müharibəsindən sonra isə işğalçılar rayonu tərk edərkən məscidi yandırıblar. İnanıram ki, məscidin öz tarixi görünüşü bərpa olunacaq.

**Pünhan ƏFƏNDİYEV**
**XQ**

**Ağdam**

# Sankt-Peterburqda Şuşanın mədəniyyət kodunun təqdimatı

**Sankt-Peterburqda "Mədəniyyət kodu Şuşa" lonqridinin təqdimatı keçirilib. 2023-cü ildə Türk dünyasının mədəni paytaxtı seçilən Şuşanın Rusiyanın mədəni paytaxtı Sankt-Peterburqda təqdimatı Şuşanın mədəni-mənəvi məzmun və əhəmiyyətinin Rusiya ictimaiyyətinə çatdırılması baxımından zəruridir.**



Lonqridin 21 mövzusu 7 bloka bölünüb. Saytın üz qabığındakı xarıbülbülün hər ləçəyi açılaraq oxucunu yeni mövzulara yönləndirir və hər mövzuya məxsus musiqi səsləndirilir.

Bu platformada internetdə ilk dəfə olaraq işğaldan azad olunmuş ərazilərdə yerləşən Alban kilsələrinin interaktiv xəritəsi, Şuşa məhəllələri xəritəsi, şuşalı musiqiçilərin 10 qızıl şəcərəsi infoqrafikası təqdim olunur.

Xatırladaq ki, təqdimat Əlimərdan bəy Topçubaşov adına "Rus–Azərbaycan mədəni-humanitar mərkəzi" tərəfindən təşkil edilib.

**XQ**

# Azərbaycan alimləri Səmərqənddə



**Qədim Səmərqənd şəhərində Özbəkistanın mədəni irsinin öyrənilməsi, qorunması və populyarlaşdırılması üzrə Ümumdünya Cəmiyyətinin (ÜC) "Özbəkistanın mədəni irsi-yeni Renessansın təməli" adlı VII beynəlxalq konqresi keçirilib.**

Tədbirdə dünyanın 40 ölkəsindən gələn 300-dən çox ekspert, habelə beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Konqresin açılışında ÜC idarə heyətinin sədri Firdavs Abduxalikov, Astanadakı Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev, TÜRKSOY-un Baş katibi Sultan Rayev, ABŞ-dakı Mərkəzi Asiya və Qafqaz İnstitutunun sədri Frederik Starr və başqaları çıxış ediblər.

Şahin Mustafayev öz çıxışında qeyd edib ki, Mərkəzi Asiya mədəni-tarixi fenomeni əsrlərlə və minilliklərlə bu regionda yaşayan bütün türk xalqlarının mənəvi və maddi mədəniyyətinin formalaşması və inkişafına böyük təsir göstərib.

Konqresdə, həmçinin Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, dosent Əzizağa Nəcəfov və Əlyazmaların elektron resursları şöbəsinin müdiri, dosent Aynur Nəcəfova "Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda Əlişir Nəvainin əlyazmaları", Bakı Dövlət Universitetinin professoru Vaqif Sultanlı "Sadıq bəy Əfşarın "Məcməül-xəvas" təzkirəsi (Əlişir Nəvainin "Məcalisün –nəvais" əsəri ilə qarşılaşdırma), Azərbaycan Milli Tarix Muzeyinin əməkdaşı Məhfuzə Zeynalova "Tarix muzeyində qorunan özbək kolleksiyası haqqında", Azərbaycan Dövlət İncəsənət Muzeyi direktorunun müavini Xədicə Əsədova "İncəsənət Muzeyinin özbək incəsənəti vasitəsi ilə zənginləşməsi" mövzularında çıxış ediblər.

Yığıncaqlar zamanı "Ümumdünya cəmiyyətinin layihələrində Şərqin nadir əlyazma irsi", "Özbəkistanın arxeoloji və memarlıq abidələri: onların öyrənilməsi və qorunması məsələsi", "Kino və müasir dünya: irsə yeni baxış" və s. mövzularda müzakirələr aparılıb.

Tədbirdə Özbəkistan, Türkiyə, Azərbaycan, Hindistan, Qazaxıstan, Qırğızıstan, Tatarıstanın mədəni irsi kolleksiyalarına həsr olunan "Mədəni irs dünya mənbələrində" seriyasından olan albomların yeni nüsxələrinin təqdimatı da keçirilib.

Konqres çərçivəsində bir sıra alimə, o cümlədən Şahin Mustafayevə ÜC mükafatı təqdim olunub.

# Daşkənddə Firudin Səfərovun 90 illik yubileyi qeyd olunub



**Daşkənddə Azərbaycanın və Özbəkistanın Xalq artisti, Dövlət mükafatı laureatı, Əlişir Nəvai adına Özbəkistan Dövlət Opera və Balet Teatrının baş rejissoru, professor Firudin Səfərovun 90 illik yubileyi keçirilib.**

Opera və Balet Teatrında baş tutan yubiley tədbirində Özbəkistanın dövlət və hökumət nümayəndələri, elm, mədəniyyət, incəsənət xadimləri, Daşkənddəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin (AMM) əməkdaşları, diasporumuzun üzvləri iştirak ediblər.

Rejissoru 90 illik yubileyi münasibətilə təbrik edən AMM-nin direktoru Samir Abbasov bildirib ki, Firudin Səfərov 45 ildən çoxdur ki, tanınmış opera rejissoru kimi öz parlaq istedadı ilə Azərbaycan və özbək xalqlarının mədəniyyətlərinin inkişafına xidmət edir. O vurğulayıb ki, tanınmış rejissor öz fədakar əməyi ilə xalqlarımız arasında sarsılmaz körpü yaradıb. S.Abbasov Firudin Səfərovun dünya azərbaycanlılarının Bakıda keçirilmiş qurultaylarının iştirakçısı olduğunu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldüyünü söyləyib.

S.Abbasov Azərbaycan dövlətinin Firudin Səfərovun yaradıcılığını yüksək qiymətləndirdiyini qeyd edərək onun Azərbaycan səhnəsində çoxsaylı tamaşalara quruluş verdiyini bildirib. O deyib ki, Özbəkistana gəlməzdən əvvəl F.Səfərov 14 il Azərbaycan Dövlət Opera və Balet Teatrının baş rejissoru işləyib. Bakı teatrında dahi Üzeyir Hacıbəylinin "Koroğlu", "Leyli və Məcnun", Vasif Adıgözəlovun "Natəvan" və digər operalarını səhnələşdirib. Sonra o, Firudin Səfərova yubileyi ilə bağlı Mədəniyyət Mərkəzinin xatirə hədiyyələrini təqdim edib.

Özbəkistanın mədəniyyət nazirinin birinci müavini Avazxon Tadjixanov deyib ki, bu axşam sadəcə yubiley deyil, Özbəkistan və Azərbaycan xalqlarıının dostluğunun əlamətdar hadisəsidir və Firudin Səfərov öz çoxillik fəaliyyəti ilə iki dövlətin mədəniyyətlərini birləşdirir. Sonra nazir müavini Firudin Səfərova Özbəkistan Mədəniyyət Nazirliyinin "İncəsənətə verdiyi töhfəyə görə" medalını təqdim edib.

Teatrın direktoru, Özbəkistanın xalq artisti Ramiz Usmanov Firudin Səfərovun həyat və yaradıcılığı haqqında danışaraq Daşkənd teatrında ölməz əsərlər yaratdığını qeyd edib.

O deyib ki, Firudin Səfərov 45 ildən çoxdur ki, bu teatrda çalışır və ötən müddətdə 70-dən çox müasir və klassik operaya quruluş verib.

Tədbirin bədii hissəsində Firudin Səfərovun quruluş verdiyi tamaşalardan səhnələr göstərilib və alqışlarla qarşılanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

“Xalq” TV-nin qonaqları

# Vətən sevgisinin dağlar aşan gücü

**Vətənə sipər olan oğullar 44 gün zaman və tarix qarşısında müqəddəs bir yola çıxdılar. Bu səfər çox ağır idi – olum, ya ölüm ünvanlı idi. Bütün Azərbaycan bu yolda müsəlləh əsgər oldu. Redaksiyamızın qonağı Xocavəndin, Cəbrayılın, Kəlbəcərin işğalçılardan azad olunmasında rəşadətlə döyüşmüş Vətən müharibəsinin iştirakçısı və qazisi Kamran Babayevdir. Kamran hazırda Hərbi Qənimətlər Parkında işləyir.**



**– Kamran, döyüşə ilk olaraq hansı istiqamətdən başladınız?**

– 27 sentyabr 2020-ci il! Bu tarixi gün bütün Azərbaycan Ali Baş Komandanımızın çağırışına səs verərək ayağa qalxdı. Hərb meydanımız da, arxa cəbhəmiz də müqəddəs savaşa çıxdı. Döyüş meydanında da, arxa cəbhədə də xalqımız bir idi. Belə bir ruhla döyüşə başladıq. İlk olaraq, Murovdağ silsiləsində Koroğlu istiqamətində döyüşə atıldıq. Murovdağ silsiləsindən 200-300 metr yüksəklikdə savaş başladı. Bilirdik ki, öz torpaqlarımızda döyüşürük, 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımızı xilas etməliyik.

Ağır döyüşlər idi. İlk şəhidimiz Orxan Daşdəmirov oldu. Onun adını xüsusi çəkmək istəyirəm. Qərargah rəisi, kapitan Abdullayev Rəşad ağır yaralansa da, son nəfəsinə qədər bizi tərk etmədi. İlk qələbəni qazandıq, düşmən postunu darmadağın edib, qələbə bayrağını sancdıq. Qələbənin şirinliyini daddıq.

Yaralılarımız, şəhidimiz olmasına baxmayaraq, ruhumuz güclü idi. Bir faktı deyim ki, komandirimiz kapitan Rəşad Abdullayevi yaralı halda özümüzlə daşıyırdıq, o qəti şəkildə bizdən ayrılmadı. Komandir kimi biz ondan çox şey öyrəndik. O, çoxlu qan itirmişdi, Rəşidin vətən, torpaq sevgisi o qədər tükənməz idi ki, ölümü belə düşünmədi.

Komandirimiz yaralı vəziyyətdə belə hansı istiqamətdə irəliləməmizi göstərirdi. Rəşad 19 saata yaxın yaralı qaldı və o 19 saatı bizə döyüşə rəhbərlik etdi. Döyüşün də taleyini bu 19 saatda həll etdi, iti zəkası, hərbi qabiliyyəti ilə! Rəşad kimi komandirləri olan Ordumuz inamla irəliləyirdi. Bizim gücümüz ona görə də getdikcə güclənirdi. Orxanların, Rəşadların intiqamını alırdıq. 30 ilə yaxın mənfur düşmənin əlində inləyən ana torpaq şəhidlərimizin qanına boyanmışdı.

Bəlkə də illər keçəcək, amma mən gözümlə gördüklərimi həyatımın sonuna kimi kino lenti kimi əbədi olaraq yaddaşımda, ürəyimdə yaşayacağam.

**– Döyüşlərinizin ən ağır, çətin anlarından danışmağınızı xahiş edirəm.**

– Sonranı danışmaq çox çətindir, amma qürurvericidir. Günlərlə susuz, yuxusuz qalmışdıq, növbəti döyüşlərin birində, düşmən minomyotundan açılan güllə ilə kəllə-beyin zədələnməsi aldım və Şəmkir xəstəxanasına təxliyə oldum. Bakıya hərbi hospitala göndərmək istəsələr də, mən bundan imtina edib, döyüş yoldaşlarımın yanına qayıtmağı qəti olaraq bildirdim. Cəbrayılın azad olunması istiqamətində döyüşə yenidən qatıldım.

Bir mühüm hadisəni danışmaq istəyirəm. Kəlbəcər istiqamətindəki döyüşlərdən sonra, Hadruda girmək üçün əmr almışdıq, günlərlə ac-susuz qalmışdıq, hava şəraiti o qədər çətin idi ki, hamımızın paltarı yağış nəticəsində suyun içində idi. Şəxsi heyət son dərəcə yorğun vəziyyətdə. Belə çətin anlarda özümüzü itirmirdik. Bizi güclü edən ruhumuz idi. Hadrut uğrunda döyüşlər gedirdi. Hadrut yüksəkliyini ələ keçirəndə, hisslərimi sözlə ifadə edə bilmirəm. İlahi bu qədər gücü hardan vermişdi?! Şəxsi heyətimiz Hadrutda yaşayan erməni işğalçılarının necə məğlub olmasını gördü. Orada Xocalıda şəhid olan ana-bacılarımızın, qardaşlarımızın qisasını aldıq. Düşmənin darmadağın olunması bütün yorğunluğumuzu unutdurdu.

Qələbənin dadı qədər güclü, əvəzsiz hiss varmı, görəsən Yer üzündə?! Hadrutda bir mülki erməni əhalisinə toxunmadıq, onlara göstərdik ki, biz onlar kimi ədalətsiz, qaniçən deyilik. Biz ancaq işğalçı qüvvələrlə döyüşürdük. Onları da artıq məhv etmişdik. Hadrutda ilk yediyim nar olub. Biz az toxtayıb, tapşırıqları icra etməyə başladıq. Hadrutun əsrarəngiz gözəlliyinə baxdıqca, deyirdik ki, görün bizim torpaqlarımıza kimlər sahib çıxmışdı?!

Düşmən qələbəmizi həzm elə bilməsə də, biz doğma torpaqlarımızı canımız bahasına azad edirdik. Oktyabrın 16-da yenidən ağır yaralandım. İki ayağıma snayper gülləsi dəydi. Məni axşama yaxın təxliyyə edəndə elə zənn etmişdim ki, əsir düşmüşəm. Çünki çoxlu qan itirmişdim. Sonradan məlum oldu ki, məni döyüş meydanından çıxaran komandirim və döyüş yoldaşım olub. Horadiz qəsəbəsinə təxliyyə olunmuşam.

**– Hərbi Qənimətlər Parkında işləyirsiniz. Bu düşmən sursatlarına baxanda, hansı hissləri keçirirsiniz?**

– Burada işləmək həm çətindir, həm də qürurvericidir. Buradakı qənimətlər şəhidlərimizin qanı bahasına qazanılıb. Bir tərəfdən də qürur keçirirəm ki, düşmənin texnikası Bakının mərkəzindədir. Bütün dünya görür ki, Azərbaycan Ordusu məğlubedilməzdir! Çox xoşbəxtəm ki, Zəfərimizi gördüm, ən əsası, Vətən müharibəsində iştirak etdim, Vətənə övlad borcumu verdim.

**– Biz sizin kimi qəhrəmanlarla öyünürük. Var olasınız!**

– Bəli, Xankəndi, Xocavənd, Xocalı, Ağdərə - torpaqlarımız azad nəfəs alır. Torpaq, Vətən həsrətinə son qoyuldu. Azərbaycan adına döyüşdük, qələbə çaldıq. Bizə qələbə yaraşır, bu sonsuz sevinci xalqımıza bəxş edən şəhidlərimizin qarşısında baş əyirik!

**Söhbəti apardı:**
**Kəmalə ABDİNOVA**

# Qarakilsə şəhidlərinin xatirəsi anılıb



**Ata-babaları, ana-nənələri ötən əsrin 90-cı illərində erməni zülmündən baş götürüb əzəli yurd-yuvalarından didərgin düşdülər. Qışın qar-çovğununda Salvatı dağından, Laçın dolaylarından aşıb Azərbaycana pənah gətirdilər. Bir əsrdə neçənci dəfə qaçqınlıq həyatı yaşadılar. Haqdan, ədalətdən əllərini üzmədilər, sabaha ümidlə boylandılar, qundaqda gətirdikləri körpələri isə müqəddəs duyğularla–Vətənə, millətə sonsuz sevgilərlə böyütdülər, Qarabağ–torpaq, yurd uğrunda can fəda etməyin müqəddəsliyini anlatdılar: “Həqiqət yolunda, xalq yolunda, əqidə, əməl, məslək yolunda, Vətən uğurunda qurban gedənlər–şəhid olanlar nura-işığa, küləyə-fırtınaya, qara-yağışa dönüb ölməzliyə qovuşurlar!”**

…Birinci və İkinci Qarabağ savaşlarında Qərbi Azərbaycanın Qarakilsə (Sisian) rayonundan 65 gənc döyüşə atılanda qorxmadı, ölümün gözünə dik baxdı, bununla da nə qədər mərd, qeyrətli olduğunu sübut etdi. Onların bu cəsarəti, bu fədakarlığı erməni qəsbkarlarının savaş meydanından qaçmalarına, fərariyə çevrilmələrinə səbəb oldu.

İndi belə oğulların uyuduqları məzarların önündən ötən ziyarətçilər qeybdən gələn kəlmələri eşidirlər: “…Şəhid qəbirlərinin yanından gözüyaşlı keçməyin, qəhərinizi boğun, onlara böyük ehtiramla salam verin, az sonra ürəyinizin döyüntüsündə onların səslərini açıq-aydın eşidəcək, sözlərindən diksinəcəksiniz–biz ölməmişik, biz “qisas qiyamətə qalmaz” andına tapınıb əzəli-əbədi torpağımızı yağı tapdağından xilas etmişik, gözümüzün nurunu, işığını Yerə-Göyə verib, Günəşə tapşırıb, əbədiyyət yolçusuna çevrilmişik, əbədiyyət orbitində qeybə çəkilmişik”.

**

…Sumqayıtın Şəhidlər xiyabanında uyuyan gənclərin–Qarabağın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə şəhidlik zirvəsinə yüksələn həmvətənlərimizin ziyarətinə gələn qarakilsəlilər – şəhid valideynləri, onların doğmaları, ictimaiyyət nümayəndələri əvvəlcə Şəhidlər xiyabanında ucaldılmış Qalib Əsgər abidəsini, burada dəfn olunmuş şəhidlərin məzarını ziyarət etdilər, abidə və şəhid məzarları önünə gül dəstələri qoydular, qəhrəman Vətən oğullarının xatirəsini ehtiramla andılar.

Qərbi Azərbaycan İcmasında Böyük Qarakilsə rayon icmasının sədri Nadir Qəhrəmanov müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi qələbədən, eləcə də digər uğurlu döyüş əməliyyatlarında igid oğullarımızın göstərdikləri misilsiz şücaətlərindən söhbət açdı.

Pedaqoq-şair Əvəz Mahmud Lələdağ tarix boyu xalqımızın başına gətirilən müsibətlərdən, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 2020-ci il sentyabrın 27-də əks-hücum əməliyyatına başlayaraq, 44 gün ərzində təcavüzkar Ermənistanı təslim olmağa məcbur etməsinin xalqımızın şanlı tarixində xüsusi yer tutduğunu diqqətə çatdırdı. El ağsaqqalı daha sonra işğaldan azad edilən ərazilərdə dövlətimizin başçısının rəhbərliyi ilə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını, doğma yurd yerlərimizə Böyük Qayıdışın başlandığını vurğuladı.

Mərasimidə çıxış edən ictimaiyyət nümayəndələri: Tahir Quliyev, Mahmud Yaqubov, Aqif Baxşəliyev, Zahid Rəhimov və Umud Rəhimoğlu üzərinə axan şəhid qanı ilə müqəddəsləşən Qarabağ torpağına bu gün həyatın yenidən qayıtdığını, xalqımızın sülh, əmin-amanlıq, dinclik şəraitində yaşamaq və bölgənin hərtərəfli inkişafına nail olmaq əzmi nümayiş etdirdiyini bildirdilər. Onlar belə bir ab-havada Azərbaycana Zəfər sevinci, qalibiyyət qüruru bəxş edən şəhidlərimizin ruhunun dinclik tapdığını söylədilər.

Çıxış edənlər, eyni zamanda, Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və Ordumuzun döyüş əzmi ilə xalqımızın düşmən üzərində şanlı Qələbə qazanması, Azərbaycanın haqq savaşında sinəsini qabağa verən, torpaqlarımızı işğaldan azad edən Vətən oğullarının göstərdikləri qəhrəmanlıqları ilə xalqımızın döyüş əzmini bir daha bütün dünyaya tanıtdırdıqlarını, onların qanının yerdə qalmadığını, düşməndən qisas alındığını da qeyd etdilər.

Şəhid ailələrinin üzvləri adından çıxış edən Məmləkət Zülfüyeva Vətən savaşında qazanılan Zəfərə görə canlarını müqəddəs torpaq uğrunda fəda edən gənclərimizə, şanlı Ordumuza minnətdar olduqlarını, “Dəmir yumruq” sayəsində əzəli-əbədi torpaqlarımıza yenidən qayıdışın gerçəkləşdiyini, onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirdi.

***Vaqif BAYRAMOV***
***XQ***

# Gimnastlarımızın dünya çempionatında tarixi uğuru

**Bütün sahələrdə böyük nailiyyətlərin əldə edildiyi 2023-cü ildə idman tariximizə də parlaq səhifələr yazılmaqdadır. Ölkəmizin adına növbəti uğuru Azərbaycan gimnastları qazandırıblar.**

Böyük Britaniyada yerləşən Utilita Arenada batut gimnastikası və tamblinq üzrə keçirilmiş 37-ci dünya çempionatında Azərbaycan gimnastikasında 2 tarixi uğur əldə edilib. Tamblinq üzrə kişilərdən ibarət Azərbaycan yığması dünya çempionatında komanda hesabında qızıl medal qazanmaqla, ona bəslənilən ümidi ən yüksək səviyyədə doğrultdu. Heyətində Mixail Malkin, Tofiq Əliyev, Adil Hacızadə və Elnur Məmmədovun yer aldığı millimiz gimnastika tariximizdə ilk dəfə bu nüfuzlu yarışın qalibi adına sahib olub.



Təsnifat mərhələsini 168.700 xalla birinci pillədə başa vuran təmsilçilərimiz həlledici mərhələdə ev sahibi Böyük Britaniya, həmçinin Danimarka, ABŞ və Portuqaliyanın tamblinq ustalarından üstün olduğunu nümayiş etdirərək 13 xalla birinci yeri tutub.

Yığma üzvü, komandamızın lideri Mixail Malkin daha bir tarixi uğura nail olub. 2021-ci ildə Bakıda keçirilən dünya çempionatının gümüş mükafatçısı olan təcrübəli gimnastımız finalda hakimlərdən ən yüksək – 31.100 xal almaqla Azərbaycan gimnastikası tarixində tamblinq üzrə dünya çempionu titulunu qazanıb.

Komandamızın digər üzvlərinin çıxışlarını da qənaətbəxş hesab etmək olar. Belə ki, yığma üzvü Tofiq Əliyev medala çox yaxın olsa da, finalda 24.700 xalla dördüncü pilləni tutub. Fərdi təsnifatda yarımfinala yüksələn Adil Hacızadə bu mərhələdə 5-ci yeri tutsa da, dünya çempionatında hər ölkədən iki idmançı finalda mübarizə aparmaq imkanı qazandığı üçün o, həlledici mərhələdə iştirak edə bilməyib. Dünya çempionatında debüt edən Tofiq Əliyev və Adil Hacızadənin çıxışlarını da kifayət qədər uğurlu hesab etmək olar.

Qeyd edək ki, Azərbaycan yığma komandasının üzvləri Nicat Mirzəyev, Hüseyn Abbasov, Əli Niftəliyev, Mehdi Əliyev, İbrahim Mustafazadə, Ammar Baxşaliyev, Ömər Qasımlı, Fərhad Mustafayev, Samirə Hüseynova, Ayan Şabanova, (batut gimnastikası) Aleksey Karataşov, Bilal Qurbanov, Hüseyn Əsədullayev (tamblinq) 16-19 noyabr tarixlərində Birminqemdə keçiriləcək batut gimnastikası və tamblinq üzrə 30-cu dünya yaş qrupları yarışlarında qüvvələrini sınayacaqlar. Onu da vurğulayaq ki, eyni tarixlərdə və həmin şəhərdə batut gimnastikası və tamblinq üzrə gənclər arasında 1-ci dünya çempionatı təşkil olunacaq. Bu yarışda ölkəmizi Azərbaycan yığma komandasının üzvləri Nicat Mirzəyev, Hüseyn Abbasov, Əli Niftəliyev, Mehdi Əliyev, İbrahim Mustafazadə, Ammar Baxşaliyev, Samirə Hüseynova, Ayan Şabanova, (batut gimnastikası) və Aleksey Karataşov (tamblinq) təmsil edəcəklər.

***L.AZAD***
***XQ***

# Şimali Kiprin bayramı Bakıda qeyd olunub

**Noyabrın 13-də Bakıda Şimali Kipr Türk Respublikasının müstəqilliyinin 40-cı ildönümü münasibətilə tədbir keçirilib.**

ŞKTR-nin Bakıdakı nümayəndəliyinin rəhbəri xanım Ufuk Turganer böyük türk millətinin bir parçası olan Şimali Kiprin müstəqilliyinin qardaş və dost Azərbaycanda qeyd edilməsinin qürurverici olduğunu vurğulayıb. O, ölkəsinin Türkiyənin dəstəyi ilə daha da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Türkiyənin hər zaman Azərbaycanın və Şimali Kiprin yanında olduğunu qeyd edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, bizim Şimali Kiprlə zəngin əlaqələrimiz vardır. Bu ölkədə təhsil alan tələbələrimizin sayı kifayət qədərdir. Siyasi əlaqələrimiz də getdikcə inkişaf edir.

"Azərbaycan Şimali Kipri dəstəkləyir. Ölkənin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində üzv seçilməsi tarixi hadisədir və hər birimizi qürurlandırır", – deyə Səməd Seyidov bildirib.

Tədbir daha sonra konsert proqramı ilə davam edib.

**XQ**

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi
**BAKI SLAVYAN UNİVERSİTETİ**
Aşağıdakı fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün
MÜSABİQƏ ELAN EDİR

1. Qərbi Avropa dilləri fakültəsi üzrə - 1 yer
2. Şərqi Avropa dilləri fakültəsi üzrə - 1 yer
3. Sosial elmlər fakültəsi üzrə - 1 yer

Qeyd - müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız aşağıdakı 4,5 və 6-cı bəndlərdə qeyd olunan sənədləri təqdim etməlidirlər):

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Tərcümeyi-hal.
4. Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
5. Elmi və elmi metodiki işlərin siyahısı.
6. Kafedra müdiri və fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Telefon- 599-08-70,daxili nömrə 208.
Ünvan- AZ 1014.Bakı, S.Rüstəm küçəsi 33.

“Yevlax Nəqliyyat” ASC səhmdarlarının nəzərinə!

29 dekabr 2023-cü il saat 11.00-da “Yevlax Nəqliyyat” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. ASC-nin idarəetmə orqanlarının 2022-ci ilə aid maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.
2. İllik hesabatların təsdiq edilməsi.
3 Təşkilati məsələ: ASC-nin idarəetmə orqanlarının seçilməsi.
4. Yaranmış maddi çətinliklərlə əlaqədar ASC-nin ləğv edilməsi barədə.

Ümumi yığıncağın gündəliyinə aid materiallarla tanışlıq üçün iş günləri ASC-nin rəhbərliyinə müraciət etmək olar.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Nəzərinizə çatdırırıq ki, ASC uzun müddət fəaliyyət göstərməmiş və hazırda da fəaliyyət göstərmir. Bu barədə keçmiş Azərbaycan Respublikası Vergilər Nazirliyinin 11 saylı Ərazi Vergilər İdarəsindən müvafiq rəsmi sənəd vardır.

Əlaqə telefonu – (055) 212- 90-00.

Ünvan – Yevlax rayonu, Aran qəsəbəsi, ASC-nin inzibati binası.

***“Yevlax Nəqliyyat”***
***ASC-nin idarə heyəti***

MİDA

## Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Hövsan Yaşayış Kompleksinin birinci mərhələsində, Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsində, Gəncə Yaşayış Kompleksində və Sumqayıt layihəsində mənzillərin güzəştlə satışı barədə

## ELAN

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Zığ şossesi-Hava Limanı 12-ci kilometrin 22 nömrəli ünvanında yerləşən Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə 18 mənzilin, Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Hava Limanı-Zığ şossesi 8-ci kilometr, 10L nömrəli ünvanda yerləşən Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə 379 mənzilin, Gəncə şəhəri, Azərbaycan Bayrağı küçəsində yerləşən Gəncə Yaşayış Kompleksi üzrə 34 mənzilin, Sumqayıt şəhəri, 41-ci məhəllə, Zəminə Həsənova küçəsində yerləşən Sumqayıt layihəsi üzrə 1 mənzilin, ümumilikdə 432 mənzilin satışı 16 dekabr 2023-cü il saat 11.00-da başlayacaq və 23 dekabr 2023-cü il saat 11.00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun **gözləmə qaydasında mənzillərin seçimi** 19 dekabr 2023-cü il saat 11.00-da başlayacaq və 23 dekabr 2023-cü il saat 11.00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdirlər. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqa malikdirlər.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az internet saytının ana səhifəsində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

### Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə 18, Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə 379, Gəncə Yaşayış Kompleksi üzrə 34, Sumqayıt layihəsi üzrə 1 mənzil olmaqla, ümumilikdə 432 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin:

Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə - 28 fevral 2018-ci il tarixli 24956 və 8 may 2018-ci il tarixli 25318;

Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə - 30 sentyabr 2020-ci il tarixli 30175, 20 oktyabr 2020-ci il tarixli 30325, 2 noyabr 2020-ci il tarixli 30383;

Gəncə Yaşayış Kompleksi üzrə - 13 may 2020-ci il tarixli 29272;

Sumqayıt layihəsi üzrə - 4 iyun 2019-cu il tarixli 27459 nömrəli müsbət rəyi mövcuddur.

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 1 saylı Bakı Ərazi İdarəsi, 2 saylı Sumqayıt Ərazi İdarəsi və 3 saylı Gəncə Ərazi İdarəsi tərəfindən mənzillərə mülkiyyət hüquqlarına dair "hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış"lar verilmişdir.**

**Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 7076,02 | 7 | 18 | 1 | 1 | 38,6 | 48,58 | "HN Construction" MMC (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14; | 29.12.2019 |
| | | | | 3 | 1 | 67,2 | 84,9 | | |
| 5 | 7076,02 | 7 | 18 | 1 | 1 | 38,5 | 48,75 | "Merkuri-İnşaat" MMC ("Conco" MMC ilə konsorsium) (binanın 1-ci və 2-ci seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Babək prospekti, ev 64, mənzil 143; | 28.02.2020 |
| 6 | 7076,02 | 7 | 18 | 1 | 3 | 38,5 - 38,6 | 48,58 - 48,76 | "Chinar İnshaat" MMC ("Caspian Service" MMC konsorsium) (binanın 1-ci seksiyası) / Bakı şəhəri, Nəsimi rayonu, İzzət Həmidov küçəsi, ev 3, mənzil 18; "Mak-Art" MMC (binanın 3-cü və 4-cü seksiyaları) / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, ev 26 N; | 29.12.2019<br>29.03.2020<br>29.03.2020 |
| | | | | 2 | 3 | 49,9 - 58,4 | 63 - 71,61 | | |
| 7 | 7076,02 | 7 | 18 | 1 | 3 | 38,5 - 38,8 | 48,75 - 48,82 | "NN Group" MMC (binanın 1-ci və 3-cü seksiyaları) / Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, ev 41, mənzil 47; "Hünər-İnşaat" Firması (binanın 4-cü və 5-ci seksiyaları) / Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63; | 18.06.2020<br>31.03.2021 |
| | | | | 2 | 4 | 49,9 - 58,4 | 61,39 - 71,23 | | |
| | | | | 3 | 2 | 68,9 - 72,8 | 85,68 - 88,15 | | |

**Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 10 | 704,35 | 9 | 2 | 2 | 2 | 57,68 | 69,01 | "Rabitəinşaat" ASC, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küçəsi, ev 227C | 24.07.2023 |
| | | | | 3 | 18 | 72,82 - 72,93 | 85,63 | | |
| | | | | 4 | 18 | 98,7 - 99,03 | 119,5 | | |
| 11 | 708,07 | 9 | 2 | 2 | 2 | 57,68 | 69,01 | "Rabitəinşaat" ASC, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küçəsi, ev 227C | 24.07.2023 |
| | | | | 3 | 18 | 72,82 - 72,93 | 85,63 | | |
| | | | | 4 | 18 | 98,7 - 98,99 | 119,5 | | |
| 12 | 555,09 | 12 | 1 | 3 | 44 | 74,53 - 76,71 | 89,54 - 90,96 | "Rabitəinşaat" ASC, Bakı şəhəri, Nərimanov rayonu, Təbriz küçəsi, ev 227C | 24.07.2023 |
| 13 | 519,08 | 12 | 1 | 3 | 48 | 74,53 - 76,71 | 89,54 - 90,96 | "Hünər İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 24.07.2023 |
| 14 | 519,08 | 12 | 1 | 3 | 48 | 73,71 - 76,71 | 89,54 - 90,96 | "Hünər İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 24.07.2023 |
| 15 | 519,08 | 12 | 1 | 3 | 48 | 74,53 - 76,71 | 89,54 - 90,96 | "Hünər İnşaat" Firması, Bakı şəhəri, Xətai rayonu, Gəncə prospekti, ev 97, mənzil 63. | 24.07.2023 |
| 38 | 828,73 | 9 | 2 | studio | 1 | 40,1 | 48,33 | "HN Construction" QSC, Bakı şəhəri, Binəqədi rayonu, Binəqədi şossesi, ev 185, mənzil 14 | 17.03.2023 |
| 48 | 828,73 | 9 | 2 | 3 | 16 | 72,9 | 85,4 | "Hovers Group" MMC, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 12.09.2023 |
| | | | | 4 | 2 | 114,6 | 135,8 | | |
| 49 | 519,08 | 12 | 1 | 3 | 8 | 75,2 - 76,7 | 89,5 - 91 | "Hovers Group" MMC, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 12.09.2023 |
| 50 | 708,07 | 9 | 2 | 2 | 12 | 57,7 | 69 | "Hovers Group" MMC, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 12.09.2023 |
| | | | | 3 | 18 | 72,9 | 85,6 | | |
| | | | | 4 | 4 | 99 | 119,5 | | |
| 51 | 704,35 | 9 | 2 | 2 | 17 | 57,7 | 69 | "Hovers Group" MMC, Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 12.09.2023 |
| | | | | 3 | 18 | 72,9 | 85,6 | | |
| | | | | 4 | 18 | 99 | 119,5 | | |
| 56 | 708,07 | 9 | 2 | 4 | 1 | 98,7 | 119,5 | "DDlar İnşaat" QSC (TAW Construction MMC konsorsium), Bakı şəhəri, Nərimanov rayonu, Tələt Şıxəliyev küçəsi, ev 20, Qapı 1,2,3. | 03.03.2023 |

**Gəncə Yaşayış Kompleksi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 797,2 | 9 | 2 | studio | 2 | 34,85 | 42,98 | "Müasir Tikintilər" MMC, Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi, məhəllə 546, mənzil 118 | 12.06.2023 |
| | | | | 3 | 3 | 74,43 - 74,78 | 87,05 - 87,35 | | |
| 2 | 797,21 | 9 | 2 | 3 | 3 | 72,55 - 72,74 | 87,46 - 87,53 | "Müasir Tikintilər" MMC, Bakı şəhəri, Yasamal rayonu, Landau küçəsi, məhəllə 546, mənzil 118 | 12.06.2023 |
| | | | | 4 | 18 | 96,1 - 96,67 | 111,31 - 111,37 | | |
| 3 | 797,2 | 9 | 2 | studio | 3 | 34,97 | 42,98 | "Amal Group" MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 27.05.2023 |
| | | | | 3 | 1 | 74,78 | 87,05 | | |
| 4 | 797,2 | 9 | 2 | 2 | 1 | 56,78 | 68,34 | Amal Group MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 27.05.2023 |
| 5 | 804,2 | 9 | 2 | 2 | 1 | 56,4 | 68,34 | Amal Group MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 27.05.2023 |
| 6 | 565,92 | 12 | 1 | 3 | 2 | 75,17 - 75,89 | 89,52 - 90,96 | Amal Group MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 27.05.2023 |

(ardı 15-ci səhifədə)

MİDA

## Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin layihələri – Hövsan Yaşayış Kompleksinin birinci mərhələsində, Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsində, Gəncə Yaşayış Kompleksində və Sumqayıt layihəsində mənzillərin güzəştlə satışı barədə

# ELAN

(əvvəli 14-cü səhifədə)

**Sumqayıt layihəsi üzrə satışa çıxarılmış mənzillər barədə ümumi məlumat:**

| Bina № | Binanın yerləşdiyi tikinti sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | 779,2 | 9 | 2 | 3 | 1 | 74,5 | 87,06 | "Amal Group" MMC ("NN Group" MMC ilə konsorsium) / Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi, ev 22, mənzil 90 | 26.02.2021 |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

***Qeyd -*** *"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.6-cı bəndinə əsasən mənzilin dəyərinin* ***ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər.***

**Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə:**
1 otaqlı mənzillərin qiyməti – **32 725** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **42 415** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **57 120** manatdan başlayır.

**Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə:**
Studio tipli mənzilin qiyməti – **34 085** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **49 028** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **61 897** manatdan,
4 otaqlı mənzillərin qiyməti – **83 895** manatdan başlayır.

**Gəncə Yaşayış Kompleksi üzrə:**
Studio tipli mənzillərin qiyməti – **29 623** manatdan,
2 otaqlı mənzillərin qiyməti – **47 940** manatdan,
3 otaqlı mənzillərin qiyməti – **61 668** manatdan,
4 otaqlı mənzillərin qiyməti – **81 685** manatdan başlayır.

**Sumqayıt layihəsi üzrə:**
3 otaqlı mənzilin qiyməti – **63 325** manatdır.

***Qeyd - mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

**Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | 141-142 manat | 183-213 manat | 246-266 manat |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | |

**Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | | |
|---|---|---|---|---|---|---|
| | | | *Studio tipli* | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | 147 manat | 211 manat | 266-281 manat | 361-419 manat |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | | |

**Gəncə Yaşayış Kompleksi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | | |
|---|---|---|---|---|---|---|
| | | | *Studio tipli* | *2 otaqlı* | *3 otaqlı* | *4 otaqlı* |
| 4% | 3-30 il | 10% | 128 manat | 206-208 manat | 265-278 manat | 351-353 manat |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | | | | |

**Sumqayıt layihəsi üzrə:**

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* |
|---|---|---|---|
| | | | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | 272 manat |
| * Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda. | | | |

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

**Hövsan Yaşayış Kompleksinin birinci mərhələsi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 1 | 32 725 | 3 272 | **29 453** |
| 2 | 42 415 | 4 241 | **38 174** |
| 3 | 57 120 | 5 712 | **51 408** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

**Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| Studio tipli | 34 085 | 3 408 | **30 677** |
| 2 | 49 028 | 4 903 | **44 125** |
| 3 | 61 897 | 6 190 | **55 707** |
| 4 | 83 895 | 8 389 | **75 506** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

**Gəncə Yaşayış Kompleksi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| Studio tipli | 29 623 | 2 962 | **26 661** |
| 2 | 47 940 | 4 794 | **43 146** |
| 3 | 61 668 | 6 167 | **55 501** |
| 4 | 81 685 | 8 168 | **73 517** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

**Sumqayıt layihəsi üzrə:**

| Otaqların sayı | Mənzilin qiyməti (manat) | Əlavə endirim məbləği (manat) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manat) |
|---|---|---|---|
| 3 | 63 325 | 6 332 | **56 993** |
| *Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.* | | | |

Hövsan Yaşayış Kompleksinin birinci mərhələsinin **www.hovsan.mida.gov.az**, Hövsan Yaşayış Kompleksinin ikinci mərhələsinin **www.hovsan2.mida.gov.az**, Gəncə Yaşayış Kompleksinin **www.gence.mida.gov.az**, Sumqayıt layihəsinin **www.sumqayit.mida.gov.az** internet səhifələrinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə güzəştli mənzil kalkulyatoru vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** internet səhifəsində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3 və 5 saylı Bakı, 1 saylı Sumqayıt və 1 saylı Gəncə), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 247 (30363) 14 noyabr 2023-cü il, çərşənbə axşamı

## İdman xəbərləri

### Paris Olimpiadası təxirə salınmayacaq

***Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax dünyada hərbi münaqişələrin sayının artması səbəbindən 2024-cü il Yay Olimpiya Oyunlarının ləğvi ehtimalını istisna edib.***



Bu barədə "Inside the Games" nəşri məlumat yayıb. Qurum rəhbəri dünyada çox güclü geosiyasi gərginliyin olduğunu bildirib: "Hökumətlər və ölkələr arasında çoxlu müharibələr olub, lakin idmançılar həmişə Oyunlarda iştirak ediblər. Bu, Olimpiya Oyunlarının missiyasına uyğundur. Beynəlxalq Olimpiya Komitəsi idmanın əsas ideyasına xəyanət etməyəcək. BMT-yə görə hazırda dünyada 28 müharibə var. Bizim missiyamız idmançılar və idman naminə humanitar missiyasıdır. Biz bunu nəzərə almağa çalışırıq".

Xatırladaq ki, Parisdə Yay Olimpiya Oyunlarının 2024-cü il iyulun 26-dan avqustun 11-dək keçirilməsi planlaşdırılır.

Əvvəlki Tokio Olimpiadası koronavirus pandemiyası səbəbindən bir il sonra – 2021-ci ildə keçirilib. Azərbaycan son olimpiadada 3 gümüş, 4 bürünc medal qazanıb.

### Avropa kubokunda 4 medal

***Azərbaycan cüdoçuları Macarıstanın Dyor şəhərində keçirilən yeniyetmələr arasında Avropa kuboku yarışında 2-si gümüş, 2-si bürünc olmaqla, 4 medal qazanıblar.***



Təmsilçilərimizdən Emil Səfərov (50 kq) və Kənan Sadıqov (66 kq) 2-ci yeri tutublar. Əhməd Mehdiyev (73 kq) və Əli Qazıməmmədov (81 kq) isə bürünc mükafata sahib olublar.

Bu nəticə ilə komandamız ümumi hesabda 11-ci nəticəni göstərib.

Qeyd edək ki, Azərbaycan yarışda 7 çəki dərəcəsində 30 cüdoçu ilə təmsil olunub.

### Atletimiz Afinada 2-ci olub

***Azərbaycan atleti Yunanıstanda keçirilən marafon qaçışı üzrə Balkan çempionatında uğurla çıxış edib.***



Millimizin üzvü Anna Yusupova Afinada təşkil olunan yarışı 2:49:54 göstərici ilə başa vurub. O, bu nəticə ilə yarışda gümüş medal qazanıb.

### Taekvondoçumuz qızıl medal qazanıb

***Azərbaycan taekvondoçusu Qasım Maqomedov (58 kq) İordaniyada keçirilən Asiya regionu üzrə beynəlxalq "Prezident kuboku" yarışında qızıl medal qazanıb.***



İdmançımız yarışın həlledici mərhələsində Bakıda keçirilən son dünya çempionatının qalibi cənubi koreyalı Bae Yun-Seoya qalib gəlib.

Qeyd edək ki, komandamız İordaniyada təlim-məşq toplanışından sonra "Prezident kuboku" yarışına qatılıb.

**Leyla SABİRQIZI**
**XQ**


## OXUCULARIN NƏZƏRİNƏ!

### "Xalq qəzeti"

### *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Mədəniyyət

### Afaq Abbasova İtaliyada Puççiniyə həsr olunan konsertdə

***Azərbaycanın Əməkdar artisti, Prezident mükafatçısı Afaq Abbasova İtaliyanın Lukka şəhərində konsertdə çıxış edib.***



Dünya şöhrətli bəstəkar Cakomo Puççininin vəfatının 100 illiyinə həsr olunmuş ənənəvi konsertdə Afaq Abbasova italiyalı və macar opera ifaçıları ilə eyni səhnəni bölüşüb. Əməkdar artist konsert proqramında bəstəkarın əsərlərini səsləndirib.

Konsertlə bağlı təəssüratlarını bölüşən Afaq Abbasova çıxışından və məşhur ifaçılarla eyni səhnədə olmaqdan məmnunluğunu ifadə edib. Afaq Abbasova ona dəstək olan hər kəsə təşəkkürünü bildirib.

Qeyd edək ki, Afaq Abbasova davamlı olaraq İtaliyada müxtəlif konsertlərdə və tamaşalarda çıxış edir.

**N.AYTƏN**
**XQ**

## Texnologiya yenilikləri

### WhatsApp-da yenilik

**"WhatsApp" gizli söhbətləri parolla bloklamaq funksiyasını işə salıb. Hələ ki, yenilik messencerin testerləri üçün əlçatandır.**



Paroldan istifadə edərək söhbətləri bu yolla bloklamaq funksiyası "Android" üçün beta versiyasında aşkar edilib. Bu versiyanın parametrlərində söhbətlər üçün qoruyucu parol olan bölmə yaradılıb.

Üstəlik, həmin parol smartfonun kilidini açmaq üçün istifadə edilən paroldan fərqli ola bilər. Bundan əlavə, gizli söhbətlərə daxil olmaq üçün üz və ya barmaq izi skanından istifadə mümkündür.

Yeni funksiyanın köməyi ilə istifadəçilər öz məlumatlarının qorunma səviyyəsini artıra biləcəklər. Xüsusilə, fırıldaqçılar smartfonun parolunu bilsələr belə, onlar gizli yazışmalara daxil ola bilməyəcəklər.

Yenilik hazırda yalnız "WhatsApp"ın "Android" beta-versiyası üçün əlçatandır və onu "Google Play" vasitəsilə yükləmək mümkündür. Funksiyanın tam bitmə vaxtı açıqlanmır.

***Ayan NƏCƏF,***
***tələbə-jurnalist***

### Ötən həftə COVID–19 infeksiyasına 19 yoluxma faktı qeydə alınıb

**Noyabrın 6-dan 12-nədək Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 19 yoluxma faktı qeydə alınıb, 27 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında operativ qərargahdan verilən məlumata görə, ötən həftə analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə, ümumilikdə, 834 min 114 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 823 min 716 nəfər müalicə olunaraq sağalıb, 10 min 361 nəfər vəfat edib. Aktiv xəstə sayı 37 nəfərdir.

Son həftədə yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 min 449, bu günə qədər isə, ümumilikdə, 7 milyon 708 min 883 test icra olunub.

**XQ**

## Hava

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, noyabrın 14-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



### Abşeronda yağmursuz, bölgələrdə yağıntılı olacaq

Gecə və səhər bəzi yerlərdə duman olacaq. Arabir güclənən cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 12-15°, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-12°, gündüz 17-22°, dağlarda gecə 0-5°, gündüz 8-13° isti olacaq.

***Q. QASIMOV***
**XQ**

**IX Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində "İrəvan şəhərinin tarixindən: XIX-XX əsrin əvvəllərində" və "История Азербайджана в армянской исторической публицистике и историографии: фальсификация и правда" kitablarının təqdimatı keçirilib. Monoqrafiya Azərbaycanımızın İrəvan şəhərinin – Rəvanqulu xan tərəfindən bünövrəsi qoyulmuş İrəvan qalasının tarixinə həsr edilib.**

### Erməni yalanlarını ifşa edən kitabların təqdimatı



Tədbirin moderatoru Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov kitabda görkəmli Azərbaycan tarixçilərinin 14 rəyinin çap olunduğunu diqqətə çatdırıb.

O, əsərin Tarix İnstitutunun "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin kollektivinin çoxillik zəhməti hesabına ərsəyə gətirildiyini bildirib.

Təqdimatda İrəvanın tarixini "erməniləşdirməyə", onu "Erebuni" adlı mifik məskənlə bağlamağa çalışan saxtakarlar haqqında, qala-şəhərin əsasının qoyulması ilə bağlı bəzi tarixi məsələlər barədə danışılıb.

Tədbirdə qeyd olunub ki, monoqrafiyada İrəvan şəhərinin elmi-mədəni həyatının müxtəlif sahələri də nəzərdən keçirilir.

***Fidan YAQUBLU***
**XQ**

## Sağlamlıq

### Yayda da su, qışda da?

**Orqanizmdə su balansını hər fəsildə saxlamaq lazımdır. Terapevt Nadejda Podkorıtovanın sözlərinə görə, sutkalıq hər kiloqrama 30 millilitr su formulu düzgündür, amma bu, insanın yaşı və həyat tərzindən asılı olaraq, dəyişə bilir.**



Payız və qışda susuzluq siqnalı beyin tərəfindən gec göndərilir, amma susuzlaşma və qanın qatılaşması riski yaydakı qədər olur. Xüsusən, kondisioner, quru, isti hava dərini və tənəffüs yollarını qurudur, daha çox su itirilməsinə səbəb olur.

Qışda az su içmək tez-tez infeksiya və soyuqdəyməyə səbəb olur, xüsusən yaşlı, xəstə insanlarda qan qatılaşır. Şəkər xəstələri əziyyət çəkir.

Qışda sutkada 1,5 litr su içmək qrip və soyuqdəymənin profilaktikasıdır. Dərinin, gözlərin qurumasının qarşısını alır, qanı durulaşdırır. Orqanizmdə su defisitinin əlamətləri yorğunluq, yuxululuq, ağız və dərinin quruması, həm də çox yeməkdir.

***Z.HÜSEYNLİ***
**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun İstintaq idarəsinin rəisi Nemət Əvəzova əzizi

**SƏRXAN ƏVƏZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Hikmət Səmədov Həbib Əzizova babası

**RƏHİM HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4790
SİFARİŞ 2963
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00